ISSN: 2664-4975

# GEOSTRATEGİYA

2023
№5 (77)

BAKI-2023

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Aleksandr Puxkal (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Əlimusa İbrahimov (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***"GEOSTRATEGİYA"*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

# GEOSTRATEGY

2023
№5 (77)

BAKU-2023

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Alimusa Ibrahimov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan to publish the main results of the dissertations of the Republic of Azerbaijan on ***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The international socio-political, scientific-theoretical journal is published six times a year.

UOT 32; 327

ORCİD İD: 0009-0001-1282-888X

# RUSİYANIN 2023-CÜ İL XARİCİ SİYASƏT KONSEPSİYASINDA YAXIN ŞƏRQ VƏ CƏNUBİ QAFQAZ REGİONLARI

**ZÜMRÜD MƏLİKOVA**
*Bakı Slavyan Universitetinin dosenti, siyasi elmlər üzrə fəlsəfə doktoru*

*E-mail: zumrud.melik@gmail.com*

## Giriş

Hər bir dövlətin xarici siyasəti onun fəaliyyətinin ən çətin sahələrindən biridir. Eyni zamanda, xarici siyasətin səmərəliliyi həlledici dərəcədə onun reallığından, məqsədyönlülüyündən və ardıcıllığından asılıdır. Bütün bu xüsusiyyətlər müvafiq doktrinaların, strategiyaların, konsepsiyaların və digər layihələrin hazırlanması mərhələsində müəyyən edilir. Rusiya xarici siyasi fəaliyyətini qəbul etdiyi nəzəri-konseptual sənədlərə uyğun həyata keçirir.

Məlumdur ki, dövlətin xarici siyasətinin konsepsiyaları onun rəhbərinin rəsmi xarici siyasət dəstəyidir. Xarici siyasət konsepsiyası Rusiyanın xarici siyasət fəaliyyətinin məzmunu, prinsipləri və əsas istiqamətlərinə dair baxışlar sistemini əks etdirən sənəddir. Qanuna uyğun olaraq, ölkənin xarici siyasətini beynəlxalq münasibətlərdə Rusiya Federasiyasını da təmsil edən dövlət başçısı müəyyən edir. Konsepsiyanın hazırlanması və həyata keçirilməsi Xarici İşlər Nazirliyinə həvalə edilir. Rusiya Federasiyası beynəlxalq münasibətlərin müstəqil aktoruna çevrildikdən sonra altı Xarici Siyasət Konsepsiyası (XSK) qəbul edilmişdir: 1993, 2000, 2008, 2013, 2016 və 2023-cü illərdə.

Rusiya Federasiyasının ilk XSK prezident Boris Yeltsinin fərmanı ilə 1993-cü il aprelin 23-də qəbul edildi. 2000-ci il 28 iyunda sayca 2-ci XSK prezident Vladimir Putinin fərmanı ilə, 3-cü 2008-ci ilin iyulunda prezident Dmitri Medvedyevin fərmanı ilə, 2013-cu ildə sayca 4-cü, 2016-cı ildə isə 5-ci, 2023-cü ildə isə 6-cı, yəni sonuncu XSK prezident Putinin fərmanı ilə təsdiqləndi. Rusiyanın xarici siyasət konsepsiyaları beynəlxalq münasibətlərdəki qlobal və dinamik inkişafa, geosiyasi mühitə və dövlətlərarası əlaqələrin səviyyəsinə uyğun tərtib edilmiş, xarici siyasət prioritetlərini müəyyənləşdirilmişdi. Rusiyanın sonuncu XSK öncə qəbul edilmiş konsepsiyalardan fərqlənir.

## Rusiyanın xarici siyasət prioritetlərinin dəyişməsi

Rusiya Federasiyasının SSRİ-nin davamçısı dövlət statusu bütövlükdə beynəlxalq birlik və hər bir dövlət tərəfindən ayrıca rəsmi şəkildə tanındı. Bütün MDB ölkələri bunu Dövlət Başçıları Şurasının 21 dekabr 1991-ci il tarixli qərarı ilə Rusiyadan SSRİ-nin BMT-dəki üzvlüyünü, o cümlədən Təhlükəsizlik Şurasında və digər beynəlxalq təşkilatlarda daimi üzvlüyünü tanıdılar. Postsovet məkanının yeganə nüvə dövləti, BMT Təhlükəsizlik Şurasının daimi üzvü olaraq Rusiya Federasiyasının qlobal aktora çevrilmək səyləri gözlənilən nəticəni vermədi. Buna Rusiyanın iqtisadi, ictimai-siyasi durumu və digər amillər güclü təsir göstərdi. Bu baxımdan Rusiya 1990-cı illərdə baş verən qlobal proseslərə güclü təsir edəcək imkana malik olmadı. Rusiya üçün yeni xarici siyasət konsepsiyasının intensiv axtarışı başlandı.

1990-cı illərin əvvəllərində daxili təlatümlər içərisində olan Rusiya aktiv xarici siyasət yeridə bilmədi. ABŞ-ın Şərqi Avropada və keçmiş SSRİ ölkələrində artan nüfuzu nə etirazlara, nə də əks təsirə səbəb olmadı. Rusiya 1993-cü ilin sentyabrında elan edilmiş ABŞ-ın "demokratiyanın genişləndirilməsi" konsepsiyasından nəinki narahatlığını bildirmədi, hətta bu proqramın həyata keçirilməsinin ona birbaşa maddi fayda gətirəcəyini düşünərək onu dəstəklədi.1990-cı illərin əvvəllərində rus diplomatiyası ən çətin vəzifəni həll etməli idi: qaçılmaz itkiləri minimuma endirməyə çalışaraq, yeni Rusiyanı kəskin şəkildə dəyişən beynəlxalq mühitə uyğunlaşdırmaq. Eyni zamanda çətin siyasi və psixoloji problem yarandı. SSRİ bipolyar qarşıdurma şəraitində "dünya kapitalizmi"nə qarşı duran əsas qüvvə kimi dünyada özünəməxsus rolda çıxış edirdi. Lakin postsovet dövründə yeni Rusiya demokratik ölkələrdən biri kimi sıravi dövlət rolunu mənimsəməli oldu.

Rusiyanın ilk XSK 23 aprel 1993-cü ildə "Rusiya Federasiyasının Xarici Siyasət Konsepsiyasının Əsas Müddəaları" adı ilə prezident B.Yeltsin tərəfindən təsdiq edildi. Konsepsiya Rusiya cəmiyyətində

müəyyən qüvvələrin ideoloji münasibətlərindən və ya üstünlüklərindən deyil, ölkənin və onun vətəndaşlarının həyati maraqlarından çıxış edərək hazırlanmışdı. Bu maraqlar sırasında dövlətçiliyin formalaşması proseslərinin və ərazi bütövlüyünün qorunmasının təmin edilməsi; siyasi və iqtisadi islahatların sabitliyini və dönməzliyini təmin edən şəraitin yaradılması; Rusiyanın yeni beynəlxalq münasibətlər sisteminin qurulmasında fəal və bərabərhüquqlu iştirakı göstərilmişdi [6]. Sənəddə ölkənin xarici siyasət prioritetləri sistemini müəyyən edildi və Rusiyanın MDB və Baltikyanı ölkələrlə münasibətləri ön plana çəkildi. Bu fəaliyyət sahəsində keçmiş sovet respublikalarının həyatının bütün sahələrində tam könüllülük və qarşılıqlılıq prinsipləri əsasında mümkün olan maksimum inteqrasiya dərəcəsinə nail olmaq istiqamətində kursun davam etdirilməsinin Rusiyanın mənafeyinə uyğun olması tezisi var idi. Rusiyanın xarici siyasətinin digər prioritet istiqaməti kimi Rusiyanın tarixən formalaşmış maraq dairəsində olan Şərqi Avropa ölkələri ilə münasibətlər müəyyən edildi. Konsepsiyada qarşılıqlı etimadın bərpası istiqamətində əldə olunmuş nailiyyətlərin möhkəmləndirilməsi, pozulması bütün iştirakçı tərəflərə ciddi ziyan vuran iqtisadi və digər əlaqələr sisteminin inkişaf etdirilməsi tövsiyə olunurdu. Sənəd eyni zamanda Avropa Birliyi və Qərbi Avropa ölkələri ilə əlaqələrin inkişafını nəzərdə tuturdu. Avropa inteqrasiyasının Rusiyasız həyata keçirilməsinin bu ölkənin həyati maraqlarına ciddi ziyan vura biləcəyi də qeyd olunmuşdu. Qısa zaman ərzində Rusiyanın birgə inteqrasiya etməyi planlaşdırdığı Baltikyanı və Şərqi Avropa ölkələri NATO və Avropa İttifaqının üzvü oldular. Geosiyasi mübarizədə bu regionlardan sıxışdırılıb çıxarılan Rusiyanın müasir beynəlxalq münasibətlərdəki təcavüzkar siyasətinə təsir göstərən əsas amillərdən biri məhz Avropa inteqrasiyası oldu.

Rusiya Yaxın Şərq regionu ilə bağlı siyasətində nizamlanmasında keçmiş SSRİ-nin də iştirak etdiyi Ərəb-İsrail münaqişəsinin həlli və regionda çoxtərəfli təhlükəsizlik sisteminin yaradılması kimi ənənəvi sahələr qeyd olundu. Regionla bağlı yeni vəzifələrə - İraq ətrafında problemlərin həllində Rusiyanın rolunun artırılması və regional silah və xammal bazarında Rusiyanın iştirakının gücləndirilməsi əlavə edildi.

Sonrakı illərin praktikası göstərdi ki, Rusiyanın "amerikapərəst" və "qərbyönlü" xarici siyasətinə ümidlər özünü doğrultmadı və bir çox obyektiv səbəblərə görə bu siyasətin çoxvektorlu olması həqiqətini bir daha təsdiqlədi. Bu hal Rusiyanın sonrakı xarici siyasət konsepsiyasının tərtibi zamanı nəzərə alındı. Sonrakı illərdə qəbul edilmiş dörd konsepsiya qloballaşma proseslərinin kəskin sürətlənməsinin dinamikasını aydın şəkildə əks etdirirdi. 2000-ci il konsepsiyası ABŞ-ın iqtisadi və hərbi dominantlığı altında dünyanın birqütblü strukturunun yaradılması istiqamətində tendensiyanı müəyyənləşdirdi. 2008-ci il Konsepsiyasında yeni qlobal proseslər sırasında "polisentrik dünya düzəni" istiqamətində səylərin nəticəsi olaraq "çoxqütblülüyün yaranması" qeyd edilmişdir. Doktrinal baxımından 2000-ci il konsepsiyası sonrakı 2008-ci il, 2013 və 2016-cı il konsepsiyaları üçün əsas oldu [5].

2013-cü il konsepsiyası artıq tendensiyaları deyil, özəlliyi "polisentrik beynəlxalq sistemin formalaşmasında" olan keçid dövrünün aydın şəkildə müəyyən edilmiş reallıqlarını əks etdirir. Bununla yanaşı, dünya qüvvələrinin və inkişafın potensialının Şərqə, ilk növbədə (daha çox) Asiya-Sakit okean regionuna yönləndiyinin müşahidə edildiyi qeyd olunmuşdu. 2008-ci konsepsiyasında böhranlara daha davamlı beynəlxalq sistemin formalaşması üçün ilkin şərtlərdən kifayət qədər nikbin bəhs olunurdu. İlk dəfə olaraq çoxvektorlu yanaşma Rusiya xarici siyasətinin fərqli xüsusiyyəti kimi elan edildi. Əsas vəzifələr siyahısına ölkənin "modernləşdirilməsi üçün əlverişli xarici şəraitin yaradılması" daxil edildi. 2013-cü il konsepsiyasında qiymətləndirmələr dəyişir, belə ki, maliyyə-iqtisadi çağırışları və qlobal iqtisadiyyatdakı böhran elementlərini, həll edilməmiş struktur problemləri və aparıcı Qərb ölkələrində uzun sürən depressiyanı əks etdirən müddəalar qeyd olmuşdu. 2013-cü il konsepsiyasında ilk dəfə olaraq beynəlxalq siyasətdə "yumşaq güc" deyilən siyasətin tətbiqi məsələsinə diqqət yetirilmişdi.

2016-cı il konsepsiyası müasir dünyanın nüfuzlu mərkəzlərindən biri kimi Rusiya Federasiyasının mövqelərinin möhkəmləndirilməsini, beynəlxalq aləmdə rolunun artmasına əks təsir cəhdlərinin qarşısının alınmasında milli maraqlarından çıxış edəcəyini bəyan edir[2]. Rusiya Federasiyasının xarici siyasətinin regional prioritet istiqamətləri iyerxiyasına Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv dövlətlərlə ikitərəfli və çoxtərəfli əməkdaşlığın inkişafı və Rusiyanın iştirakı ilə MDB-də fəaliyyət göstərən inteqrasiya strukturlarının daha da gücləndirilməsi aid edilirdi. Regional prioritetlər arasında konsepsiyada ilk dəfə olaraq Suriyanın birliyini, müstəqilliyini və ərazi bütövlüyünü qoruyub saxlamaqla siyasi nizamlamanın zəruriliyi göstərilmişdi. Sənəddə ayrıca Ukrayna böhranından da bəhs edilmişdi. Rusiya bütün maraqlı dövlətlər və beynəlxalq strukturlarla əməkdaşlıq

edərək, Ukraynadaxili münaqişənin siyasi və diplomatik yolla həlli üçün səy göstərməyə hazır olduğu vurğulanmışdı [3]. Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) və Avropa İttifaqının (Aİ) həyata keçirdikləri geosiyasi ekspansiyanın son 25 ildə sistemli problemlərə və Rusiya ilə Qərb dövlətləri arasında münasibətlərdə ciddi böhrana səbəb olduğu konsepsiyada xüsusilə vurğulanmışdı. Göründüyü kimi, beynəlxalq münasibətlərdə özünü güc mərkəzi kimi görmək istəyən Rusiyanın XSK getdikcə daha sərt və Qərbə münasibətdə tənqidi tonlarda tərtib edilmişdi.

Postpandemiya dövrünün reallıqları, xüsusən də Ukraynada müharibə Rusiyanın xarici siyasətinin vəzifələri, istiqamətləri, əsasən də regional prioritetlərində dəyişiklik etməsinə səbəb oldu. Bu cəhətdən Rusiyanın 2023-cü il XSK əvvəlki konsepsiyalardan fərqli regional siyasət izləyən sənəddir.

**2023-cü il Xarici Siyasət Konsepsiyasında yeniliklər**

2023-cü il martın 31-də Rusiya Federasiyası prezidentinin 229 nömrəli Fərmanı ilə yeni XSK-nin mətni dərc edildi. Bu konsepsiya Rusiyanın milli maraqlarına dair baxışlar sistemini əks etdirən strateji planlaşdırma sənədi olub əvvəlki konsepsiyalardan fərqlənir.

Xarici siyasət sahəsində əsas strateji hədəflər arasında aşağıdakılar qeyd olunub:

-Rusiyanın təhlükəsizliyini, bütün sahələrdə suverenliyini və ərazi bütövlüyünü təmin etmək;

-Rusiyanın inkişafı üçün əlverişli xarici şəraitin yaradılması;

-Rusiyanın müasir dünyanın məsuliyyətli, nüfuzlu və müstəqil mərkəzlərindən biri kimi mövqeyinin möhkəmləndirilməsi [4].

Konsepsiyada qeyd olunur ki, hazırda daha ədalətli, çoxqütblü dünya formalaşır, müstəmləkəçi iqtisadi model isə keçmişdə qalır. Bu, eyni zamanda, qlobal hökmranlıq və neokolonializm məntiqi ilə düşünməyə vərdiş etmiş bir sıra dövlətlər tərəfindən qəbul edilmir. Nəticədə tarixin təbii axarını cilovlamağa, hərbi-siyasi və iqtisadi sahədə rəqibləri sıradan çıxarmağa, fərqli düşüncələri yatırmağa cəhdlər edilir.

Yeni konsepsiyada müasir dünyanın inkişaf tendensiyaları yenidən qiymətləndirilib. Sənəddə Qərbin "qaydalara əsaslanan nizam" formalaşdırmaq siyasətinə münasibətdə BMT-nin əlaqələndirici rolunun bərpa edilməsinin zəruriliyi vurğulanıb. Belə ki, məhz fundamental transformasiyalar dövründə BMT mərkəzli beynəlxalq münasibətlərin dəstəklənməsi və BMT Nizamnaməsində təsbit olunmuş beynəlxalq kommunikasiya prinsipləri, ilk növbədə dövlətlərin suveren bərabərliyi prinsipi xüsusi rola malik olduğu vurğalanıb. Sənəddə qeyd olunur ki, BMT-nin gücləndirilməsi vəzifəsi Rusiya ilə Qərb arasında münasibətlərin kəskinləşməsi nəticəsində yaranan geosiyasi böhran başa çatdıqdan sonra xüsusilə aktuallaşacaqdır. Gələcəkdə qeyri-Qərb dünyasının maraqları nəzərə alınmaqla təşkilatın yenilənməsi zərurəti yaranacağı şübhəsizdir. Lakin universal institutlara əsaslanan multipolyar dünyanın formalaşmasının yaxın perspektivdə formalaşması real görünmür.

İlk dəfə olaraq yeni müstəmləkəçilik praktikalarına qarşı mübarizəyə vurğu edilib ki, bu da həm Qərb dövlətlərinin hegemonluğunun qarşısını almağa, həm də qeyri-Qərb dünyası ölkələrində Rusiyanın mövqelərini gücləndirməyə imkan verəcəkdir. Yeni müstəmləkəçilik məntiqinin bariz nümunəsi kimi Ukraynada hibrid müharibənin yeni növü və bundan irəli gələn siyasi və iqtisadi nəticələr göstərilib. Qərb ölkələri çoxqütblü dünyanın reallıqlarını rədd edərək, universal strukturlardan, o cümlədən BMT Təhlükəsizlik Şurasından yan keçərək geniş spektrli hərbi-siyasi alətlərə üstünlük verirlər [1].

Yeni XSK-na görə strateji planlaşdırmanın yeni forması tətbiq edilir. Əvvəlki konsepsiyalarda rəhbər element Rusiya Federasiyasının xarici siyasətinin əsas məqsədi (ən ali prioritet) idi. 2023-cü il XSK-nin yeni nəşri Rusiyanın üzləşdiyi çağırışların və təhdidlərin çoxtəbəqəli xarakterini əks etdirən üçlü formula əsaslanır. Strateji məqsədlər ondan irəli gəlir və bu da, öz növbəsində təcrübə yönümlü məqsədlərin qoyulması üçün başlanğıc nöqtə kimi çıxış edir.

Konsepsiyada qlobal prioritetlər sisteminin dəyişikliklərə məruz qaldığı qeyd olunub. Sənəddə Dünya Okeanı, kosmos və hava məkanını əhatə edən "yeni ərazilərdə" Rusiya Federasiyasının milli maraqlarının təmin edilməsi ilə bağlı yeni bölmə ayrılmışdır. Bundan əlavə, beynəlxalq inkişafı təşviq edən tədbirlərə xüsusi diqqət yetirilib. Konsepsiyanın I bölməsində insan hüquqları sahəsində ilk dəfə olaraq Rusiya vətəndaşlarının qanuni hüquqlarının və mənafelərinin müdafiəsi ön plana çıxır. Maraqlıdır ki, qeyri-dost xarici dövlətlərin təşəbbüsü ilə irəli sürülən və həyata keçirilən "rusofobiya"ya qarşı mübarizə humanitar siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edilib[1].

2023-cü il XSK-da yalnız dövlətlər üzrə prioritetlərin iyerarxiyası deyil, həm də regionların coğrafi sərhədləri dəyişdirilib. Belə ki, 2023-cü ilə qədər "İslam dünyası" və "Avrasiya qitəsi" anlayışı Rusiyanın xarici siyasətinin ayrı-ayrı regional istiqamətləri kimi

istifadə olunmurdu. Yeni bölgü sərhədlərin klassik anlayışının dar çərçivəsindən kənara çıxmağa və həm formalaşmaqda olan güc mərkəzlərini, həm də ümumi regional məkana aparıcı inteqrasiya birliklərini daxil etməyə imkan verir.

Prioritet ardıcıllığı baxımından "Yaxın xaric" ölkələrin və birliklərinin əsas rolu konsepsiyanın V bölməsində ("Rusiya Federasiyasının xarici siyasətinin regional istiqamətləri" adlanır-qeyd Z.Məlikova) qeyd olunub. Bir sonrakı prioritet kimi Arktika göstərilir. Arktikanın hərbiləşdirilməsinin qarşısının alınması və Şimal dəniz yolunun inkişafı üçün şərait yaradılması vəzifəsi son dərəcə vacib hesab edilib. Asiya-Sakit okean regionu, İslam dünyası, Afrika, Latın Amerikası və Karib hövzəsi ölkələri ilə əməkdaşlığın inkişafına böyük önəm verildiyi qeyd olunur. Rusiya tərəfdaşlar və müttəfiqlərlə qarşılıqlı əlaqə qurarkən maraqlara qarşılıqlı hörmət prinsipindən çıxış edir və blok prinsipi üzrə bölücü xətlərin yaradılmasının qarşısının alınacağını hədəfləyir [1].

Konsepsiyanın V bölməsinin 59-64-cü bəndlərində qeyd olunur ki, Avropa regionu dövlətləri, ABŞ və onların anqlosakson tərəfdaşları (Avstraliya, Kanada, Yeni Zelandiya) ilə münasibətlər birbaşa onların fəaliyyət strategiyasından asılıdır [1]. Rusiya qeyri-dost ölkələrin təcavüzkar siyasəti və onların birtərəfli iqtisadi üstünlüklər əldə etməsi nəticəsində milli təhlükəsizliyə və suverenliyə təhdidlərin artmasının qarşısını almağa çalışır. Konsepsiyada vurğulanır ki, Qərb ölkələri Rusiyaya qarşı yeni növ hibrid müharibəyə başlayıblar. Eyni zamanda, Rusiya özünü Qərbin düşməni hesab etmir, özünü ondan təcrid etmir, ona qarşı düşmənçilik niyyəti yoxdur və gələcəkdə Qərb dövlətlərinin Rusiyaya münasibətdə bir-birinin maraqlarına hörmət əsasında praqmatik qarşılıqlı fəaliyyətə qayıdacaqlarına ümid edir. Xarici dövlətlərin Rusiyaya qarşı qeyri-dost hərəkətlərinin onun suverenliyini təhdid etdiyi vəziyyət ayrıca açıqlanır. Rusiya bu cür qeyri-dost hərəkətlərin qarşısını almaq, həmçinin onların təkrarlanmasına yol verməmək üçün simmetrik və asimmetrik tədbirlər görə bilər.

Regional prioritetlər iyerarxiyasında son olaraq Antarktida ilə bağlı "Rusiyanın bu sahədə prioritetləri dəyişməz olaraq qalır" qeyd olunub [1]. Əsas məqsəd bölgənin hərbiləşdirilməsinə yol verilməməsi, ekoloji dayanıqlığın təmin edilməsi və Rusiya Federasiyasının regionda mövcudluğunun gücləndirilməsidir.

Konsepsiyada ölkənin xarici siyasətinin həyata keçirilməsinə cavabdeh olan qurumların sayının artırıldığı, bu sahədə ənənəvi qurumların (Prezident, Federasiya Şurası və Federal məclisin Dövlət Duması, Hökumət, Təhlükəsizlik Şurası, Xarici İşlər Nazirliyi, Rossotrudniçestvo) işinə yaradılacaq Dövlət Şurası da yardım edəcəkdir. Bu dövlətin ali rəhbərliyində dəyişiklik olacağı təqdirdə xarici siyasət xəttinin davamlılığını qoruyub saxlamağa imkan verəcək. Bundan əlavə, siyasi partiyalar, Rusiya Federasiyasının İctimai Palatası, QHT-lər, işgüzar dairələr və KİV kimi müxtəlif təşkilatların geniş bazasına arxalanma mühüm rol oynayır [1].

XSK-nın yeni redaksiyasının nəşri bir sıra mühüm resurslara malik olan Rusiyanın özünü "özünəməxsus dövlət-sivilizasiya, böyük Avrasiya və Avropa-Sakit Okean dövləti" kimi qəbul etməsində dəyişiklikdən xəbər verir. Habelə, konsepsiyada Rusiyanın BMT Təhlükəsizlik Şurasının daimi üzvü və SSRİ-nin varisi kimi çıxış edən və İkinci Dünya Müharibəsində qələbəyə həlledici töhfə verən, beynəlxalq münasibətlər sisteminin yaradıcılarından olan iki aparıcı nüvə dövlətindən biri statusunu qoruyub saxlayan dövlət olduğu göstərilib.

**Yeni Xarici Siyasət Konsepsiyasında Cənubi Qafqaz və Yaxın Şərq regionu ilə bağlı müddəalar**

2023-cü il XSK-nin V bölməsinin 49-cü bəndində: "Rusiyanın təhlükəsizliyi, sabitliyi, ərazi bütövlüyü və sosial-iqtisadi inkişafı, dünyanın nüfuzlu suveren mərkəzlərindən biri kimi mövqeyini möhkəmləndirməsi üçün ən mühüm regional istiqamət - çoxəsrlik birgə dövlətçilik ənənələri, bir çox sahələrdə dərin qarşılıqlı asılılığa malik, ortaq dil, yaxın mədəniyyətlərlə bağlı olan MDB üzvləri ilə və digər qonşu dövlətlərlə müxtəlif sahələrdə davamlı və uzunmüddətli mehriban qonşuluq münasibətlərinin təmin edilməsi və potensialların birləşdirilməsidir" qeyd olunub. Rusiyanın "Yaxın xaric" adlandırdığı bu ölkələr postsovet ölkələridir. Cənubi Qafqaz regionu həm təhlükəsizlik, həm geosiyasi cəhətdən Rusiyanın regional siyasətində ən əhəmiyyətli yerlərdən birini tutur. Cənubi Qafqazda silahlı münaqişələrin qarşısının alınması və həlli, dövlətlərarası münasibətlərin yaxşılaşdırılması və "Yaxın xaric"də sabitliyin təmin edilməsi, o cümlədən Rusiyanın müttəfiqlərinin və tərəfdaşlarının daxili işlərinə "rəngli inqilablar"la təsir etmək və digər müdaxilə cəhdlərinin dayandırılması əsas diqqət yetiriləcək məsələlərdir [1]. Eləcə də, qeyri-dost dövlətlərin hərbi infrastrukturunun yerləşdirilməsinə və ya gücləndirilməsinə, Rusiyanın "Yaxın xaric"də təhlükəsizliyinə digər təhdidlərə qarşı mübarizə, Gürcüstandan ayrılmış Abxaziya və Cənubi Osetiyaya hərtərəfli dəstək, bu separat döv-

lətlərin xalqlarının Rusiya ilə inteqrasiyanın dərinləşdirilməsi lehinə beynəlxalq hüquqa əsaslanan könüllü seçimin həyata keçirilməsinə yardım göstərmək Rusiyanın regional siyasətində əsas prioritetlər sırasındadır.

Rusiyanın 2023-cü il XSK-da əsas yeniliklərdən biri bu sənəddə İslam dünyası ölkələri ilə bağlı prioritetlərin yer almasıdır. Rusyanın regional siyasətində Yaxın Şərq regionu ölkələri, xüsusən İslam dünyası ilə bağlı konsepsiyanın V bölməsinin 56-cı bəndində qeyd olunur: Rusiyanın qlobal və regional səviyyədə təhlükəsizliyinin və sabitliyin təmin edilməsi, iqtisadi problemlərin həlli məsələlərində dost İslam sivilizasiyası dövlətləri getdikcə populyar və etibarlı tərəfdaşlara çevrilirlər. Rusiya İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətləri ilə onların ictimai-siyasi strukturlarına və ənənəvi mənəvi-əxlaqi dəyərlərinə hörmət edərək hərtərəfli qarşılıqlı faydalı əməkdaşlığı gücləndirməyə çalışır [1]. Bu məqsədlə Rusiya Federasiyası aşağıdakılara üstünlük vermək niyyətindədir:

1. İran İslam Respublikası ilə hərtərəfli və etibarlı qarşılıqlı əlaqələrin inkişafı, Suriya Ərəb Respublikasının hərtərəfli dəstəyi, o cümlədən Türkiyə Respublikası, Səudiyyə Ərəbistanı Krallığı, Misir Ərəb Respublikası və İslam Əməkdaşlıq Təşkilatına üzv olan digər dövlətlər ilə onların suverenlik dərəcəsini və Rusiya Federasiyasına qarşı siyasətinin konstruktivliyini nəzərə alaraq çoxşaxəli qarşılıqlı faydalı tərəfdaşlığın dərinləşdirilməsi;

2. Yaxın Şərqdə və Şimali Afrikada bütün dövlətlərin və regionların dövlətlərarası birliklərinin, o cümlədən Ərəb Dövlətləri Liqası və Fars körfəzi Ərəb Dövlətləri Əməkdaşlıq Şurasının potensialının birləşdirilməsinə əsaslanan sabit hərtərəfli regional təhlükəsizlik və əməkdaşlığın arxitekturasının formalaşması Rusiyanın regional prioritetləri sırasındadır. Rusiya Fars körfəzində Kollektiv təhlükəsizliyin təmin edilməsi konsepsiyasının həyata keçirilməsi üçün bütün maraqlı dövlətlər və dövlətlərarası birliklərlə fəal əməkdaşlıq etmək niyyətindədir, belə ki, bu təşəbbüsün həyata keçirilməsini Yaxın Şərq regionunda vəziyyətin davamlı və hərtərəfli normallaşdırılması istiqamətində mühüm addım hesab edir;

3. Dinlərarası, mədəniyyətlərarası dialoqun və qarşılıqlı anlaşmanın təşviqi, ənənəvi mənəvi-əxlaqi dəyərlərin qorunması istiqamətində, islamafobiya ilə, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı vasitəsilə mübarizə üçün səylərin birləşdirilməsi;

4. İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlər, habelə bu dövlətlərlə onların qonşuları arasında (ilk növbədə İran İslam Respublikası və ərəb ölkələri arasında, Suriya Ərəb Respublikası və onun qonşuları ilə, ərəb ölkələri və İsrail ilə), o cümlədən Fələstin məsələsinin hərtərəfli və davamlı həllinə yönəlmiş səylər çərçivəsində münasibətlərin normallaşdırılması və ziddiyyətlərin aradan qaldırılması;

5. Yaxın Şərqdə, Şimali Afrikada, Cənubi, Cənub-Şərqi Asiyada və İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin yerləşdiyi digər regionlarda silahlı münaqişələrin nizamlanmasına və nəticələrinin aradan qaldırılmasına kömək etmək;

6. Böyük Avrasiya Tərəfdaşlığının formalaşdırılması məqsədilə İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin iqtisadi potensialından istifadə etmək [1].

Göründüyü kimi, Rusiyanın xarici siyasətinin regional prioritetlərində Yaxın Şərq regionu ölkələri xüsusi yer tutur. Regionun digər güc mərkəzləri üçün mühüm əhəmiyyətini nəzərə alsaq, Yaxın Şərqdə geosiyasi rəqabətin daha da kəskinləşəcəyi proqnozlaşdırıla bilər. Yaxın Şərqin siyasi, iqtisadi və geosiyasi əhəmiyyəti yalnız onun geostrateji mövqeyi ilə bağlı deyil, eyni zamanda zəngin karbohidrogen ehtiyatları ilə də şərtlənir. Güc mərkəzi kimi qlobal oyunçuya çevrilməyi hədəfləyən (2023-cü XSK qeyd olunub) Rusiya üçün Yaxın Şərqdə mövqelərini qoruyub saxlamaq, təsirini genişləndirmək xüsusən vacib əhəmiyyət daşıyır.

**Nəticə**

Beləliklə, Rusiyanın geniş məkanı əhatə edən ərazisi, müxtəlif resursları və Avropa ilə Asiya arasında strateji mövqeyi onun xarici siyasət fəaliyyətinə birbaşa təsir göstərir. Rusiyanın öz sərhədlərinin təhlükəsizliyinə diqqət yetirməsi, strateji resurslara (məsələn, enerji ehtiyatları) nəzarəti saxlaması, milli maraqlarının olduğu regionlarda təsir dairəsini və nüfuzunu qoruyub saxlamağa cəhdləri onun geosiyasi maraqlarının təmini və hal-hazırki Rusiya hakimiyyətinin imperiya ambisiyalarından qaynaqlanır. Rusiyanın qonşu dövlətlər üzərində təsirini saxlamaqda maraqlı olduğunu vurğulayan "Yaxın xaric" anlayışı (bu coğrafiyaya Cənubi Qafqaz regionu da daxildir) onun xarici siyasət strategiyasında coğrafiyanın əhəmiyyətini göstərir.

Yeni XSK-da Rusiya Qərbin dəyər və normalarına təcavüz kimi qəbul etdiyi şeylərə meydan oxuyaraq, özünü Qərbin hökmranlığına qarşı tarazlıq kimi göstərməyə çalışır. Bu şəxsiyyətə əsaslanan yanaşma tez-tez anti-status-kvo hərəkatlarını dəstəkləmək və mövcud nizama meydan oxuyan həmfikir dövlətlərlə ittifaqlar qurmaq kimi iddialı hərəkətlərlə özünü göstərir. Strateji təhlükəsizliyin pozulduğu, iri dövlət-

lər (o cümlədən nüvə dövlətləri) arasında toqquşma risklərinin artdığı qeyd edilir.

Postpandemiya və Qərb dövlətləri ilə böhranlı münasibətlər şəraitində qəbul edilmiş Rusiyanın 2023-cü il XSK-nın müddəalarını təhlil edərək belə nəticəyə gəlmək olur ki, Rusiya ənənəvi xarici siyasət prioritetlərini və tərəfdaşlıq münasibətlərini qoruyub saxlamaqla yanaşı, müasir beynəlxalq münasibətlərdəki təcavüzkar davranışını sərtləşdirməkdən, güc tətbiqindən çəkinmir. Qlobal oyunçu olmağı hədəfləyən Rusiya bir sıra regionlarla bağlı prioritetlərində müəyyən dəyişiklik edib. Konsepsiyada Cənubi Qafqaz regionunun daxil olduğu "Yaxın xaric"lə bağlı prioritetlər dəyişməz olaraq qalır. Yaxın Şərq ölkələri – İran, Suriya, Türkiyə, Səudiyyə Ərəbistanı və Misir ilə çoxşaxəli qarşılıqlı faydalı tərəfdaşlığın genişləndirilməsi, İslam ölkələri və regionun digər ölkələri ilə əlaqələrin inkişaf etdirilməsi, Fələstin məsələsinin həlli regional prioritetlər sırasındadır. Rusiya-Ukrayna müharibəsindən sonra konsepsiyanın müddəalarında dəyişikliklər ediləcəyi, yeni dünya düzəninə, formalaşacaq strukturuna və geosiyasi reallıqlarına uyğun tərtib ediləcəyi proqnozlaşdırılır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Концепция внешней политики Российской Федерации. https://www.mid.ru/ru/detail-material-page/1860586/*

*2. Об утверждении Концепции внешней политики Российской Федерации: Указ Президента Российской Федерации от 30 ноября 2016 № 640. - Москва, 2016. - 1, 37 листов.*

*3. Указ Президента Российской Федерации от 30.11.2016 г. № 640 http://kremlin.ru/acts/bank/41451*

*4. Утверждена новая Концепция внешней политики РФ. https://www.garant.ru/news/1616826/*

*5. Как менялась Концепция внешней политики России. https://tass.ru/info/17418381*

*6. Концепции внешней политики Российской Федерации: сравнительный анализ. https://mgimo.ru/upload/iblock/64c/64c1af3dde997df9ff3afd0a0c8bdb01.doc*

## XÜLASƏ

Rusiyanın xarici siyasətində və geosiyasətində Yaxın Şərq və Cənubi Qafqaz bölgələri xüsusi yer tutur. Rusiyanın xarici siyasət konsepsiyaları və digər nəzəri-konseptual sənədlərində bu bölgələrlə bağlı bir sıra məsələlərə yer ayrılıb. Rusiyanın 31 mart 2023-cü il tarixli Xarici Siyasət Konsepsiyasında əvvəlki konsepsiya və doktrinalardan fərqli məsələlər, Rusiyanın gələcək xarici siyasət prioritetləri geniş şəkildə şərh olunub. Konsepsiyada müasir beynəlxalq münasibətlərdəki yeni tendensiyalar, inkişaf perspektivləri, Rusiyanın milli maraqları, əsas məqsəd və vəzifələri, xarici siyasət prioritetləri, regional siyasəti ilə bağlı gələcək xarici siyasət fəaliyyətinin əsas istiqamətləri göstərilib. Ukraynada müharibə aparan Rusiyanın yeni Xarici Siyasət Konsepsiyasında dost və qeyri-dost dövlətlər, regionlarla bağlı siyasəti müasir beynəlxalq münasibətlərin reallıqlarına uyğun tərtib edilib və təcavüzkar xarakter daşıyır. Rusiyanın 2023-cü il Xarici Siyasət Konsepsiyasının müddəalarında Yaxın Şərq və Cənubi Qafqaz regionları ilə bağlı prioritetləri müqayisə, siyasi təhlil və kontent-analiz metodlarının tətbiqi ilə araşdırılıb və təhlil edilib.

**Açar sözlər:** *Rusiya, xarici siyasət konsepsiyası, Yaxın Şərq, Cənubi Qafqaz.*

**Zumrud Melikova**

## MIDDLE EAST AND SOUTH CAUCASUS REGIONS IN 2023 FOREIGN POLICY CONCEPT OF RUSSIA

## SUMMARY

The Middle East and South Caucasus regions occupy a special place in Russia's foreign policy and geopolitics. Russian foreign policy concepts and other theoretical-conceptual documents address a number of issues related to these regions. In the Foreign Policy Concept of Russia, dated March 31, 2023, issues different from the previous concepts and doctrines, as well as Russia's future foreign policy priorities, were broadly interpreted. In the concept, new trends in modern international relations, development prospects, national interests of Russia, main goals and objectives, foreign policy priorities, and main directions of future foreign policy activities related to regional policy are indicated. In the new Foreign Policy Concept of Russia, which is waging war in Ukraine, its policy regarding friendly and unfriendly states and regions is designed in accordance with the realities of modern international relations and has an aggressive nature. Priorities related to the Middle East and South Caucasus regions in the provisions of Russia's 2023 Foreign Policy Concept were examined and analyzed by applying the methods of comparison, political analysis and content analysis.

**Keywords:** *Russia, foreign policy, Middle East, South Caucasus.*

УДК 327; 930.22

# ИЗРАИЛЬ — АЗЕРБАЙДЖАН: НОВАЯ РЕАЛЬНОСТЬ ИЛИ ИСТОРИЯ МНОГОВЕКОВЫХ ОТНОШЕНИЙ. ПЕРСПЕКТИВЫ, ПОТЕНЦИАЛ ВЗАИМООТНОШЕНИЙ

**НАРМИН АЗАДГИЛЬ**
*Бакинский Государственный Университет,*
*Факультет международных отношений и экономики,*
*Кафедра Международных отношений.*
*Доктор философии по философским наукам*

*E-mail: narmin.azadgil@gmail.com*

В 1993 году, после распада СССР, объектом пристального внимания в Израиле стали процессы системной дезинтеграции. Правительство Израиля хорошо помнили тот факт, что еще недавно, в 1967 году интернациональные отношения были разорваны по инициативе СССР, в связи с началом Шестидневной войны, и были восстановлены только 18 октября 1991 года.

Распад, еще недавно казавшегося прочным, обьединения 15 республик и образование на его базе независимых государств вызвал в Израиле противоречивые чувства. Сразу после распада Израиль признал независимость бывших республик СССР и установил дипломатические отношения с ними.

Для государства было несомненно важно налаживать политические отношения с государствами, делавшими первые шаги к вхождению на международую арену. И, конечно, Израиль желал усилить свое влияние среди мусульманских стран. В конституциях независимых стран они представляли себя светскими государствами. Хороший пример этому – цитата из конституции Азербайджанской республики: «В Азербайджанской Республике религия отделена от государства. Все вероисповедания равны перед законом» [1].

С обретением независимости в 1991 г. и возможности проводить самостоятельно внешнюю политику Азербайджан начал трудный путь поиска своего места на геополитической карте мира. И в этот момент политические пути Азербайджана и Израиля пересеклись.

Но только ли религиозный аспект привлек внимание Израиля к Азербайджану? И неужели только после распада СССР их пути пересеклись?

Отношения Израиля и Азербайджана имеют давнюю историю, они начались далеко не в 1991 году. И даже не в 1993 году, во время установления дипломатических отношений. Взаимоотношениям азербайджанцев и евреев уже много веков. А прежде всего следует отметить, что евреи проживают в Азербайджане уже более 2000 лет. Это важный факт, что по проживанию евреев Азербайджанская Республика занимает второе место после Израиля, исторической родине этого народа. Так в 2020 году, во время Второй Карабахской войны, Еврейская община Азербайджана направила евреям Израиля и всего мира заявление в поддержку Азербайджанской Республики: «Мы, как многотысячная еврейская община Азербайджана, решительно призываем к освобождению оккупированных территорий Азербайджана, а также к ответу за провокацию и начало новой войны Армении против Азербайджана. Мы обращаемся ко всему международному сообществу с просьбой привлечь Армению к ответственности! Мы также призываем мировую еврейскую общественность поддержать территориальную целостность Азербайджана, тем самым поддержать международное право! Мы, евреи Азербайджана, всегда были и будем рядом с азербайджанским народом и вместе с азербайджанскими братьями будем защищать нашу Родину!» [2].

В поселке Красная Слобода Губинского района проживают около 20 тыс. евреев. В их распоряжении три синагоги, учебные и культурные центры для обучения местных евреев. На территории современного Азербайджана существует три еврейские общины: горские евреи, евреи-ашкенази и грузинские евреи.

Жили евреи в Азербайджане веками, но массово переезжать в Баку они стали с 1830-х годов во время первого нефтяного бума, куда многие устремились в поисках работы. Со времен первой миграции в Баку евреи оставили неизгладимый след в истории и ландшафте города. В Азербайджане живет большая еврейская община численностью до 25.000 человек. Евреи здесь, в мусульманской стране, спокойно отмечают национальные праздники, посещают синагоги, а дети - еврейские школы. В Бакинском университете есть кафедра иврита.

Как заявил Либерман, сам он неоднократно бывал в этой стране, "и не только в Баку" : "Отно-

шение к израильтянам в Азербайджане очень теплое, очень уважительное. Здесь можно спокойно говорить на иврите, не опасаясь за свою безопасность. Когда люди на улицах спрашивают, откуда ты, и слышат "из Израиля", - они искренне улыбаются, хлопают тебя по плечу. Азербайджан служит замечательным примером того, как в одном государстве можно соблюдать свои собственные традиции и уважительно относиться к обычаям других народов. Надо отдать должное Президенту Ильхаму Алиеву, который сочетает в своей стране традиции и современные достижения" [3].

По мнению Арье Гута президенту Ильхаму Алиеву удалось реализовать свои планы - сделать Азербайджан стабильным, независимым, процветающим, религиозно-терпимым и современным государством. "Мультикультурализм и толерантность исторически были образом жизни азербайджанского народа. Сегодня, независимо от национальной идентичности, языка, религии, мультикультурализм стал образом жизни для каждого гражданина Азербайджана. Азербайджан всегда был многонациональной страной и сегодня является мультикультуральной страной” [4].

И как подчеркнул Биньямин Нетаньяху: «Связи Израиль-Азербайджан являются наглядным примером сосуществования. Израиль страна, в которой исповедуют иудаизм, а Азербайджан — в которой исповедуют ислам. Здесь мы видим совместную работу и мусульман, и иудеев, это обещает хорошее будущее для обеих стран. Благодаря традициям толерантности и инклюзивности, которые вы сохраняете, еврейский народ чувствует себя здесь очень комфортно. Проживающие в Израиле евреи из Азербайджана также играют роль моста между двумя государствами. В самые трудные моменты эти страны всегда рядом друг с другом, всегда чувствуют поддержку друг друга. Одной из важных причин крепкого партнерства является давняя и тесная братская дружба между азербайджанцами и евреями, проживающими в Азербайджане. В отличие от многих современных обществ, азербайджанцы никогда не рассматривали евреев иностранцами и чужаками. Таким образом, экономическое и даже политическое сотрудничество между двумя государствами работает и процветает» [5].

Помимо традиционных отличительных правил, существенных для ведения внешней политики: религиозная и этническая составляющие – официально правительство Баку руководствовалось и чистым прагматизмом. Азербайджану важно было стратегическое партнерство с Израилем, как с государством обладающим высокими технологиями во многих сферах, включая и военную. В первую очередь, как правило, ставились экономические интересы и текущая геополитическая конъюнктура в регионе. А геополитическая конъюнктура гласила наращивать шаг за шагом политические, экономические и военные контакты.

Сразу после распада СССР - 25 декабря 1991 года Израиль официально признал независимость Азербайджана, 7 апреля 1992 года дипломатические отношения были установлены. Через год, в августе 1993 года, открылось посольство Израиля в Азербайджане. Элиэзер Йотват был назначен первым послом Государства Израиль в Азербайджане. За 30 лет независимости Азербайджан достаточно окреп и стал важной частью региона, мнение которого имеет высокую ценность. Отношения между Азербайджаном и Израилем выдержали много испытаний и продолжили свой путь развития и увенчались открытием посольства в Израиле. А уже через 30 лет в Тель-Авиве состоялось официальное открытие посольства Азербайджана в Израиле. По мнению Арье Гута: «Ни одна страна на территории Евразии не имеет таких тесных и теплых отношений с Израилем, как Азербайджанская Республика»[2].

Настоящей отправной точкой в установлении дипломатических отношений между Баку и Тель-Авивом стал визит премьер-министра еврейского государства Биньямина Нетаньяху в Баку в августе 1997 г. и его встречи с президентом Гейдаром Алиевым. В мае 2009 года 9-й президент Израиля Шимон Перес совершил официальный визит в Азербайджан. Затем несколько раз глава израильского МИДа Авигдор Либерман приехал с официальным визитом (в феврале 2010 года, апреле 2012 и апреле 2014). Министр обороны Государства Израиль Моше Яалон стал первым израильским главой оборонного ведомства, который посетил Азербайджан. А в 2023 году Президент Государства Израиль Ицхак Герцог прибыл с официальным визитом в Азербайджанскую Республику.

Шимон Перес во время его исторического визита в Азербайджан говорил: «Я знаю, что политика Азербайджана – это политика мира, дружбы, развития, но и независимости. С вашим уникаль-

ным географическим положением, нет никаких сомнений в том, что вы уже и будете по-прежнему ключевой и стержневой страной этой части мира» [6].

Развитие взаимоотношений в тот период было обусловлено сразу несколькими причинами. Между двумя государствами активно развивались отношения в таких сферах, как образование, здравоохранение, фармацевтика, туризм, IT, сельское хозяйство. Начиная с 1993-94 гг., когда израильская компания инвестировала в создание первого оператора сотовой связи в Азербайджане, постоянно росли израильские инвестиции в азербайджанскую экономику. Появились хорошие перспективы в сотрудничестве двух стран в таких вопросах, как телекоммуникации, опреснение воды, мелиорация, альтернативные источники энергии. Израиль готов предоставить азербайджанским партнерам свои технологические разработки в этих сферах.

Особое место в отношениях двух стран занимает торговля оружием. Азербайджан активно сотрудничает с Израилем в сфере оборонной промышленности - Азербайджанские энергоносители в обмен на израильское современное оружие. Азербайджан – один из крупнейших клиентов в сфере покупки израильской военной техники. Согласно же опубликованному докладу Стокгольмского международного института исследований проблем мира (SIPRI), Азербайджан находится в тройке главных клиентов в сфере покупки израильского вооружения, военной техники и военных технологий. Азербайджанские ВС пользуются израильскими беспилотниками, противокорабельными ракетами, зенитно-ракетными комплексами и радиолокационными станциями раннего обнаружения целей. В ходе визита Нетаньяху в Баку президент Азербайджана Ильхам Алиев особо подчеркнул военное сотрудничество стран: "Для того, чтобы показать насколько широко это сотрудничество, представлю вашему вниманию одну цифру. Стоимость контрактов, подписанных до сих пор компаниями Азербайджана и Израиля в связи с приобретением оборонного оборудования составляет около 5 миллиардов долларов, если говорить более точно, 4 миллиарда 850 миллионов долларов. Большая часть этих контрактов уже реализована. Мы еще работаем над этим и очень довольны уровнем этого сотрудничества" [7].

Стоит отметить, что Израиль является одним из основных покупателей азербайджанской нефти на мировом рынке. По некоторым данным, в последние годы азербайджанская нефть покрывала до 40% внутренних расходов Израиля и в денежном эквиваленте достигала $3,5 млрд.

Израиль занимает однозначную позицию по карабахскому вопросу и официальный Тель-Авив солидарен с Баку по Карабахскому вопросу. Это подтвердил еще в 2009 г. девятый президент Израиля Шимон Перес во время своего визита в молодую прикаспийскую республику: «У Израиля довольно конкретная позиция по этому вопросу. Мы выступаем за территориальную целостность Азербайджана. Одно государство не имеет права оккупировать территорию другого государства. Мы поддерживаем стремление азербайджанского лидера вернуть земли политическим путем» [6] . В 2016 г. министр обороны Израиля Авигдор Либерман заявил, что позиция Азербайджана в ходе апрельских боев 2016 г. «абсолютно оправдана». Более того, господин Либерман обвинил Армению в провокации [9].

Несмотря на тесное взаимодействие двух стран, есть большой потенциал для того, чтобы разработать совместную программу по расширению практического сотрудничества не только в сферах обороны и энергетики, но и в областях туризма, здравоохранения и сельского хозяйства. Азербайджан может перенять израильский опыт в сфере сельского хозяйства. Израильские специалисты в области сельского хозяйства изобрели революционные методы капельного орошения, сельскохозяйственной биотехнологии, соляризации почв и непрерывного использования промышленных сточных вод для сельскохозяйственных нужд. Кроме того, система здравоохранения Израиля считается одной из лучших в мире. Израиль стал ведущей страной в разработке технологий и медицинской техники. Цель стран - открыть в Азербайджане израильские клиники, научно-исследовательские центры здравоохранения и т.п.

Азербайджано-израильские отношения построены на прочном фундаменте дружбы и сотрудничества, как между государствами, так и между народами, что имеет особо крупное значение. Отношения между Азербайджаном и Израилем непоколебимы и будут динамично развиваться только по восходящей, так как они важны для обоих государств, обе страны нуждаются в сотрудничестве друг с другом ради широкой по-

литической перспективы, экономического, военного и других сфер развития. И постепенно эти отношения перерастают в трехсторонние отношения между Азербайджаном, Израилем и Турцией, которые можно назвать геостратегическим треугольником, что имеет большое значение для развития, мира и процветания всего региона. Так как Азербайджан всегда проводил и проводит миролюбивую политику, сотрудничество Азербайджана и Израиля никоим образом не направлены против других государств, а наоборот Азербайджан может сыграть роль моста для мусульманских государств, желающих войти в диалог и наладить отношения с еврейским государством.

**Ключевые слова:** *Азербайджан, Израиль, государственная политика, отношения.*

## СПИСОК ЛИТЕРАТУРЫ:

1. *Конституция Азербайджанской Республики. Статья 18. Религия и государство.*

2. *Arye Gut, Azerbaijan-Israeli relations: sincere friendship of peoples and strategic partnership of countries./Arye Gut — Доступно из URL: https://www.jpost.com/Blogs/News-from-Arye-Gut/Azerbaijan-Israeli-relations-sincere-friendship-of-peoples-and-strategic-partnership-of-countries-502973/*

3. *Авигдор Либерман: Азербайджан служит замечательным примером того, как в одном государстве можно соблюдать свои собственные традиции и уважительно относиться к обычаям других народов / Авигдор Либерман. Доступно из URL: https://azertag.az/ru/xeber/avigdor_liberman_azerbaidzhan_sluzhit_zamechatelnym_primerom_togo_kak_v_odnom_gosudarstve_mozhno_soblyudat_svoi_sobstvennye_tradicii_i_uvazhitelno_otnositsya_k_obychayam_drugih_narodov-2556287*

4. *Arye Gut. Independence Day of Israel's ally in the South Caucasus region./Arye Gut. Доступно из URL: https://www.jpost.com/Opinion/Independence-Day-of-Israels-ally-in-the-South-Caucasus-region-569773*

5. *Израиль и Азербайджан – пример сотрудничества во многих сферах. Доступно из URL: https://lechaim.ru/news/izrail-i-azerbajdzhan-primer-sotrudnichestva-vo-mnogih-sferah/*

6. *Alexsander Murinson. Looking Eastward: Peres proves a hit in / Alexsander Murinson Доступно из URL: Azerbaijan/ https://www.jpost.com/opinion/columnists/looking-eastward-peres-proves-a-hit-in-azerbaijan*

7. *Ильхам Алиев: Азербайджан закупил у Израиля вооружение на 5 миллиардов долларов Доступно из URL: https://haqqin.az/news/87341*

8. *Avigdor Lieberman: Azerbaijan's position in Karabakh conflict justified Доступно из URL: https://en.trend.az/azerbaijan/politics/251 5494.html*

## XÜLASƏ

**Nərmin Azadgil**

**İsrail – Azərbaycan: Yeni reallıq yoxsa çoxəsrlik tarixi münasibətlər. Qarşılıqlı əlaqələrin perspektivləri.**

Məqalədə Azərbaycan-İsrail ikitərəfli strateji münasibətlərinin keçmişdən bu günə təhlili və gələcək perspektivləri təhlil edilmişdir: tarixi münasibətlər, əsas istiqamətlər, dövlətlərarası ikitərəfli siyasi-iqtisadi əlaqələr. İki dövlət arasında münasibətlər unikal xarakter daşıyır və region ölkələri, eləcə də geosiyasi anlamda bir sıra ölkələrə nümunə təşkil edə bilər. Coğrafi və geosiyasi amillərin yaratdığı çətinliklərə baxmayaraq iki ölkə arasında inkişafın artan xətt üzrə inkişafını şərtləndirən amillər analiz edilir.

**Açar sözlər:** *Azərbaycan, İsrail, dövlət siyasəti, münasibətlər.*

## SUMMARY

**Narmin Azadgil**

**İsrael-Azerbaijan: A new reality or a centuries-old history relations. Political perspectives of relationship**

The article notes the analysis of Azerbaijan-Israel bilateral strategic relations from the past to the present and their future prospects: historical relations, main directions, interstate bilateral political-economic relations. Relations between the two states are unique and can serve as an example for a number of countries in the region, as well as geopolitically. Despite of the difficulties caused by geographical and geopolitical factors, the factors determining the growth of development between the two countries are analyzed.

**Keywords:** *Azerbaijan, Israel, government policy, political relations.*

UOT 327;930.22

# THE IMPACT OF MANDARIN FEVER ON ENHANCING INTERNATIONAL RELATIONS (AZERBAIJAN-CHINA)

**YOU XIN**
*Baku State University,*
*Department of International Relations.*
*PhD in Political Science*

*E-mail: you.rita.1998.88@gmail.com*

**1. Introduction**

Aparılan araşdırmalar göstərir ki, Sovet İttifaqı dağıldıqdan sonra da Rusiya tərəfindən səpilmiş düşmənçilik toxumları yenidən aktiv fazaya keçdi və silahlı münaqişələrə çevrildi. Çoxetnoslu tərkibi ilə seçilən Qafqaz regionu Rusiyanın eksperimentlərinin qurbanına çevrildi, istər Şimali, istərsə də cənubi Qafqaza Sovet imperiyası dağıldıqdan sonra bir neçə münaqişə miras qaldı. Belə münaqişələrdən biri Ermənistan-Azərbaycan münaqişəsidir. İlkin mənbə və tarixi ədəbiyyatın müqayisəli araşdırılması göstərir ki, ermənilərin Azərbaycana qarşı ərazi iddialarının və təcavüzünün başlıca məqsədi tarixi Azərbaycan torpaqları hesabına erməni dövlətinin əsasını qoymaq və sonradan müxtəlif yollarla onu genişləndirərək "böyük ermənistan" yaratmaqdan ibarət olmuşdur.

Strateji baxımdan böyük əhəmiyyətə malik olan Azərbaycanın Qarabağ bölgəsində erməni əhalisinin köçürülməsi XIX əsrin əvvəllərində, xüsusilə Azərbaycan torpaqlarının bölüşdürülməsi haqqında Rusiya ilə İran arasında 1828-ci il Türkmənçay və 1829-cu ildə Osmanlı dövləti ilə bağlanan Ədirnə sülh müqavilələrindən sonra baş verdi. Çar Rusiyasının Cənubi Qafqazda, o cümlədən Azərbaycanda müstəmləkəçilik siyasətinin yeni mərhələsi məhz XIX əsrin 20-ci illərinin sonundan etibarən başladı. Rus çarizmi Azərbaycanın Qarabağ bölgəsində xristianların sayını artırmaqla özü nüfuzunun bu regionda möhkəmlənməsi və müstəmləkəçilik siyasətinin həyata keçirilməsi üçün real zəmin hazırlayırdı [10, s. 80].

XIX əsrin sonu - XX əsrin əvvəllərində də ermənilərin Cənubi Qafqaza köçürülməsi davam etdirildi. Təkcə 1896-cı ildən 1900-ci ilə kimi keçən 13 ildə Cənubi Qafqaza 400 min erməni köçürüldü. N.N. Şavrov bu barədə yazırdı: "1896-cı ildə general-adyutant Şeremetyev Zaqafqaziyada yaşayan ermənilər haqqında məlumatında onların sayının 900 min nəfər olduğunu göstəmişdir. 1908-ci ildə isə onların sayı

1 milyon 300 min nəfərə çatmışdır, yəni bu müddət ərzində ermənilər 400 min nəfərdən çoxalmışlar. Hal-hazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyon nəfəri diyarın köklü sakinləri deyillər, onları buraya biz köçürmüşük...” [12, s. 59]. Bu fikri erməni tarixçisi B.İşxanyan da təsdiqləyir. O yazırdı ki, Qarabağda yaşayan ermənilərin bir hissəsi xristianlığını saxlayan qədim albanların nəsli – yerli əhalidir, o biri hissəsi isə Türkiyə və İrandan olan qaçqınlardır, onlar üçün Azərbaycan torpağı təqib və zülmlərdən sığınacaq yeri olmuşdur” [12, s. 18]. Göründüyü kimi, tarixi mənbələr ermənilərin Azərbaycan torpaqlarına köçürülməsini birmənalı olaraq təsdiq edir. Digər tərəfdən isə bu köçürülmə Qarabağın dağlıq hissəsində demoqrafik vəziyyətə, regionda baş verən hadisələrə ciddi təsir göstərir və ermənilərin gələcək ərazi iddialarının baş qaldırmasına zəmin hazırlayırdı.

Sovet dövründə Qarabağ məsələsi bir neçə dəfə qaldırılsa da, ermənilər və onların himayədarları məqsədlərinə nail ola bilmədilər. Lakin 1980-ci illərin 2-ci yarısında etnik separatçılıq meyllərinin yenidən qızışdırılması və SSRİ rəhbərliyi tərəfindən himayə olunması 1988-1993-cü illərdə Azərbaycanın Qarabağ bölgəsi də daxil olmaqla 20 faiz torpaqlarının erməni silahlı birləşmələri tərəfindən işğal edilməsi ilə nəticələndi [11, s. 36].

## 2. Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq həlli ilə bağlı aparılan danışıqlar

Ermənistan-Azərbaycan münaqişəsi başladıqdan sonra uzun müddət bu problem beynəlxalq ictimaiyyətin diqqətini cəlb etmədi. Bunun birinci səbəbi ondan ibarət idi ki, münaqişənin start götürdüyü ilkin mərhələdə dünya birliyi onun aradan qaldırılmasında maraqlı deyildi. Çünki bu problem SSRİ-nin dağılması prosesini sürətləndirən çoxsaylı amillərdən sayılırdı və onun aradan qaldırılması Sovet İttifaqının daxilində gedən dağıdıcı proseslərə mane ola bilərdi.

Maraqlıdır ki, Qarabağ məsələsinin meydana çıxması bilavasitə Kremlin ssenarisi əsasında baş tutmuşdu. İttifaq rəhbərliyi “parçala, hökmranlıq et” prinsipinə əsaslanaraq regional münaqişələr yaratmaqla diqqəti ölkənin əsas problemlərindən yayındırmaq, beləliklə, müttəfiq respublikalarda müşahidə edilən milli azadlıq hərəkatının genişlənməsini əngəlləməyə çalışırdı. Lakin bu plan SSRİ üçün bumeranq rolunu oynadı və etnik münaqişələr imperiyanın dağılmasının qarşısını ala bilmədi, hətta prosesi daha da sürətləndirdi. Ermənilər isə hələ münaqişə başlamamışdan əvvəl beynəlxalq ictimaiyyətin dəstəyini almaq üçün ciddi kampaniya aparmışdılar. Burada erməni lobbisinin imkanlarından da geniş istifadə edilirdi [2, s. 32]. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, bu gün faktiki olaraq dünyada gedən ictimai-siyasi və iqtisadi proseslərə bilavasitə nəzarət etmək imkanına malik olan ABŞ Konqresi ilə erməni lobbisi arasında çox isti münasibətlər mövcuddur. Eyni sözləri Fransa senatı haqqında da söyləmək mümkündür.

Beynəlxalq hüquq normalarına görə, münaqişələrin qarşısını həm dinc yolla, həm də hərbi yolla almaq olar. Münaqişənin dinc yolla həlli zamanı müxtəlif vasitələrdən-araşdırma, danışıqlar, barışdırma, beynəlxalq arbitraj, vasitəçilikdən istifadə olunur. Münaqişələrin həllində dövlət sərhədlərinin pozulmazlığı, dövlətlərin ərazi bütövlüyü və beynəlxalq mübahisələrin dinc yolla həlli prinsiplərinə dövlətlər əməl etməlidirlər. 1975-ci il ATƏM-in Yekun aktında sərhədlərin pozulmazlığı prinsipinin əsas məzmununu aşağıdakılar təşkil edir: 1) mövcud sərhədlərin beynəlxalq hüquqa uyğun olaraq hüquqla müəyyənləşdirilmiş qaydada tanınması; 2) mövcud anda və gələcəkdə hər hansı bir ərazi iddialarından imtina edilməsi; 3) bu sərhədlərə zor işlətmə və ya zor işlətməklə hədələmə də daxil olmaqla istənilən qəsdlərdən imtina edilməsi [3, s. 72-73]. Bu mənada Ermənistan-Azərbaycan münaqişəsinin həlli və tənzimlənməsində BMT, ATƏT, İKT və bu kimi beynəlxalq təşkilatların rolu prioritet hesab olunur. Qeyd etmək lazımdır ki, bu halda tərəflər vasitəçiyə müraciət etməyə məcbur olurlar. Problemin kompromis variantının tapılması xahiş edilir. Bu variant heç bir tərəfi kifayət qədər təmin edə bilmir. Münaqişə latent vəziyyətə keçir, tərəflər bir-birinə rəqib kimi baxır. Münaqişənin aktuallaşması ehtimalı yüksək olur.

Ermənistan-Azərbaycan münaqişəsinin həlli və tənzimlənməsi tarixinə nəzər salsaq və onu şərti olaraq mərhələlərə bölsək, bu mərhələlərin hər birinin xeyli dərəcədə Rusiya-Qərb qarşıdurmasının xarakterindən asılı olduğunu görə bilərik. 1992-ci ilin martında ATƏM-in (1995-ci il yanvarın 1-dən ATƏT) Minsk qrupu yaradılan zaman Rusiya bu təşəbbüsü müdafiə etsə də, dünya dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən münaqişənin nizama salınmasına dair vasitəçilik səylərinin fəallaşması Rusiyanın siyasi dairələrində narahatlıq doğurmağa başladı. Belə bir vaxtda münaqişənin dinc vasitələrlə həlli prosesində Rusiya təşəbbüsü beynəlxalq təşkilatların və dünya

dövlətlərinin əlindən almağa və bununla da regionda özünün zəifləmiş mövqelərini möhkəmləndirməyə cəhd göstərirdi [7, s. 146].

Azərbaycan və Ermənistanın BMT-yə üzv olması ilə Qarabağ problemi regional müstəvidən çıxaraq ən gərgin beynəlxalq münaqişə ocaqlarından birinə çevrildi və beynəlxalq təşkilatların iclaslarının gündəliyinə daxil oldu. Və bununla da Azərbaycan tərəfi münaqişənin həllində qan tökülmədən sülh prinsiplərinə əməl olunaraq tənzimlənməsi yoluna üstünlük vermiş oldu.

1993-cü ilin iyulun 23-də Ermənistan silahlı birləşmələri Azərbaycanın Ağdam rayonunu işğal etdi. Qeyd edək ki, bu artıq Ermənistanın BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnaməyə heç bir əhəmiyyət vermədiyini təsdiqləyirdi. İyulun sonlarında BMT Təhlükəsizlik Şurasının iclası keçirildi və burada Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinə dair 853 saylı qətnamə qəbul olundu. Bu qətnamədə də işğalçı qüvvələrin Azərbaycanın Ağdam da daxil olmaqla, bütün digər işğal olunmuş ərazilərindən çıxarılması tələbi qoyuldu [9, s. 348]. BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsi bütövlükdə bəzi əlamətlərinə görə 822 saylı qətnamədən daha obyektiv görünsə də, burada da məsələ öz dəqiq qiymətini almamışdır. Çünki Təhlükəsizlik Şurası təcavüzkarın adını çəkmir, yalnız “yerli ermənilər” ifadəsi ilə kifayətlənməyə üstünlük verirdi. Halbuki artıq təcavüzkarın kim olduğu hamıya məlum idi və indi bunu yalnız rəsmi şəkildə təsdiqləmək qalırdı, lakin BMT-nin Təhlükəsizlik Şurası belə bir addım atmadı. Bütövlükdə qətnamələrdə Ermənistan işğalçı dövlət kimi tanınmırdı və bütün sənədlərdə münaqişə Ermənistan-Azərbaycan münaqişəsi kimi deyil, Qarabağ və onun ətrafında münaqişə kimi qiymətləndirilirdi.

ATƏM-in Minsk qrupunun bu illərdəki fəaliyyətinə nəzər salsaq, görürük ki, onun BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini yerinə yetirmək üçün hazırladığı “Təxirəsalınmaz tədbirlər cədvəli” heç bir təsir gücünə malik deyildi. ATƏM-in başlıca çatışmazlıqlarından biri də məhz ATƏM çərçivəsində və onun himayəsi altında müqaviləni yerinə yetirməkdən imtina edən tərəfə qarşı sanksiya qəbuletmə mexanizminin olmaması idi.

Münaqişənin nizamlanması ilə bağlı 1996-cı ilin dekabrın 2-3-də ATƏT-in Lissabonda Zirvə toplantısı keçirildi. Zirvə toplantısında münaqişənin həllinin siyasi-hüquqi çərçivələrini müəyyənləşdirən xüsusi bir sənəd qəbul edildi [8, s. 726]. Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair 3 əsas prinsipi özündə əks etdirən və ATƏT-in fəaliyyətdə olan sədri, İsveçrənin xarici işlər naziri Flavio Kottinin adından verilən bu bəyanat Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin Yekun sənədlərinə əlavə edildi [8, s. 727].

ATƏT-in Lissabon Zirvə görüşündən sonra Rusiya ilə yanaşı, Fransa və ABŞ nümayəndələri də Minsk qrupunun həmsədrləri təyin olundu. 1997-ci ilin ikinci yarısından indiyə kimi Minsk qrupunun həmsədrləri Lissabon prinsiplərinə əsaslanaraq iki hissədən ibarət - yəni Qarabağın hüdudlarından kənarda yerləşən işğal olunmuş 7 rayonun azad edilməsi və Qarabağın statusunun müəyyənləşdirilməsi ilə əlaqədar 3 təkliflə çıxış etmişlər [1].

1998-ci ilin noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycan üçün qətiyyən qəbuledilməz olan və danışıqların davam etdirilməsinə imkan yaratmayan üçüncü təklifi irəli sürdülər [5]. Bu təklif dünya praktikasında mövcud olmayan “ümumi dövlət” ideyasına əsaslanırdı. Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edilən süni “ümümi dövlət” təklifi Azərbaycanın mənafeyinə zidd olmaqla yanaşı, ATƏT-in Budapeşt və Lissabon Zirvə toplantılarında qəbul edilən sənədlərə də etinasız yanaşılması demək idi.

ATƏT-in Minsk qrupunun son təklifindən Azərbaycan tərəfi birmənalı şəkildə imtina etdikdən sonra, 1999-cu il fevralın 8-də Azərbaycan Prezidenti Heydər Əliyev Minsk qrupunun həmsədrləri olan dövlətlərin (ABŞ, Rusiya, Fransa) başçılarına eyni məzmunlu məktubla müraciət etdi. Minsk qrupunun fəaliyyətini, xüsusilə həmsədrlərin axırıncı təklifini ciddi surətdə tənqid edən Azərbaycanın dövlət başçısı “ümumi dövlət” ideyasının ATƏT-in prinsiplərinə uyğun olmadığını və sülh prosesinə xeyli zərər verdiyini göstərməklə yanaşı, ABŞ, Fransa və Rusiya dövlət başçılarını münaqişənin ədalətlə və tezliklə aradan qaldırılması üçün səylərini ciddi surətdə artırmağa çağırdı [2]. Məlumatlardan aydın olduğu kimi “ümumi dövlət” prinsipi Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin nizamasalma prosesini nəinki yoluna qoydu, həm də münaqişənin həlli yollarına dair tərəflərin mövqeyindəki ziddiyyətləri daha da dərinləşdirdi. Nəticədə, danışıqlar prosesində bir durğunluq yarandı və münaqişənin nizama salınması istiqamətində müsbət irəliləyiş əldə etmək mümkün olmadı. Həmsədrlər tərəfindən irəli sürülən və sonuncu olan “ümumi dövlət” ideyası iflasa uğradıqdan

sonra Minsk qrupunun fəaliyyəti praktiki olaraq dalana dirəndi.

Ermənistan-Azərbaycan, Qarabağ münaqişəsinin dinc nizamlanması ilə bağlı ATƏT-in Minsk qrupunun yarıtmaz fəaliyyətindən sonra danışıqlar prosesinə təkan vermək üçün 1999-cu il aprelin 26-da ABŞ-ın təşəbbüsü ilə Vaşinqtonda Azərbaycan və Ermənistan prezidentləri arasında artıq yeni formatda birbaşa danışıqlara başlandı və ATƏT-in Minsk qrupu tərəfindən danışıqların bu formatı bəyənildi. Lakin bu görüş münaqişənin nizama salınması istiqamətində konkret nəticə əldə etmədi. Münaqişə tərəflərinin mövqelərində ziddiyyətlərin qalması, xüsusilə Ermənistanın qeyri-konstruktiv mövqedən çıxış etməsi səbəbindən ATƏT-in 1999-cu il noyabrın 18-19-da İstanbulda keçirilən Zirvə toplantısında qəbul edilən yekun bəyannamədə yalnız Qarabağ problemi ətrafında yaranmış mövcud vəziyyəti özündə əks etdirən və Minsk qrupu çərçivəsində münaqişə tərəflərin danışıqları davam etdirməyə çağıran 20-ci maddə öz əksini tapdı [11, s. 54]. Sənəddə ATƏT-in Minsk qrupu həmsədrlərinin cəhdlərinə müsbət qiymət verilməklə yanaşı, Ermənistan və Azərbaycan prezidentləri arasında intensivləşən danışıqlardan razılıq ifadə olunur və nizamlama formatına daha çox uyğun gələn Minsk qrupu çərçivəsində müntəzəm olaraq sülh prosesinin davam etdirilməsi üçün görüşlərin keçirilməsi dəstəklənirdi [11, s. 55]. Artıq belə nəticə hasil olur ki, münaqişənin ömrü uzandıqca, onun həlli də çətinləşirdi. Hər bir beynəlxalq güc münaqişənin nizamlanması proseslərinə həm də öz maraqlarından yanaşaraq, münaqişə vəziyyətindəki tərəflərin maraqlarını əngəlləyirdi.

Qarabağ münaqişəsinin tənzimlənməsinə növbəti cəhd 2001-ci ilin əvvəlində iki dövlətin prezidentləri arasında keçirilən danışıqlarda bir daha gündəliyə gətirildi. Belə ki, 2001-ci ilin yanvarın 26-da Parisdə əvvəlcə Marini sarayında, martın 5-də isə Yelisey sarayında aparılan danışıqlar, daha sonra aprelin 4-6-da ABŞ-ın Florida ştatının Ki-Vest şəhərində Minsk qrupunun həmsədrlərinin iştirakı ilə davam etdirildi [6, s. 93].

Sonradan "Paris prinsipləri" adını almış bu variantda əvvəllər irəli sürülmüş 3 təklifin ("paket", "mərhələli" və "ümumi dövlət") tərəfləri qane edən məqamlarının ümumiləşdirilməsi nəzərdə tutulurdu. Daha sonra Minsk qrupu həmsədrləri bəyan etdilər ki, onlar münaqişənin həlli ilə bağlı yeni təklif üzərində işləyirlər və onu iyul ayında Cenevrədə keçiriləcək növbəti görüşdə prezidentlərə təqdim edəcəklər. Lakin adıçəkilən bu görüş Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində baş tutmadı [6, s. 94].

2004-cü ilin əvvəllərindən Avropa Şurası, ATƏT və Avropa İttifaqı münaqişənin dinc vasitələrlə həlli istiqamətində öz səylərini xeyli artırdı. Belə ki, Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında Ermənistanın işğalçı dövlət olması bir daha təsbit edildi, münaqişənin aradan qaldırılması istiqamətində Ermənistanın heç bir addım atmaması AŞPA-nın sənədlərində əksini tapdı [11, s. 67]. 2004-cü il aprelin 16-dan başlayaraq Praqada Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində danışıqlar yenidən bərpa olundu. Sonradan "Praqa prosesi" adını almış danışıqların bu mərhələsində 2005-ci ilin yayına qədər iki dövlətin xarici işlər nazirləri 11 görüş keçirərək münaqişənin nizama salınmasına dair sülh planının yeni variantının detallarını müzakirə etdilər. Bununla yanaşı, Azərbaycan və Ermənistan prezidentləri arasında 2004-cü il aprelin 28-də əvvəlcə Varşavada, sonra isə sentyabrın 15-də Astanada keçirilən danışıqların başlıca mövzusu xarici işlər nazirlərinin Praqa görüşlərində razılaşdırılan məsələlərin əsas detalları oldu [11, s. 68].

2006-cı il Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması istiqamətində aparılan danışıqların intensivliyi dövrü kimi xarakterizə oluna bilər. Məhz bu ildə tərəflərin nizamlanmaya bir addım yaxın olması barədə təsəvvürlər formalaşdı. Belə ki, Azərbaycan və Ermənistan prezidentləri 2006-cı il fevralın 10-11-də Paris yaxınlığında Rambuyedə, iyunun 5-də Buxarestdə, noyabrın 28-də isə Minskdə görüşdülər. ATƏT-in Nazirlər Şurasının 2006-cı il dekabrın 4-5-də Brüsseldə Qarabağ münaqişəsi ilə əlaqədar qəbul etdiyi bəyanatda 2006-cı il ərzində aparılmış danışıqlar nəticəsində tərəflərin əsas prinsiplər üzrə razılığa gəlmələri üçün daha da yaxınlaşması qeyd olundu. Bununla yanaşı, qəbul edilən sənəddə Azərbaycan və Ermənistan prezidentləri 2007-ci ildə baza prinsiplərini razılaşdırmaq üçün səyləri gücləndirməyə çağırıldılar [9, s. 12]. Keçirilən görüşlərdə Ermənistanın qeyri-konstruktiv mövqedən çıxış etməsi "Praqa prosesi"nin yenidən dalana dayanmasına və danışıqların nəticəsiz qalmasına gətirib çıxartdı.

2011-ci il mayın 25-də "Böyük səkkizlik" ölkələrinin Fransanın Dovil şəhərində keçirilən sammiti çərçivəsində son üç ildə artıq 3-cü dəfə ABŞ, Rusiya və Fransa prezidentləri Qarabağ münaqişəsinin nizama salınmasına dair birgə bəyanatla çıxış etdilər [11, s. 87].

Danışıqlar prosesinin izlənilməsi və eləcə də aparılan tədqiqatlar göstərir ki, münaqişənin nizama salınması prosesində Azərbaycan və Ermənistan tərəflərinin mövqelərində müəyyən fərqlər yenidən üzə çıxdı.

Beləliklə də, yuxarıdakı məlumatların təhlilindən göründüyü kimi, demokratiyanı əldə silah tutaraq, bütün dünyaya yaymağa çalışan Qərbin aparıcı dövlətlərinin, eləcə də Rusiyanın münaqişə ilə əlaqədar ikili standartlar mövqeyindən çıxış etmələri, ATƏT-in Minsk qrupunun yeritdiyi fəaliyyətlərin səmərəsiz nəticə verməsi, erməni tərəfinin humanitar və hərbi yardımlarla silahlandırılması, işğalçının təcavüzkar dövlət kimi tanınmaması, beynəlxalq təşkilatların münaqişəyə lazımi qiymət verməmələri Qarabağ məsələsinin sülh imkanlarını heçə endirdi. Prezident İlham Əliyevin 2003-cü ildən etibarən 2020-ci ilə kimi Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində apardığı çoxsaylı diplomatik mübarizə də Qərb dövlətlərini və erməni tərəfini razı salmadı. ABŞ tərəfindən Rusiya və İranla əməkdaşlıq içərisində olan və Azərbaycan torpaqlarını işğal edən Ermənistanın hər sahədə dəstəklənməsi problemin həllində maraqlı olmadığını açıq şəkildə göstərir. Eyni sözləri Qərbin aparıcı dövləti olan Fransa haqqında da söyləmək olar. Belə ki, ATƏT-in Minsk qrupunun daimi üzvlərindən biri kimi Fransanın bu münaqişənin nizama salınması istiqamətində yeritdiyi siyasət və tutduğu mövqe deyilənləri bir daha təsdiq edir. Fransa dövlət səviyyəsində hər il qondarma erməni soyqırımı məsələsini gündəmə gətirir, Azərbaycan və Türkiyə tərəfini ittiham edir. Azərbaycanı öz təsirində saxlamaq üçün Rusiya tərəfi də eyni məzmunlu siyasət yürüdür. Ermənistanı həm daxildən, həm də xaricdən dəstəkləməklə münaqişənin həllini yubadır, əsas söz sahibi olmağa, münaqişənin açarını əlində saxlamağa çalışır. Bununla da, 2016-cı ilə kimi aparılan danışıqlar münaqişənin nizamlanmasında sülh variantını aktual etsə də, 2016-cı il aprel hadisələrindən sonra danışıqlar demək olar ki, dalana dirəndi və 2020-ci ilin sentyabrında Azərbaycan tərəfi Ermənistanın işğalçılıq siyasətinə adekvat cavab verərək, torpaqlarının azad olunması qərarını verdi. Bununla da, uzun illər diplomatiya sahəsində aparılan danışıqlar döyüş meydanında yekunlaşdı. Azərbaycan ərazi bütövlüyünü bərpa etdi.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *ATƏT-in Minsk Qrupunun həmsədrliyi. Dağlıq Qarabağ silahlı münaqişəsinin hərtərəfli həllinin prinsipləri haqqında. "Azərbaycan" qəz., Bakı, 21 fevral 2001-ci il.*

2. *Abdullayev E. Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində. Bakı: Təhsil, 2004.*

3. *Beynəlxalq Hüquq: Bakı: Qanun, 2002.*

4. *"Azərbaycan" qəzeti. Bakı, 27 may 2011-ci il.*

5. *Dövlət başçılarının Helsinki görüşü. Helsinki, 8-10 iyul 1992: Sənədlər və materiallar. Bakı, 1992.*

6. *Əhmədov E. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq-hüquqi aspektləri // Strateji Təhlil, aprel-iyun, 2011, s. 93-109.*

7. *Həmidov S. Dağlıq Qarabağ münaqişəsi 2020-ci ildə: sülh, yoxsa müharibə? // Dirçəliş-XXI əsr, 2011, sayı 153, s. 146-159.*

8. *Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 2005.*

9. *Paşayeva U.M. Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsində BMT TŞ-nin mövqeyinə dair // Ümummilli lider H.Əliyevin anadan olmasının 85-ci ildönümü münasibətilə Tarix fakültəsi əməkdaşlarının elmi-praktik konfrasının materialları. Bakı, 2008.*

10. *Şükürov K.K. Türkmənçay. Bakı: Çaşıoğlu, 2006.*

11. *Şıxəliyev E.A. Geosiyasi maraqların toqquşması kontekstində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Bakı: Əcəmi, 2018.*

12. *Шавров Н.И.. Новая угроза русскому делу в Закавказье. СПб, 1911.*

13. *Ишханян Б. Народы Кавказа, СПб., 1916.*

14. *ОБСЕ. Девятая встреча совета министров. Бухарест, 3-4 декабря 2001 года. Решения 2. Заявление совета министров.*

15. *Azerbaijan and Armenia: Peace prospects, Military Realities & the role of the Armenian Diaspora, Caspian İnformation Center, no.16, October 2011. http://www.caspianinfo.com/wp-content/uploads/2011/10/OP-No-16-Armenia -and-Azerbaijan-Peace-Prospects-Military-Realities-and-the-Role-of-the-Armenian - Diaspora.pdf*

16. *ОБСЕ. Двенадцатая встреча Совета министров. София, 6-7 декабря 2004 года. Заявление Совета министров о Нагорно-Карабахском конфликте.*

17. *ОБСЕ. Четырнадцатая встреча Совета министров. Брюссель, 4-5 декабря 2006 года. Заявление о Нагорному Карабаху.*

**XÜLASƏ**

Məqalədə böyük dövlətlərin Qarabağ münaqişəsinin həlli ilə bağlı tutduqları mövqe və münaqişənin nizamlanmasının qarşısını almaq səyləri araşdırılır. Aparılan araşdırmalar göstərir ki, Qarabağ münaqişəsinin yaradılması, onun idarə edilməsi və münaqişənin nizama salınması ilə bağlı Rusiya Federasiyası əsas rol oynayan dövlətlər sırasındadır. Rusiya məqsədyönlü şəkildə Azərbaycanın Qarabağ bölgəsinə ermənilərin yerləşdirilməsi ilə həm Azərbaycan, həm də Ermənistanı nəzarətdə saxlamağa, bölgədə hegemonluğunu qorumağa çalışır. Rusiya ilə yanaşı Qarabağ münaqişəsinin həll edilməməsində Qərb ölkələri də maraqlı görünür. Onlar da Cənubi Qafqaz ölkələrinə nəzarət etmək üçün bölgədə mövcud olan ərazi münaqişələrini öz məqsədləri üçün idarə etməyə çalışırlar.



**Açar sözlər:** *Cənubi Qafqaz, Azərbaycan, Qarabağ, Rusiya, Avropa, ABŞ*



**İSMAYIL MƏHƏRRƏM OĞLU MUSA**
***Doktor of history in historical science, Baku State University***
***E-mal: ismailmusa54@gmail.com***

**ÇİMNAZ İLQAR QIZI QULUYEVA**
***Master, Baku State University***
***E-mal: chimnazguliyeva@yahoo.com***


**Efforts of great powers to block the full resolution of the Karabakh conflict**


**SUMMARY**

The article examines the position of major powers regarding the settlement of the Karabakh conflict and their efforts to prevent the settlement of the conflict. The conducted studies show that the Russian Federation is among the states that play the main role in the creation of the Karabakh conflict, its management and the regulation of the conflict. Russia deliberately tries to control both Azerbaijan and Armenia and maintain its hegemony in the region by placing Armenians in the Karabakh region of Azerbaijan. Along with Russia, Western countries also seem to be interested in not resolving the Karabakh conflict. They also try to manage the existing territorial conflicts in the region for their own purposes in order to control the countries of the South Caucasus.



**Keywords:** *South Caucasus, Azerbaijan, Karabakh, Russia, Europe, USA*



**ИСМАИЛ МАГЕРРАМ ОГЛЫ МУСА**
***Доктор исторических наук, Бакинский Государственный Университет***
***E-mal: ismailmusa54@gmail.com***

**ЧИМНАЗ ИЛГАР КЫЗЫ ГУЛУЕВА**
***Магистрант, Бакинский Государственный Университет***
***E-mal: chimnazguliyeva@yahoo.com***


**Усилия великих держав по блокированию полного разрешения карабахского конфликта**


**РЕЗЮМЕ**

В статье рассматривается позиция крупных держав относительно урегулирования карабахского конфликта и их усилия по предотвращению урегулирования конфликта. Проведенные исследования показывают, что Российская Федерация входит в число государств, играющих главную роль в создании карабахского конфликта, его управлении и регулировании конфликта. Россия сознательно пытается контролировать и Азербайджан, и Армению и сохранить свою гегемонию в регионе, размещая армян в Карабахском регионе Азербайджана. Наряду с Россией, западные страны, судя по всему, также заинтересованы в неразрешении карабахского конфликта. Они также пытаются управлять существующими территориальными конфликтами в регионе в своих целях, чтобы контролировать страны Южного Кавказа.



**Ключевые слова:** *Южный Кавказ, Азербайджан, Карабах, Россия, Европа, США.*

# ВЗАИМНАЯ ДЕЯТЕЛЬНОСТЬ В СФЕРЕ ОБРАЗОВАНИЯ КАК ОДНО ИЗ ВАЖНЕЙШИХ НАПРАВЛЕНИЙ АЗЕРБАЙДЖАНО-РОССИЙСКОГО СОТРУДНИЧЕСТВА (1991-2015)

**УДК 94 "19/..."**

*ORCID: https://orcid.orgl0000-0001-7117-6394*

**НУШАБА ГУЛИЕВА**
*Университет Азербайджан,*
*доктор философии по истории, доцент*

*E-mail: nushaba.guliyeva@au.edu.az*

Как известно из истории, Азербайджанская Демократическая Республика, имеющая первое демократическое, светское государственное устройство в тюрко-исламском мире, а также на Востоке с момента своего создания оно придавало большое значение правовым, политическим и социальным свободам граждан. 28 мая 1918 года Национальный Совет Азербайджана провозгласил Декларацией независимости о создании Азербайджанской Демократической Республики на северных землях Азербайджана. В пункте IV Декларации независимости говорилось: «Азербайджанская Демократическая Республика предоставляет гражданство и политические права всем гражданам в пределах своих границ, независимо от национальности, религии, социального положения и пола» (Nəsibzadə N., 1990, s.43-45) В вновь созданной Азербайджанской Демократической Республике были обеспечены территориальная целостность и национальная безопасность страны. В короткие сроки были созданы высокобоеспособные воинские части, созданы государственные органы в соответствии с национальными требованиями и демократическими принципами, особое внимание уделялось развитию образования и культуры, основан первый университет Азербайджана, национализировано образование. Он подготовил почву для культурного развития нации в последующие годы и является исключительным с точки зрения истории общественного мнения. Были проделаны важные работы.

За 23 месяца существования республики ко всем гражданам, национальностям и религиям относились с уважением. Помимо мечетей, свободно действовали молитвенные дома и учебные заведения других религий и сект. В парламенте были представлены представители всех религий и национальностей. Была обеспечена полная толерантность в области свободы совести. Как известно, период независимости длился недолго. В конце апреля 1920 года независимость Азербайджанской Демократической Республики была прекращена.

Азербайджанская Демократическая Республика всегда проводила миролюбивую политику, старалась установить отношения взаимного сотрудничества со всеми государствами, основанные на принципах уважения прав друг друга. Благодаря деятельности Азербайджанской Демократической Республики, Азербайджан являлся уже субъектом международного права и был признан мировым сообществом. Именно этот факт, предотвратил стирание Азербайджана как государства с политической карты мира после большевистского вторжения в апреле 1920 года.

Первые годы восстановления государственной независимости Азербайджана совпали с трудным периодом – началом Нагорно-Карабахского конфликта. Ходжалинский геноцид, события в Гарадаглы, а также широкомасштабные военные действия, проведенные армянскими террористами, не позволили нам испытать радость полного достижения нашей независимости. Однако, если бы конституционный акт о независимости не был принят в 1991 году, ситуация в Азербайджане намного ухудшилась бы.

Кровавые события 1990 года, которые никогда не изгладятся из памяти азербайджанского народа, стали для нас серьезным толчком к подъему на великую борьбу за нашу независимость. После январских событий большинство простых граждан и интеллектуалов уже поняли, что единственный способ спасти Азербайджан и его народ – это добиться независимости. Таким образом, спасти народ от жесточайшего кризиса и от рук центральной власти можно было бы, только обретя независимость.

В первые годы независимости наша страна столкнулась с большими трудностями. В 1993 году великий лидер Гейдар Алиев, во второй раз вернувшийся к руководству Азербайджанским

государством по воле и желанию народа, сделал независимость нашей страны вечной и необратимой. Хотя Конституционный акт о государственной независимости был принят 18 октября 1991 года, фактически Азербайджан обрел независимость после возвращения к власти общенационального лидера Гейдара Алиева. Именно его богатый политический опыт, высокие управленческие способности и неиссякаемая любовь к Родине в сердце спасли государственную независимость Азербайджана от опасности. Гейдар Алиев положил конец хаосу и анархии в стране, устранил экономическую, политическую и морально-психологическую напряженность в обществе. Независимая Азербайджанская Республика определила новый путь развития, опирающийся на прочную основу.

Объявив Азербайджанскую Республику преемницей первой демократической республики на мусульманском Востоке, общенациональный лидер Гейдар Алиев заложил основы нового этапа государственного строительства, исходя из логики, что сохранить независимость труднее, чем завоевать ее. За короткое время, в результате неустанных усилий великого лидера, правый голос Азербайджана стал звучать с трибун самых влиятельных международных организаций.

С большой гордостью заявив, что независимость является неоценимым благом и что она играет неоценимую роль в исторической судьбе народа, Гейдар Алиев проделал важную работу для независимости Азербайджана. 20 сентября 1994 года было подписано великолепное нефтяное соглашение «Контракт века», автором которого является Гейдар Алиев. Таким образом, Азербайджан впервые выступил собственником собственных ресурсов. Участие наиболее передовых компаний развитых стран мира в подписании этого соглашения повысило значимость и репутацию нашей страны в регионе. Азербайджан присоединился к огромным региональным проектам, европейской и мировой системе энергетической безопасности в целом. Вся проделанная с 1993 года работа и целенаправленная политика, реализуемая в направлении укрепления государственной независимости, стали самой надежной основой нынешних успехов Азербайджана.

В своем обращении к азербайджанскому народу по случаю нового века и третьего тысячелетия великий лидер сказал: «Величайшим достижением азербайджанского народа в XX веке, несомненно, является создание независимого Азербайджанского государства. Восстановив свою независимость, Азербайджан заложил прочный фундамент демократического, правового и светского государства» (Əliyev H., 2001, s. 6). Это еще раз показывает, что великий лидер считал важным учитывать, что этот главный фактор сыграет важную роль в обеспечении счастливого будущего нашего народа в XXI веке.

Обретение независимости позволило Азербайджану выйти на новый путь развития. Азербайджанский народ взял на себя эту ответственность и сделал этот шаг. Независимость – один из величайших успехов и богатств, достигнутых нашим народом в результате борьбы.

Таким образом, после распада СССР в 1991 году появление новых независимых государств привело к серьёзному изменению геополитической ситуации во всём мире. Бывшие советские республики, получившие независимость, вступили в период установления прямых взаимоотношений с государствами мира как субъектами международного права. С этого периода Азербайджанская Республика предприняла первые шаги в области укрепления своей государственной независимости и установления дипломатических отношений со странами мира.

После возвращения Гейдара Алиева к руководству Азербайджанской Республики в июне 1993 года со стороны Азербайджана были предприняты последовательные шаги по решению всех проблем, мешавших нормальному развитию отношений между Азербайджаном и Россией. 15 июня в своем первом выступлении в качестве спикера парламента Гейдар Алиев заявил, что Азербайджан должен установить взаимоотношения со всеми странами, в том числе со своим северным соседом Россией, на основе принципов равноправного сотрудничества.

В начале сентября 1993 года во время визита Гейдара Алиева, осуществлявшего полномочия Президента Азербайджанской Республики в Москву, были проведены широкие обсуждения по всестороннему развитию азербайджано-российских межгосударственных отношений

Таким образом, со второй половины 1993 года Азербайджан начал проводить внешнюю полити-

ку, открывающую путь для динамичного развития взаимоотношений с Россией. После этого Азербайджанская Республика подтвердила свою позицию конкретными шагами. В «Контракте века», подписанном 20 сентября 1994 года, и в последующих нефтяных контрактах соответствующая доля была отведена российской нефтяной компании «ЛУКОЙЛ», решение о транспортировке нефти страны по маршруту Баку-Новороссийск и ее успешная реализация стало проявлением решимости Азербайджана расширять дружественно-соседские отношения с этой страной на основе взаимовыгодных принципов.

В последующий период Азербайджан в ходе своей внешней политики придавал особое значение развитию межгосударственных отношений с Россией. 3 июля 1997 года в ходе официального визита президента Гейдара Алиева в Москву между Азербайджаном и Россией был подписан договор о дружбе, сотрудничестве и взаимной безопасности. Этот документ создал широкую правовую основу для поднятия двусторонних отношений на высокий уровень в соответствии с национальными интересами обоих государств.

Официальный визит президента России Владимира Путина в Азербайджан 9-10 января 2001 года стал новым этапом в развитии азербайджано-российских отношений. Это был первый визит президента России в Азербайджан за период независимости. Объективная оценка Россией нынешних геополитических реалий и необходимости развития взаимоотношений с Азербайджаном на равноправной основе не только соответствовала национальным интересам обоих государств, но и стимулировала начало нового этапа во взаимоотношениях. В последующий период между двумя странами было подписано большое количество двусторонних документов и предприняты важные шаги по их реализации.

Гуманитарное сотрудничество между двумя странами продолжало расширяться. Таким образом, за годы независимости в сфере образования, которая является основой общества, взаимная активность достигла наивысшего уровня. В обеих странах значение, придаваемое образовательной политике, образованию граждан и праву на образование, направлено на развитие общества.

После восстановления государственной независимости Азербайджана в 1991 году, со многими странами мира, в том числе и с Российской Федерацией, стало расширяться эффективное сотрудничество в области образования. Целенаправленно проводимый Азербайджанской Республикой и Российской Федерацией политический курс, направленный на укрепление двухсторонних отношений, способствовал развитию культурных связей, в том числе и в сфере образования. После визита президента Азербайджанской Республики Гейдара Алиева в Россию в марте 1995 года между двумя странами были подписаны соглашения, охватывающие все области, включая образование. 25 июля 1995 года Правительство Азербайджанской Республики и Правительство Российской Федерации подписали соглашение о сотрудничестве в области аттестации высококвалифицированных научных и научно-педагогических кадров, а в ноябре 1995 года – соглашение о создании научно-технического пространства. Это соглашение, в числе других областей, создало правовую основу и для восстановления связей в сфере образования. Стороны договорились реализовать положения Соглашения о культурном и научном сотрудничестве, подписанного 6 июня 1995 года, касающиеся обмена документов об образовании, а также взаимного признания ученых степеней и ученых званий (Azərbaycanın xarici siyasəti; Sənədlər məcmuəsi. İkinci hissə., 2013, səh. 28-34)

Уже 11 апреля 1997 года Правительство Азербайджанской Республики и Правительство Российской Федерации подписали соглашение о сотрудничестве в области взаимного признания документов об образовании, ученых степенях и ученых званиях. Соглашение о сотрудничестве в торгово-экономической, научно-технической и культурной сферах, подписанное 13 июня 1997 года, способствовало налаживанию сотрудничества с Москвой в различных сферах, включая образование и обмен студентами. В 1997 и 1998 годах, следуя межправительственным соглашениям, 74 студента были направлены из Азербайджана для обучения в различных вузах Российской Федерации. В течение 1997-1999 годов более 140 молодых азербайджанцев были направлены на обучение в московские вузы по различным специальностям (Əhmədov H., 2001, səh. 350)

В последующие годы также развивались двусторонние отношения в области образования.

Особенно усилили эти связи взаимные визиты глав государств. Так как в обеих странах за это время уделялось особое внимание именно образованию, которое считалась приоритетом развития страны.

Как уже отмечалось выше, взаимная деятельность двух стран в сфере образования развивалась благодаря усилиям глав государств. В развитии двусторонних отношений в области образования следует также отметить, роль Бакинского славянского университета, созданного, согласно распоряжению Президента Азербайджанской Республики от 13 июня 2000 года, на базе Азербайджанского педагогического института русского языка и литературы имени М.Ф. Ахундова, сыграл особую роль в развитии образовательных связей между двумя странами. Согласно договоренностям, достигнутым между ведущими вузами России и Бакинским славянским университетом, студенты и преподаватели университета имеют возможность продолжить образование и повысить квалификацию в российских университетах. Бакинский славянский университет является членом ряда российских общественных организаций, в том числе Международного объединения преподавателей русского языка и литературы, Учебно-методической ассоциации российских университетов при Московском государственном институте международных отношений по специальностям «Регионоведение» и «Международные отношения» (Пивовар Е., 2012, с. 175).

Одним из значимых документов, выводящих формат социального сотрудничества на новый уровень, является Декларация о дружбе и стратегическом партнерстве между Азербайджанской Республикой и Российской Федерацией, которая была утверждена 3 июля 2008 года главами государств И. Алиевым и Д. Медведевым в Баку. В соответствии с Декларацией определяются следующие направления взаимодействия:

– на основе исторически значимой роли общин двух народов в Азербайджане и России создавать благоприятные условия для всестороннего развития азербайджанской и российской диаспор в сфере языка, культуры, религии, быта;

– способствовать прогрессу разносторонних взаимоотношений молодежных и студенческих организаций, научных и культурных сфер на межгосударственном уровне;

– в целях поддержания и расширения гуманитарных связей между странами, оказывать всестороннюю поддержку в вопросе создания и популяризации кафедр азербайджанского языка, истории, литературы и т. п. в ведущих российских вузах при активной поддержке азербайджанской стороны;

– при активной государственной поддержке способствовать осуществлению всесторонней деятельности филиалов МГУ им. М.В. Ломоносова в городе Баку, а также Азербайджанского государственного экономического университета в городе Дербент (Декларация о дружбе и стратегическом партнерстве между Азербайджанской Республикой и Российской Федерацией. 3 июля 2008)

Несмотря на богатое и емкое наследие советского времени в истории азербайджанского народа, Азербайджан сегодня независимая республика, в которой государственным языком официально является только азербайджанский, но при этом в этой стране продолжают уважительно относиться к русскому языку и проводить политику сохранения и популяризации его среди населения страны как самого перспективного на уровне иностранного языка. Тем не менее приоритетность языка над другими обуславливается и количеством учебных заведений, способных в Азербайджане преподавать русский язык на высоком уровне. Так, с момента провозглашения независимости Азербайджана и по сегодняшний день в стране действует более чем 300 школ (6 %), 18 вузов и 38 средних специальных учебных заведений. Также следует отметить, что на территории Азербайджана до 2007 года действовали Бакинский филиал Академии права и управления, Бакинский филиал Южно-Российского гуманитарного института, Бакинский филиал Московского государственного открытого университета, филиал Дагестанского государственного университета, филиал Санкт-Петербургского института внешнеэкономических связей, экономики и права и т.д. (Ragimov R., 2018, p. 201).

Так, для независимой Азербайджанской Республики, объявившей сферу образования одним из приоритетов развития страны, принятие различных государственных программ в этой области, реализация международных проектов и установление двустороннего сотрудничества

с различными государствами будет продолжать иметь большое значение. Несомненно, среди этих государств большую долю будет иметь наш северный сосед Россия.

## ЛИТЕРАТУРА

*1. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası: Məqalələr və sənədlər /Red. Aydın Hümbətoğlu.- B.: Elm, 1990. S.112*

*2. Əliyev H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. XXI-Yeni Nəşrlər Evi. Bakı, 2001, 56 s.*

*3. Azərbaycanın xarıcı siyasəti; Sənədlər məcmuəsi.2 hissədə, İkinci hissə. Bakı, Cool Print" MMC, 2013-cü il. - 608 səh.*

*4. Əhmədov H.M. Azərbaycan məktəb və pedaqoji fikir tarixi. Bakı: Təhsil, 2001. 432 səh.*

*5. Пивовар Е.И. Российско-азербайджанские отношения. Конец XX- начало XXI века. - М.: Kremlin Multimedia, 2012. -448 с.*

*6. Декларация о дружбе и стратегическом партнерстве между Азербайджанской Республикой и Российской Федерацией. 3 июля 2008.*

*7. Ragimov R. 2018. Rising Profile of Russian-Language Schooling in Azerbaijan: Inferiority, Opportunity or Challenge? Eurasia Daily Monitor. 201*

## АННОТАЦИЯ

Статья посвящена изучению взаимной деятельности Азербайджано-Российских отношений в области образования. В статье рассмотрены содержательные аспекты развития образовательных отношений с Российской Федерацией после восстановления государственной независимости Азербайджана. Отмечается, что Азербайджанская Республика и ныне будет придавать особую важность взаимодействию со своими соседями в сфере развития образования.

**Ключевые слова:** *Азербайджан, Россия, образование, двусторонние отношения, независимость.*

## SUMMARY

The article is devoted to the study of mutual activities of Azerbaijani-Russian relations in the field of education. The article examines the substantive aspects of the development of educational relations with the Russian Federation after the restoration of state independence of Azerbaijan. It is noted that the Republic of Azerbaijan will continue to attach particular importance to interaction with its neighbors in the field of education development.

**Key words:** *Azerbaijan, Russia, education, bilateral relations, independence.*

## XÜLASƏ

Məqalə Azərbaycan-Rusiya münasibətlərinin təhsil sahəsində qarşılıqlı fəaliyyətinin tədqiqinə həsr olunub. Məqalədə Azərbaycanın dövlət müstəqilliyini bərpa etdikdən sonra Rusiya Federasiyası ilə təhsil əlaqələrinin inkişafının məzmunlu aspektləri araşdırılır. Qeyd olunur ki, Azərbaycan Respublikası təhsilin inkişafı sahəsində qonşuları ilə qarşılıqlı fəaliyyətə bundan sonra da xüsusi əhəmiyyət verəcək.

**Açar sözlər:** *Azərbaycan, Rusiya, təhsil, ikitərəfli əlaqələr, müstəqillik.*

UOT 94 "04/15"
*ORCID: 0000-0003-4717-98 48*

# AZƏRBAYCAN AĞQOYUNLU ORDUSUNUN MÜDAFİƏ YARAQ-YASAQLARI

**NƏRİMAN ŞİRƏLİYEV**

*AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun əyani doktorantı*

*E-mail: nariman.shireliyev@gmail.com*

## Giriş

Azərbaycanın dövlətçilik tarixində mühüm yeri olan Ağqoyunlu dövlətinin qısa bir vaxtda olduqca böyük coğrafiyada hakimiyyət sürməsinin səbəblərinin araşdırılması istiqamətində öyrənilməsi vacib bir amil də onun ordusu və hərbi təşkilatlanmasıdır. Ordunun hücum gücünün effektivliyi və düşmənə ağır zərbə vurma imkanı, təbii ki, müzəffər olma yolunda xüsusi önəm kəsb edir. Lakin bu istiqamətdə digər bir məqam isə döyüşçülərin və ümumilikdə, ordunun özünü döyüş meydanında daha rahat və zərbələrə dayanıqlı hiss etməsidir. Nəzərə alsaq ki, döyüş hücum və müdafiə kimi iki sekansdan ibarətdir, o zaman ordu həm müdafiə, həm də hücum sekanslarında döyüşü qazanabilmə bacarığına sahib olmalıdır.

1. Dəbilqə. Orta əsr dövlətlərinin ordularında döyüşçülərin baş nahiyəsini qorumaq üçün istifadə etdikləri bu geyim müxtəlif mənbələrdə tuğ, tugulğa, tuğul, yişak, külah, miğfər və s. adlarla qeyd olunur. Hazırlanma materialına görə polad və parlaq dəmirdən olan metal dəbilqələrlə yanaşı, yun və keçədən hazırlanan dəbilqələrə də rast gəlinir. Otluqbeli savaşı təsvir olunarkən Həsən bəy Rumlu Osmanlı ordusundakı yeniçəriləri "qırmızı külahlı əsgərlər" kimi təqdim edir. Daha bir çox yerdə "külah" terminini papaq mənasında istifadə edir. Buna örnək olaraq istifadə olunan "novruz-i külahi" ifadəsini, yaxud "başlarında polad külah" bənzətməsini göstərə bilərik [23, s.259, s.313]. Ərznamədə isə Əhmədi dərvişlərin keçid sırasında "Əhmədi tuğ" geyinməsi təsvir olunub [5, s.49]. Xüsusən, ağır zirehli qüvvələr metal dəbilqələrdən istifadə edərkən, oxçu süvarilər kimi yüngül silahlı birliklər daha çox parçadan hazırlanan qoruyucu başlıq taxırdılar.

Ağqoyunlu ordusunda dəbilqə əsas müdafiə ləvazimatlarının ən önəmlilərindən idi. Həsən bəy Rumlu Teymuri Əbu Səidlə Uzun Həsən arasındakı döyüşdən öncəki hadisələrdən bəhs edərkən bütün qoşunun və ordu başçılarının savaşa hazırlıq mərhələsində başlarına dəbilqə qoymasını xüsusi vurğulayır [23, s.260].

Azərbaycan Ağqoyunlu ordusundakı döyüşçülərin istifadə etdikləri dəbilqələrin diametri 20-25 sm. arasında dəyişməklə yarımkürə formasında olub təpə hissəsinə yuxarıya doğru uzanan dəmir ucluq (əksər hallarda 4 tilli və ya rombvari) pərçimlənirdi. Dəbilqənin ön səthinə lələk taxmaq üçün bərkidilən yuvalar dizayn əsas alınaraq ya tək olmaqla tam mərkəzdə, ya da iki ədəd olmaqla sağ və soldan bir-birinə simmetrik şəkildə olurdu. Eyni zamanda burunun qorunması üçün həm hərəkətli, həm də hərəkətsiz qoruyucu əlavələrə rast gəlinir. Dəbilqələrin üst hissəsində səthə müəyyən dini ayələrlə yanaşı, eyni zamanda müxtəlif ov və döyüş səhnələri də təsvir edilirdi. Həm Milli Azərbaycan Tarixi Muzeyində, həm də Metropolitan İncəsənət Muzeyində saxlanılan XV-XVII əsrlərə aid edilən dəbilqələrin hər birinin özünəməxsus nəbati və həndəsi naxışları, eyni zamanda müxtəlif təsvirləri zirehqayırmanın Azərbaycandakı inkişafının öyrənilməsi baxımından önəmli rola malikdir [14, s.72, s.73, s.83; 4, s.15, s.21, s.50].

Dəbilqələrin dizaynında ən önəmli xüsusiyyətlərindən biri də baş və boyunun müdafiəsi ilə yanaşı ətrafı daha rahat görəbilmə qabilliyyəti idi. Bunun üçün Ağqoyunlu ordusunda orta əsrlər Qərbi Avropa cəngavərlərində olduğu kimi bütün başı əhatə edən dəmir dəbilqələrin istifadəsi gözə çarpmır. Əsas etibarı ilə süvari olan Ağqoyunlu döyüşçüləri savaş əsnasında həm qarşıdan, həm də xüsusən yanlardan gələbiləcək təhlükələri daha rahat və əlavə ağırlıq olmadan görə bilmək məqsədilə, həmçinin maksimum dərəcədə müdafiə oluna biləcəkləri yarımkürə şəklində görüş məsafəsinə mane olmayan, bərm və ya əlavə bərkidilmiş metal lövhələrlə zənginləşdirilmiş dəbilqələrdən geniş şəkildə istifadə edirdilər.

Ağqoyunlu ordusunun istifadə etdiyi iki əsas dəbilqə növündən bəhs edə bilərik. Bunlardan birincisi şişak adlanan yarımdairə formasında ətrafında boyunluq, qulaqlıq və alınlıq bərkidiləbilən dəbilqə növüdür. Digəri isə tülbənd(türkmən) tipli yarımdairəvi olmaqla ön hissəsi gözün üstünə gələcək şəkildə hazırlanmış, eyni zamanda ətraflarında bərm əlavə etmək üçün halqalar və xüsusi birləşdirici mexanizmlərin olduğu dəbilqələrdir. Xarici ədəbiyyatda tülbənd tipli bu dəbilqələr türban, yaxud türkmən tipi kimi də göstərilir [14, 2015, s.69].

Dəbilqələrdəki fərqliliklər eyni zamanda döyüşçünün sosial statusu ilə də birbaşa əlaqəli idi. Yüksək təbəqədən olan döyüşçülərin dəbilqələri də özünəməx-

sus işləmələrlə zəngin, müxtəlif ayələrin üzərinə zərb edildiyi və parlaqlığı ilə seçilən görkəmli dizayna malik olurdular. Ərznamədə dəbilqə və ümumiyyətlə zirehlərin parlaqlığı haqqında müəllif "dəmirin parıltısından tam işıq saçan bir ulduz kimi" ifadəsindən istifadə edir [5, s.53]. Metropolitan İncəsənət Müzeyində saxlanılan XV əsrə aid edilən tülbənd tipli eksponat (inv. 04.3.211) üzərində ərəbcə "Millətlərin boyun ağası, ən böyük sultan, qüdrətli Xaqanımıza şükürlər olsun... Ərəb və fars krallarının hökmdarı, Sultan Yaqu(b)", "İzzət (şöhrət) itaətdə, zənginlik məmnuniyyətdədir" ifadələri həkk edilib [14, s.72].

Ağqoyunlu ordusunun ağır zirehli dəstələri geyimləri ilə yanaşı, dəbilqələrində də boynu və qulaqları qorumaq məqsədilə halqalı zəncir və metal lövhələrin köməkliyi ilə əlavə edilən xüsusi əlavələrdən istifadə edirdilər. Əvvəlki dövrlərdə tamamilə halqalı zirehdən formalaşan və xüsusilə kəsici silahlara qarşı olduqca effektiv olan bu tipli əlavələr artıq XV əsrdən birbaşa dəbilqəyə əlavə edilirdi. Bərm adlanan bu torabənzər qoruyucu geyim eyni zamanda çiyinləri qorumaq vasitəsi kimi də istifadə edilirdi [3, s.260]. Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan eksponat (inv. 3180) üzərində bərmlə birlikdə sərgilənir [4, s.32]. Düzdür, dəbilqə XVII-XVIII əsrlərə aid edilsə də, bərmin dəbilqəyə birləşməsi və dəbilqə üzərində görünüşünün öyrənilməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

2. Zireh. Döyüşlərdə düşmənlə qarşılaşarkən qorunması vacib olan ən önəmli orqanlar təbii ki, sinə qəfəsi daxilində yerləşən daxili orqanlardır. Xüsusən, dövrün hücum silahları nəzərə alındıqda zireh dizaynlarının da buna uyğun olaraq hazırlanması vacibdir. Ağqoyunlu ordusunda zirehin istifadə çoxluğu ilə bağlı Ərznamədə müəllif keçiddə hərəkət edən Əmir Seydi Qasım bəyin birliyini təsvir edərkən onlar üçün hər birinin "balıqlar kimi zireh geyinməsi" haqqında məlumat verir [5, s.57]. Burada, bizim fikrimizcə, Dəvvani qüvvələrin başdan-aşağı zireh geyinməsini təsvir etmək istəyib. Digər bir yerdə Sultan Nurəddin Əlvənd Mirzənin qüvvələrini "dəmir dağına" bənzədir [5, s.58]. Döyüşlərdə zirehin istifadəsinin xüsusi vurğulandığı təsvirlərə Tehraninin əsərində də rast gəlinir. Uzun Həsənin Amid (Diyarbəkir) şəhərindən çıxaraq Qaraqoyunlular üzərinə hərəkəti öncəsi zireh geyinməsi və silahlanması müəllif tərəfindən xüsusi vurgulanır [26, s.130]. Əsərdə müəllif müxtəlif yerlərdə zireh geyən döyüşçülər üçün "cəbə"(cövşən yaxud halqalı zireh), "cəbə-puş"(zireh geyən) sözlərindən istifadə edir [26, s.182].

Zirehlər eyni zamanda savaşla birlikdə mübadilə məqsədilə də istifadə edilirdi. Bununla bağlı Kitabi-Diyarbəkiriyyədə mübadilə məqsədilə at, dəvə, qatır, parça, müxtəlif heyvanlarla yanaşı zireh də mübadilə olunan məhsullar arasında göstərilir [26, s.76].

Zirehlər də hazırlanma materialına əsasən həm metaldan, həm də üzvi məmulatlar, yaxud qeyri-metaldan ola bilər [3, s.263]. Təbii ki, metaldan olan zirehlər ağırlıq baxımından istifadədə müəyyən çətinliklər yaratsalar da, müdafiə nöqteyi-nəzərdən orta əsrlərdə əvəzsiz geyimlərdir. İstər kəsici silahlara qarşı, istərsə də deşici silahlara qarşı ən güclü müdafiə mexanizmlərindən sayılırlar və qiymət etibarı ilə də digər zirehlərə nisbətdə daha baha idilər. Bununla yanaşı, keçədən, yaxud dəridən hazırlanmış xüsusi zirehlər də hazırlanırdı. Bu zirehlər daha aşağı büdcəli döyüşçülər və əsasən yaxın döyüşə girməyən döyüşçülər üçün müdafiə məqsədilə hazırlanırdı.

Ağqoyunlu ordusunun istifadə etdiyi zirehlər arasında ən populyarı cövşən adlanan yastı halqalı donabənzər ön və arxa hissəsində metal parçalar olan zirehdir. Katerino Zeno Ağqoyunlu qüvvələrini təsvir edərkən onların bir qrupunun üzəri qızılla bəzədilmiş zirehlər və cövşənlər geyinməsi haqqında məlumat verir [13, s.22]. Cozefat Barbaro bu tipli zirehləri təsvir edərkən onların dəmirdən və ya qızıl və gümüşdən hazırlanmasını və halqalı zəncirlərlə bir-birinə bağlanan kiçik düzbucaqlı metal parçalardan ibarət olduqlarını bildirir [6, s.105]. Xüsusən, süvari birliklərin aktiv şəkildə istifadə etdiyi bu zireh növü qılınc kimi kəsici silahlarla yanaşı, ox və nizə kimi deşici silahlara qarşı da müdafiə qabiliyyətinə malik idi. Döyüş meydanında öz parlaqlığı ilə seçilən cövşəni Rumlu günəşə və aya bənzədir [23, s.221]. Ümumiyyətlə, döyüşlərdə parlaq zirehlərdən istifadənin psixoloji üstünlüyü də vardı. Parlaq zirehlər günəş işıqları altında "gözləri kor edən" bir təsir bağışlayırdı. Zeno hətta yüksək rütbəli döyüşçülərin xidmətçilərinin də bu tipli parlaq zirehlər istifadə etdiyini vurğulayır [13, s.22].

"Əhsənüt-təvarix"də müəllif hər hansı silahın üstünlüyünü göstərmək üçün onun "cövşən deşən" olmasını xüsusi vurğulayır. Əsasən süvari birliklər tərəfindən istifadə edilən cövşən döyüşçüyə rahat hərəkət qabiliyyəti ilə yanaşı, at üstündə oturarkən uzun olması etibarı ilə ayaqların üzərini örtən parçaları ilə əlavə müdafiə potensialı qazandırırdı. Həsən bəy Rumluya əsaslanaraq deyə bilərik ki, XV əsrin əvvəllərində Teymuri ordusunda olduğu kimi, Qaraqoyunlu ordusunda da cövşəndən istifadə edilirdi [23, s.56].

XV-XVI əsrlər cövşən üçün ən gözəl örnək Metropolitan İncəsənət Muzeyində saxlanılan eksponatdır (04.3.456b). Zireh sinənin altında və onunla paralel olaraq beldə metal parçalarla zənginləşdirilmiş olmaqla yastı metal halqalarla toxunmuş uzun köynə-

yi xatırladır. Qolları dirsək hündürlüyündə olmaqla aşağıdan yuxarıya dioqanal şəkildə kəsilmişdir. Üzərində arxa və öndə olmaqla birlikdə 94 metal parça mövcuddur ki, onların üzəri müxtəlif nəbati naxışlarla bəzənib, qızıl və gümüşlə xüsusi əlavələr edilib. Ümumi çəkisi 12 kiloqrama yaxındır. Metal parçaların üzərində yuxarıda qeyd etdiyimiz Sultan Yaqubun adının keçdiyi dəbilqədəkilərə bənzər ərəbcə və farsca yazılar mövcuddur. Zirehin ön tərəfində ərəbcə "Şükürlər olsun əfəndimizə, sultanımıza. Ən böyük sultan, Xalqların boyun ağası", arxa hissəsində isə yarı ərəbcə, yarı farsca olmaqla "Əbədi şöhrət və firavanlıq, firavanlıq və firavanlıq. İzzət itaətdədir. Dünyanın Yaradanı [bunun sahibini] harada olursa-olsun, qorusun" ifadələri yazılıb [14, s.29].

Cövşən tipli zirehlərdən biri Uzun Həsənə, digər ikisi isə Sultan Yaquba aid edilən daha 3 zireh İstanbulda "Askeri Müze"də saxlanılmaqdadır. Sultan Yaquba aid edilən zirehin (inv. 4339-2) üzərində Məhəmməd peyğəmbərin adı çəkilir və Sultan Yaqub haqqında "ərəb və farslara yol göstərən Türk sultanı" ifadəsi qeyd edilib. Uzun Həsənə aid eksponatın (inv. 4331-2) arxa metal parçaları üzərində isə "Adil hökmdar Həsən Bahadır" ifadəsi nəqş edilib [2, s.41].

Kitabi-Diyarbəkiriyyədə müəllif Muş döyüşünü təsvir edərkən qızılla bəzədilmiş zirehli çox sayda döyüşçüdən bəhs edir [26, s.278]. Əslində bu fakt döyüşçülərin öz rütbələrini, yaxud əsilzadəliklərini göstərmək məqsədilə bu tipli qızıl və gümüşlə bəzədilmiş olduqca bahalı və xüsusi olaraq hazırlanmış zirehlərdən yalnız tədbirlər üçün deyil, eyni zamanda döyüş içində də geniş şəkildə istifadə etdiklərini göstərir. Ambrogıo Kontarini də öz səyahətnaməsində Ağqoyunlu süvarilərindən bəhs edərkən onların olduqca gözəl olan zirehlərini xüsusi vurğulayır [13, s.106].

Orduda cövşənlə yanaşı, sadəcə halqalardan toxunmuş köynək tipli zirehlərdən də istifadə edilirdi. Bu tipli zirehlərin çəkisi 4-7 kq. arasında dəyişməklə daha çox aşağı büdcəli döyüşçülər tərəfindən istifadə edilirdi. Bu tipli zirehlərə örnək olaraq Milli Azərbaycan Tarixi Müzeyindəki 916 inventar nömrəli eksponatı göstərə bilərik. Uzun xalat formasında yastı halqalardan toxunan uzun qollu bu zirehin çəkisi 7 kq-dır. Eyni muzeydə növbəti bir örnək (inv. 3186) isə daha qısa olmaqla köynək formasındadır və qolları yoxdur. Hündür yaxalıqları ilə birlikdə eyni zamanda sinə yarığı da olduqca genişdir. Ümumilikdə 5.5 kqlıq bir çəkiyə malikdir [4, s.62; s.64].

Bu cür zirehlərin altından dəridən, yaxud keçədən xüsusi geyimlər geyinilərdi. Çokal, cezeran, xəftan adlı bu geyimlər əsasən deşici silahlardan qorunmaq üçün əlavə vasitə kimi istifadə edilirdi. "Əhsənüt-təvarix"də Otluqbeli savaşı təsvir edilərkən oxun dəbilqəni və xəftanı deşməsi vurğulanır [23, s.288]. Həsən bəy Rumlu yazır ki, Sultan Şahruxun Azərbaycana ikinci yürüşü zamanı Qaraqoyunlularla baş verən döyüşdə "süvarilərin zərbəsindən cövşən altındakı dəri geyimlər yarılırdı" [23, s.131].

Metal zirehlərlə yanaşı üzvi materialar olan dəridən, ipəkdən, müxtəlif növ parçalardan hazırlanan müdafiə zirehləri də Ağqoyunlu ordusunda geniş şəkildə istifadə edilirdi. Otluqbeli savaşı zamanı Kitabi-Diyarbəkiriyyədə tüfəng güllələrinin zirehin dərisindən içəri keçməsi haqqında məlumat verilir [26, s.376]. Xüsusən, atlı oxçular və uzaq məsafəli silahlarla silah-lanmş döyüşçülər yaxın döyüşə çox nadir hallarda qoşulduqları üçün ağır zərbə silahlarından müdafiə məqsədilə əlavə ağırlıqlı metal zirehlərin istifadəsinə ehtiyac qalmırdı. Orduda bu tipli zirehlərin istifadəsini Katerino Zeno öz səyahətnaməsində də qeyd edir. Müəllif bu tipli zireh geyən döyüşçüləri təsvir edərkən onların bədənlərini bütün növ zərbələrdən qoruya biləcək olan qalın və möhkəm dərilərdən istifadə etdiyini vurğulayır. Eyni zamanda incə ipək parçalardan istifadə edən döyüşçülərin zirehlərinə oxların batmadığını da yenə öz yazılarında qeyd edir [13, s.22].

Zirehlərin qoruma potensialı nə qədər avantaj qazandırsa da, əslində əlavə ağırlıq yaratmaları və döyüşçüləri yormaları baxımından müxtəlif neqativ xüsusiyyətlərə də malik olurdular. Tam zirehli ordunun səfərdən sonra birbaşa döyüşə girməsi onun döyüş potensialının xeyli azalmasına səbəb olurdu. Tehraninin əsərində Cahangir Mirzənin elçisi Hacı Pir Mihmadla Uzun Həsən arasında döyüşdən sonra əsir dəyişdirilməsi ilə bağlı görüşdə Pir Mihmadın zirehli şəkildə yol gəldiklərindən dolayı çox yorulduqlarından və istirahət edəcək zamanlarının olmamasından gileyləndiyini görürük [26, s.134].

Savaşlardan sonra ölülər üzərindəki zirehlərin yoxlanılaraq qalib gələnlər tərəfindən yığılmasına rast gəlinir. Kitabi-Diyarbəkiriyyədə Uzun Həsənlə Qaraqoyunlular arasında baş vermiş toqquşmadan bəhs edərkən müəllif buna toxunaraq Uzun Həsənin ölülər üzərindəki zirehləri yoxlamaq məqsədilə döyüş meydanına yasavul yerləşdirdiyini təsvir edir [26, s.134].

Cozefat Barbaro öz səyahətnaməsində zirehlərin görünüşü ilə yanaşı onların hazırlandığı yer haqqında "Beşköy" adlı bir yaşayış yerindən bəhs edir. Ətrafının iki mil olduğu bu ərazidə yalnız zireh istehsalı ilə məşğul olan sənətkarların yaşadığını vurğulayan müəllif, bu kimi yerləşim yerlərinin bir çox yerdə olduğunu, lakin burda hazırlanan zirehlər kimi gözəl zirehlərin

heç bir yerdə hazırlanmadığını yazır [6, s.106].

Çox təəssüf ki, üzvi materiallardan hazırlanan zirehlərin dövrümüzə qədər qorunub saxlanması mümkünsüzdür. Olduqca tez erroziyaya məruz qalan bu tipli zirehlərin forması və hazırlanma üsulu kimi bir çox məlumatı öyrənə biləcəyimiz hər hansı nümunəyə rast gələ bilmədik.

3. Qalxan. Döyüşçünün önəmli müdafiə alətlərindən biri də qalxandır. Qalxanlar da zirehlərdə olduğu kimi müxtəlif materiallardan hazırlanır. Əsasən metal qalxanlar poladdan, qeyri-metal qalxanlar isə taxta və dərinin birlikdə istifadəsi ilə hazırlanırdı. Ağqoyunlu ordusunun nisbətən yüngül zireh geyinmələri daha inamlı müdafiə üçün qalxan istifadəsini zəruri edirdi.

Qalxanın döyüşlərdə ən böyük istifadə arealı təbii ki, mənzilli silahlara qarşı idi. Xüsusən cövşən geyən Ağqoyunlu döyüşçülərinin ağır zərbə gücü olan silahlara qarşı tək müdafiə vasitəsi zireh üzərindəki metal parçalar idi. Eyni zamanda halqalı zireh deşici silahlara qarşı da yetərincə effektiv deyildi. "Əhsənüt-təvarix"də Sultan Yaqubun Gürcüstana səfəri təsvir edilərkən qalaya hücum zamanı döyüşçülərin qalxanlarını başlarına tutaraq hərəkət etdiyi əks edilir [23, s.221]. Əsərinin digər bir yerində isə Həsən bəy Rumlu oxlara qarşı "qalxanın sinəsini qabartması" kimi bir ifadədən istifadə edir [23, s.415]. Bu ifadələr ox kimi uzaqmənzilli silahlara qarşı qalxan istifadəsinin önəmini bir daha vurğulayır.

Ağqoyunlu ağır süvarisinin istifadə etdiyi qalxanlar metaldan hazırlanırdı. 50-60 santi-metrlik diametrə sahib bu tipli qalxanlar erkən döyüşdə, xüsusən, ordunun ən çox istifadə etdiyi döyüş taktikası olan süvari axınlarında düşmənin silahının həm deşici, həm də kəsici zərbələrindən effektiv müdafiə qabiliyyəti formalaşdırırdı. Ağır nizəli süvarilərin əsas döyüş alətlərindən birini təşkil edən qalxanın istifadəsi də xüsusi hazırlıq tələb edirdi. Bir döyüşçünün savaş meydanında qalxanla birlikdə əsas hücum silahından sintezli şəkildə istifadə edə bilməsi üçün müəyyən təlimə malik olması vacib idi.

Həsən bəy Rumlu bir çox yerdə hər hansı qüvvənin geri çəkilərkən "qalxan atması"nı təsvir edir [23, s.544]. Qalxanın qaçarkən əlavə ağırlıq yaratması ilə yanaşı, eyni zamanda bir növ müdafiədən vaz keçib geri çəkilməyi də təsvir edərkən bu metaforadan istifadə edir.

Taxtadan hazırlanan qalxanlarda dairənin ətrafı ilə yanaşı, qalxanın mərkəzində metaldan istifadə edilirdi. Bu birbaşa olaraq kəsici silah zərbələrinin davamlılığının azaldılmasına hesablanmışdı. Bu tipli qalxanlar əsasən ox və yay istifadə edən döyüşçülər üçün nəzərdə tutulurdu. Döyüşçüyə ox və cirit kimi uzaqmənzilli silahlara qarşı müdafiə potensialı yaradırdı. Bu tipli qalxanların ən zəif cəhəti nizə, gürz, toppuz kimi zərbə gücü ön plana çıxan silahlarla mübarizədə yetərsiz olması və parçalanması idi.

Katerino Zeno Ağqoyunlu döyüşçülərinin istifadə etdiyi qalxanların İtalyan döyüşçülərin istifadə etdiyi kiçik çaplı qalxanlardan fərqli olaraq yuvarlaq şəklində olmasını və döyüşçülərin bədənlərini bununla qoruya bildiyini ifadə edir [13, s.22]. Kontarini isə qalxanların üzərinin ipək və ip ilə xüsusi olaraq bəzədildiyindən bəhs edir [23, s.106].

Artıq XV əsrdə çox azda olsa, hələ də dəri qalxanlardan da istifadə edilirdi. Xüsusən, sərt və qalın dərisi ilə seçilən timsah, fil kimi heyvanların dəriləri xüsusi ön hazırlıq mərhələsindən sonra dördü, yaxud beşi üst-üstə birləşdirilərək möhkəmlik əldə edilirdi. Əsasən, deşici silahlara qarşı istifadə edilən bu qalxanların ən geniş yayılmış növləri dairəvi olmaqla 50-60 santi-metrlik diametrə malik idi [24, s.98].

Qalxan döyüş zamanı döyüşçünün əsasən sol qolunda olmaqla iki bərkidici ip, yaxud qısa qayışla qola keçirilirdi. Birinci ip qolun dirsəkdən biraz aşağı hissəsinə keçirilir, digəri isə birbaşa əlində tutulurdu. Əksər hallarda əllə tutulan hissədə yumşaq materiallardan istifadə edilirdi. "Əhsənüt-təvarix"də müəllif "qalxanın bərk üzü" deyə bir ifadədən bəhs edir [23, s.365]. Böyük ehtimalla, hazırlanan qalxanların iç tərəfi daha yumşaq materialdan olan dəri, yaxud keçə ilə zənginləşdirilir və döyüşçünün qalxanla təmas edən qolunun zərbə tipli silahlara qarşı daha az zədə almasına imkan yaradırdı. Qeyri döyüş vəziyyətində qalxan ya döyüşçünün belinə, ya da atın yanına taxılırdı.

Mənbələrdən göründüyü kimi, Ağqoyunlu ordusunda metal zireh dizaynında əsas məsələlərdən biri də parlaqlıq idi. Bu, eyni zamanda qalxanlar üçün də keçərlidir. Həsən bəy Rumlu Qara Yuluq Osman bəylə Pir Ömər arasında savaşı təsvir edərkən qalxanları zərnigara bənzədir və qalxan üzərinə düşən günəş şüalarından döyüşçülərin gözlərinin qamaşdığını bildirir [23, s.91]. Eyni əsərdə digər bir yerdə qalxan cövşənlə birlikdə günəşə və aya bənzədilir [23, s.221]. Bu kimi ifadələrə "Kitabi-Diyarbəkiriyyə"də də rast gəlinir. Əbubəkr Tehrani döyüş meydanını qalxanların parlaqlığından civədən bir dənizə bənzədir [26, s.297].

4. Dizlik və qolçaqlar. Döyüşçünün savaş zamanı qorunması vacib digər üzvləri hərəkət funksiyası yerinə yetirən ətraflardır. Bu üzvlər zədə aldığı təqdirdə döyüşçü ciddi bir şəkildə döyüş potensialını itirir. Xüsusən, yaxın döyüş zamanı ətrafların qorunması məqsədilə döyüşçülər dizlik və qolçaqlardan istifadə edirdilər.

Ağqoyunlu ordusunun əsas zirehi olan cövşənin

dizaynına nəzər yetirsək ən inkişaf etmiş variantlarında zirehin qollar üçün nəzərdə tutulan hissələrinin dirsəklə paralel hazırlandığını görərik. Bu da döyüşçünün qolçaq istifadəsini məcburi edirdi. Qolçaqlar metaldan və dəridən hazırlana bilirdi. Əsas məqsəd döyüş zamanı dirsəkdən biləyə qədər olan hissənin qorunması idi. Xüsusilə, yaxın döyüşdə kəsici silahlara qarşı qolların effektiv müdafiə edilməsinə kömək olan qolçaqlar eyni zamanda möhkəmliyi hesabına bəzi hallarda düşmən silahının zərbəsinin qarşısını almaq üçün də istifadə edilirdi.

Müxtəlif növdə qolçaq dizaynlarına rast gəlmək mümkündür. Tək halda olan qayışlar vasitəsilə birləşdirilən dəri qolçaqlar, yaxud qola keçirilən tək halda metal qolçaqlar, ya da iki, yaxud üç hissədən ibarət olan və bir-birinə bağlanan metal qolçaqlar hazırlanır və döyüşçünün geyim və silah dəstinə uyğun olaraq seçilirdi [3, s.267]. Dəri qolçaqlardan əsasən yaxın döyüşə girməyən və aşağı büdcəli döyüşçülər istifadə edirdilər.

Qolçaqlarla yanaşı dizliklər, yaxud ayaqlıqlar da döyüşçünün aşağı ətraflarının qorunması məqsədilə dizayn edilən və adətən iki, yaxud üç parçadan ibarət olan dizaynlara sahib olurdular. Parçalar bir-birinə ya qayış vasitəsilə birbaşa, yaxud arada metal torabənzər əlavələr vasitəsilə birləşdirilirdi [3, s.267]. Ayaqların hərəkətli və qatlana bilən olması dizaynın bu tipli parçalı olmasını zəruri edirdi. Əks halda hərəkət qabiliyyəti ciddi şəkildə itmiş olacaqdı.

Qolçaqlar və dizliklərin də digər zirehlər kimi üzəri müxtəlif nəbati naxışlarla bəzədilirdi. Milli Azərbaycan Tarixi Muzeyində saxlanılan tunc qolçaq (inv. 415) üzərində ov səhnəsi təsvir edilib. Təsvirin kənar hissələrində nəbati naxışlarla kompozisiya tamamlandırılmağa çalışılıb. Muzeyin bir digər eksponatında (inv. 409) isə qabarıq hissənin kəsmə naxışlarla bəzədilməsi nəzərə çarpır. Eyni zamanda muzeydə 3 hissədən ibarət ümumi uzunluğu 40 sm. olan ayaqlıq dəsti (inv. 3083) də mövcuddur. Onun üzərində qızıl işləməli medalyon və nəbati naxışlar əks olunub [4, s.28, s.36, s.66].

Nəticə. Azərbaycan Ağqoyunlu ordusunun istifadə etdiyi müdafiə yaraq-yasaqları dövrün digər dövlətlərində olan hərbi geyimlərlə oxşarlıq təşkil etsə də, eyni zamanda öz individuallığı ilə də seçilir. Ağqoyunlu ordusu üçün əsas rola malik olan çevik manevr qabiliyyəti və yüksək sürəti nəzərə alınaraq geyim dizaynında da bunu neytrallaşdırmayacaq və eyni zamanda döyüşçünün maksimum müdafiəsini təmin edəcək metodlardan istifadə edilib. Zirehlərin halqa dizaynla olduqca yüngülləşdirilməsi və döyüşçüyə böyük hərəkət imkanları yaratması ilə yanaşı, istifadə olunan halqalar yastılaşdırılaraq kəsici silahların zədə qabiliyyəti minimuma endirilmişdir. Qalxan dizaynında at üstündə əlavə ağırlıq yaratmaması və daha rahat istifadəsi üçün hazırlanan kiçik ölçülü qalxanlar da məhz ümumi ordu kompleksinin tamamlanması məqsədi güdürdü.

Azərbaycan Ağqoyunlu dövləti Şərq və Qərb arasında əsas ticarət yollarının keçdiyi böyük bir coğrafiyaya hakim olduğu üçün geyim və zireh dizaynlarında da qonşu dövlətlərlə texnologiya mübadiləsi yüksək səviyyədə olmuşdur. Eyni zamanda tez-tez aralarında döyüşlər olan XV əsr şərqinin ən güclü dövlətləri olan Ağqoyunlu-Osmanlı-Məmlük-Qaraqoyunlu dövlətləri bir-birinin sənətkarlarından öz silah texnologiyalarının inkişafı məqsədilə geniş istifadə etmişlər. Bu da hal-hazırda muzeylərdə saxlanılan bir sıra maddi-mədəniyyət nümunələrinin hansı dövlətə aid edilməsi, yaxud hansı dövlətdə hazırlanması baxımından ciddi suallar yaratmış olur.

Nəticə etibarı ilə, yuxarıda tədqiq etdiyimiz problemlə bağlı müxtəlif ilkin qaynaqlar, maddi-mədəniyyət nümunələri və dövrlə bağlı araşdırma aparmış tədqiqatçıların əsərləri əsas alınaraq Ağqoyunlu ordusunun istifadə etdiyi müdafiə yaraq-yasaqların sistemləşdirilməsi, dizaynı və istifadə arealı haqqında məlumat verməyə çalışdıq.

**Açar sözlər:** *Ağqoyunlu ordusu, müdafiə geyimləri, yaraq-yasaq, cövşən, dəbilqə, zireh, qalxan, dizlik, qolçaq.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Алиев Н., & Ахмедов, С. Военная история Азербайджана с древнего периода до XVIII вв. Баку, Азербайджан, 2020.*

*2. Ahmedov, S. Akkoyunlu Askerlerinin Zırhları. Irs: Geleneksel Sanatlar Dergisi, 2013, s. 38-43.*

*3. Azərbaycanın hərbi işi tarixi. Bakı, Hərbi Nəşriyyat, 2006*

*4. Azərbaycanın müdafiə silahları Milli Azərbaycan tarixi Muzeyinin kolleksiyasından, Milli Azərbaycan Tarixi Muzeyi, 2012.*

*5. Baharlu İ. "Arzname" ve "Hülasatüt-tevarih" eserlerinde Akkoyunlu ve Safevi ordularının resmi geçitleri. İstanbul, Paradigma Akademi, 2023.*

*6. Barbaro J. Anadolu'ya ve İran'a Seyahat. (Çev. Ve Notlar T.Gündüz). Yeditepe İstanbul, Yayınevi, 2009.*

*7. Efendiyev O. Karakoyunlu, Akkoyunlu ve Safevi devletlerindeki mülki ve askeri teşkilata bakış. Yeni Türkiye, 2002, 8 (45), s. 72-80.*

*8. Erdoğan E. Safevi Devleti'nin Askeri Teşkilatı.*

*(Doktora Tezi). Ankara Üniversitesi, 2015.*

*9. Erdem İ. Ak-Koyunlu ve Kara-Koyunlu Ordularına Genel Bir Bakış . Tarih Araştırmaları Dergisi, 2005, 24 (37), s. 57-77.*

*10. Əhmədov S.Ə. Azərbaycan silahları IX-XVII əsrlərdə; təkamül və inkişafı. Bakı, 2017.*

*11. Fezlullah b. Ruzbihan Khunji Isfahani. (). Tarıkh-ı ʻalam-ara-yı amını. Persian text edited by John E. Woods with the abridged English translation by Vladimir Minorsky. PERSIA IN A.D. 1478-1490 (Turkmenıca 12). Revised and augmented by John E. Woods. Royal Asıatıc Socıety, 1992.*

*12. Göksu E. Türk Kültüründe Silah. (Yüksek lisans tezi). Kırıkkale Üniversitesi, 2004.*

*13. Gündüz T. Uzun Hasan ve Fatih mücadelesi döneminde Doğuda Venedik elçileri: Caterino Zeno ve Ambrogio Contarininin seyahatnameleri (çeviri və notlar Tufan Gündüz). 5.baskı, Yeditepe Yayınevi, 2021.*

*14. Islamic Arms and Armor in the Metropolitan Museum of Art. The Metropolitan Museum of Art, New York. Pyhrr, S. W., & Kwiatkowski, W. (Eds.). Distributed by Yale Uniersity Press, New Haven and London, 2015*

*15. Macit E. Timurlu Devletinin Askeri Teşkilatı. (Yüksek lisans tezi). Atatürk Üniversitesi, Erzurum, 2012*

*16. Minorsky V. A Civil and Military Review in Fars in 881/1476. Bulletin of the School of Oriental and African Studies, 1939, X, 141-178.*

*17. Nəcəfli T. H. Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tarixi müasir türk tarixşü-naslığında. Bakı, Çaşıoğlu, 2000.*

*18. Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (Müasir Türkiyə tarixşünaslığında). Bakı, Çaşıoğlu, 2012.*

*19. Özdoğan T. Doğu'ya Yolculuk: Venedik Elçilerinin XV. Yüzyıl İzlenimleri. Anadolu Mecmuası, 2022, 1(II), s. 103-113.*

*20. Paydaş K. Akkoyunlular Devlet Teşkilatı. Türkler, Orta Çağda. Cilt 7:, s.212-220, Ankara, Yeni Türkiye Yayınları, 2002.*

*21. Paydaş K. Ak-Koyunlu Devlet Teşkilatı. (Doktora Tezi). Ankara, 2003.*

*22. Petruşevski İ.P. XV əsr Azərbaycan dövlətləri. Azərbaycan SSR Elmlər Akademiyası Tarix və Fəlsəfə İnstitutunun əsərləri, 1951, I cild, s. 49-108.*

*23. Rumlu Həsən bəy. Əhsənüt-təvarix (Tarixlərin ən yaxşısı). Fars dilindən tərcümə və şərhlər: AMEA-nın müxbir üzvü, t.e.d., prof. Oqtay Əfəndiyev, t.ü.f.d., dos. Namiq Musalı. Kastamonu, Uzanlar, 2017.*

*24. Saka E. Sultanın Silahları (1520-1566). (Doktora Tezi). Samsun, 2021.*

*25. Seyyahların Gözüyle Sultanlar ve Savaşlar (). İstanbul, Yeditepe Yayınevi, 2006.*

*26. Tihrani Ebu Bekr-i. Kitab-ı Diyarbekriyye. (Çev. M.Öztürk,) Ankara: Türk Tarih Kurumu, 2014.*

*27. Uzunçarşılı İ.H. Anadolu beylikleri və Akkoyunlu, Karakoyunlu devletleri. Ankara, TTK Basımevi, 1969.*

*28. Woods J. E. (Çev., Sibel Özbudun, Ek Yazılar, Necdet Sakaoğlu). Akkoyunlular: Aşiret, Konfederasyon, İmparatorluk: 15. Yüzyıl Türk-İran Sivaseti Üzerine Bir İnceleme. İstanbul: Milliyet Yayınları, 1993.*

*29. Yıldız M.K. Venedikli Diplomatlarca Kaleme Alınan Resmi Mektuplarda Akkoyunlu Askeri Gücü. Harp Tarihi Dergisi, 2020, Sayı 1, s. 95-124.*

**Defensive constructions in the army of the Azerbaijani State of Aq Qoyunlu**

**SUMMARY**

Although the defense sequence consists of various tactics, the correct implementation of these tactics and minimizing losses during this period are directly related to the personal defense equipment of the warriors. The protective clothing used by a warrior in the Aq Qoyunlu army to protect himself from blows consists of a helmet, armor ("yarik", "cövşen", "zireh"), armrests, knee pads, etc. Such clothes are made of iron or silk, wool, etc. According to the material of production, taking into account the social status of the warrior, his military unit and the weapons he uses.

**Keywords:** *Aq Qoyunlu army, defense outfit, helmet, jawshen, shield, knee pads, armrest.*

**Оборонительные сооружения армии азербайджанского государство Аггоюнлу**

**РЕЗЮМЕ**

Хотя последовательность обороны состоит из различных тактик, правильная реализация этих тактик и минимизация потерь в этот период напрямую связаны с личным защитным снаряжением воинов. Защитная одежда, используемая воином в армии Аггоюнлу для защиты от ударов, состоит из шлема, доспехов ("ярик", "кёвшен", "зирех"), налокотников, наколенников и т.д. Такая одежда изготавливается из железа или шелка, шерсти и т.д. В зависимости от материала изготовления, с учетом социального статуса воина, его воинского подразделения и используемого им оружия.

**Ключевые слова:** *Армия Аггоюнлу, защитное снаряжение, шлем, кёвшен, щит, наколенники.*

UOT 94 "19/..."

# AZƏRBAYCANIN NAXÇIVAN BÖLGƏSİNİN SOVET RUSİYASI TƏRƏFİNDƏN İŞĞALI

**ŞAKİR HÜSEYNOV**
*Azərbaycan Dövlət Pedaqoji Universteti, doktorant*
*E-mail:sakirhuseyin@gmail.com*

The occupation of the northern territories of Azerbaijan by the Russian Empire was accompanied by the policy of mass relocation and the definition of administrative territory. The ancient historical-geographic settlements of the Azerbaijani population suffered significant loss due to the subjugation of the forms of local governance imposed by the Russian government, which were constantly changed and aimed at ethno-political purposes [1].

At the beginning of the 20th century, the fate of remote regions and peoples in the Russian Empire, which collapsed with the February revolution of 1917, was in the process of being determined. The conflict of interests of the powerful states of the world in the Caucasus and the Caspian Sea basin, the power struggle, the "arbitration" mission of foreign military forces replacing one another in the region, and the characteristic territorial-administrative measures to create "stability" for their own interests made the situation worse. The most ominous role for the region was played by the traditional destructive Armenian nationalism, its policy of usurpation and genocide born from the "Great Armenia" claim. The fate of the land of Nakhchivan, which faced the threat of Dashnak, was also turbulent. Belonging to the Iravan governorate and giving Iravan to the Armenians left the local population in a very difficult situation. In the south of Goycha Lake, in Zod, Buyuk Vedi, Vedibasar, Milistan and other villages, in Sharur-Daralayaz and near Iravan, the resistance of Muslims was sharper. Although dozens of Muslim villages were destroyed during the fighting, the Muslims managed to suppress the Armenian groups and the region was declared a neutral zone by the allies, on the condition that the rights of the population were taken into account in the international peace conference. Shortly after the fall of the Azerbaijan Republic as a result of the military intervention of Soviet Russia, the lands of Azerbaijan became the subject of political negotiations. The Russian government was pushing Azerbaijan to give up the Sharur-Darelayaz district and the Nakhchivan district in favor of Armenia. This was done by I., one of the main leaders of the Soviet state. It is possible to determine Stalin's attitude to the issue: "If they want to know who owns Zangezur and Nakhchivan, they cannot be given to the current government of Armenia, but if the Soviet government is formed there, they can be given." This predetermined scenario began to be implemented immediately after the declaration of Soviet power in Armenia on November 29, 1920. However, the "Turkish gate" (the first is Stalin's expression, the second is Atatürk's) "many times insisted on," the people of Nakhchivan showed historical determination and fought to the limit of armed resistance, and did not enter the administration of Armenia. The government of Soviet Armenia declared that it recognized Nakhchivan as an independent Soviet republic. The declarations of December 26 and 28, 1920 regarding the region were sent by the Armenian revolutionary committee to Nakhchivan, not to the Azerbaijani government. The poll did not leave hope for Armenian political foresight: 90 percent of the population voted for Nakhchivan to remain part of Azerbaijan in the status of an autonomous republic.

The Turkish side's attempt to sign the agreement that would give legality to this status with the Caucasian republics, separately and bilaterally, turned into a tense process. A delegation of Ankara government consisting of Yusif Kemal, Ali Fuad and Dr. Riza Nur came to Moscow in February 1921 and held negotiations with the Soviet state. Nariman Narimanov, who was the head of the government of the Azerbaijan SSR at that time, sent a letter to the conditions that the Soviet side should take into account during negotiations with the Turks [2].

He brought to V. Lenin's attention: "The Turkish delegation is going to Moscow together with our representative Behbud Shahtakhtinsky... For them, the most fundamental issue is the Armenian issue... they said: "The Armenian issue is a matter of life and death"... Moscow opposes the Turks because of the Armenian issue. if he keeps him away, they may be disappointed and turn to England... I am obliged to warn you: Comrade Chicherin is confusing the East-

ern issue, he is too attached to the Armenian issue and does not take into account what may happen as a result of a conflict between us and the Turks precisely because of the Armenian issue. . I say definitely ... we must make a strong alliance with the Turks at any cost" [3].

V. Lenin, who got acquainted with the letter on February 19, underlined many points and instructed all members of the Central Committee to read the letter. Among those who noted that they read the letter, N. Bukhari's remark is noteworthy: "If I am not mistaken, that delegation has already arrived and is not accepted anywhere." N. Narimanov's letter to Lenin did not remain unaffected by the position of the Soviet side in the negotiation process in relation to the Turkish delegation. In his second short letter addressed to Lenin on February 21, N. Narimanov wrote: "I assume that the Armenian issue should not play a role in the negotiations with the Turkish delegation" [1].

On February 26, 1921, the Moscow conference was opened. One of the main issues discussed was related to Nakhchivan. In the friendship and brotherhood agreement signed between Turkey and the RSFSR on March 16, the fate of Nakhchivan was determined by a special clause (Article 3): "Both parties agree that Nakhchivan province will be an autonomous territory under the auspices of Azerbaijan within the borders specified in Annex 1(B) of the present agreement. they agree to do so, under the condition that Azerbaijan will never compromise this protection right to a third country. The issue of determining the border line of Nakhchivan lands is also reflected in the article. Thus, Nakhchivan gained a new international legal status by remaining under the protection of Azerbaijan.

The Moscow Treaty was ratified by the RSFSR MIK on March 20, 1921, and by the Grand National Assembly of Turkey on July 21, 1921, and their exchange was carried out on September 22 in Kars, Turkey. It was necessary to convene a new conference in order to settle the unresolved issues between Turkey and the South Caucasus republics. The conference was held in Kars on September 26 and October 13, 1921 [2].

Turkey's diplomacy, which insisted on the ratification of the Kars Treaty by every Caucasian republic, became the last hope of Turkish diplomacy: Yusif Kemal asked Ibrahim Abilov to establish contact with Narimanov in order to achieve this and influence the acceleration of the work . Narimanov gave a concrete answer to the question about Nakhchivan at the first All-Azerbaijan Congress of Soviets: according to the agreement between Soviet Russia and Turkey, Nakhchivan is declared an independent republic under the protectorate of Azerbaijan. We will have a representative there and we will serve Nakhchivan in every way.

The Kars Treaty once again determined the destiny of Nakhchivan, once again confirmed the issue of territorial belonging. The issue of Nakhchivan, which was repeatedly discussed by the Soviet government in the Transcaucasian Seym, the APC parliament, the parliaments of Armenia and Turkey, the Paris peace conference, was finally resolved by the Moscow and Kars agreements. These agreements realized the possibilities of Nakhchivan region to remain as an autonomous entity within Azerbaijan. The states that signed the agreements gave an international legal guarantee to Nakhchivan's status as an autonomous territory within Azerbaijan.

After the establishment of the Nakhchivan Autonomous SSR within the Azerbaijan SSR on February 9, 1924, Armenians moved to the territory of Nakhchivan under the guise of "refugees" and changed the ethno-demographic situation in the region to their own advantage, although their attempts to revise the status of Nakhchivan and justify their claims in the future were prevented. , in the late 1920s, the territory of 657 square kilometers of the Nakhchivan MSSR was given to the Armenian SSR, thus ending the direct territorial connection with the Nakhchivan region under the power of Azerbaijan [4].

The fact that this change, implemented in violation of the international agreements concluded in 1921, remained in force during the USSR should not be considered acceptable by the states that regained their independence after the fall of the USSR. Although the territorial integrity of the current states in the South Caucasus, which declared themselves the successors of the states that existed in 1918-1920, was not restored within those borders, as an international agreement, signed and ratified by Armenia, Azerbaijan, Georgia on the one hand, and Turkey on the other, with the participation of the RSFSR Exchange of decrees September 1922According to the Kars agreement held in Yerevan on 11th, which entered into force on the same day, the territory of

the Nakhchivan Autonomous Republic should be restored as indicated in the document: "The Turkish government, the Soviet governments of Armenia and Azerbaijan shall form an autonomous territory of the Nakhchivan region under the auspices of Azerbaijan within the borders specified in Appendix No. 3 of the present agreement. they agree to do it". The duration of the contract is not limited [1].

The authority of the Azerbaijan state over Nakhchivan was unequivocally established by the Kars Treaty signed by the authorized representatives of Armenia as an independent state before the creation of the ZSFSR and the USSR. On February 9, 1924, the Azerbaijan SSR definitively established the autonomous status of Nakhchivan as part of Azerbaijan. The protective guarantee of this historical achievement has been and will be the irrevocable will of the Azerbaijani people, the political determination of the Azerbaijani state.

**Keywords:** *Nakhchivan, region, politics, Caucasus*

## REFERENCE

*1. Əliyev, Ə.Ə., Naxçıvanda Sovet hakimiyyətinin qurulması və möhkəmləndirilməsi uğrunda mübarizə (1920-1921-ci illər), Bakı: Bilik nəşriyyatı, 1960.*

*2. Ghazaryan N., 'The EU and the Nagorno-Karabakh Conflict: The Forty-Four-Day and Its Aftermath', European Foreign Affairs Review, Vol. 28(1), 2023, pp. 53-71.*

*3. Souleimanov E., 'The Conflict over Nagorno-Karabakh', in Institute for Peace Research and Security Policy at the University of Hamburg (ed.), OSCE Yearbook 2004, 2005, pp. 203-220.*

*4. https://www.europarl.europa.eu/RegData/etudes/BRIE/2023/747919/EPRS_BRI(2023)747919_EN.pdf*

## XÜLASƏ

Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol keçib. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşadıb, ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynayıb. Naxçıvan Muxtar Respublikasının yaradılması isə Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsinə çevrilmişdir. Cənubi Qafqaza köçürüldükdən sonra imperialist dairələrin dəstəyindən məharətlə istifadə edərək regionda mökəmlənmiş ermənilər XX əsrin ilk illərindən başlayaraq müəyyən fasilələrlə azərbaycanlılara qarşı soyqırımı aktları törətmişlər. Azərbaycanın əksər bölgələrində həyata keçirilən qətliamlar Rusiyada çarizmin devrilməsindən sonra daha da genişləndirilmiş və Naxçıvanı da əhatə etmişdir.

**Açar sözlər:** *Naxçıvan, bölgə, siyasət, Qafqaz*

**Гусейнов Шакир**
***Азербайджанский Государственный Педагогический Университет, аспирант***
***Электронная почта: Sakirhuseyin@gmaail.com***

## РЕЗЮМЕ
## Оккупация Советской Россией Нахчыванской области Азербайджана

Древний регион Азербайджана – Нахчыван исторически прошел сложный и в то же время славный путь, полный тяжелых испытаний. Эта земля с многовековыми традициями государственности всегда жила богатым культурным наследием нашего народа и играла неоценимую роль в социально-экономической, общественной и политической жизни нашей страны. Создание Нахчыванской Автономной Республики стало важным событием в политической истории Азербайджана. Армяне, заселившие регион, умело используя поддержку империалистических кругов после переселения анубисов на Кавказ, совершали акты геноцида против азербайджанцев с определенными интервалами, начиная с первых лет XX века. После свержения царизма в России массовые убийства, устроенные в большинстве регионов Азербайджана, еще более расширились и охватили Нахчыван.

**Ключевые слова:** *Нахчыван, регион, политика, Кавказ.*

UOT(479.24)

# QARABAĞ PROBLEMİ RUSİYA TARİXŞÜNASLIĞINDA

**KÖNÜL HÜSEYNOVA**
*Bakı Dövlət Universitetinin dissertantı*
*E-mail: hkonul.adpk@gmail.com*

Rusiya tarixşünaslığında Qarabağ probleminin xüsusi şəkildə tədqiqi 1823-cü ildən hesablana bilər. Belə ki, 6 aprel 1816-cı ildə xüsusi gürcü korpusunun (1820-ci ilin avqustundan Xüsusi Qafqaz korpusu - red.) komandanı təyin edilmiş Aleksey Yermolovun və həqiqi mülki müşavir Mogilevskinin göstərişi ilə "Qarabağ əyalətinin təsviri" [14] tərtib olundu. Bu təsvir orijinalı əsasında 1866-cı ildə Tiflisdə yenidən nəşr edilmişdir. Qarabağ əyalətinin təsvirinə görə Talış mahalında 215, Xaçın mahalında 230, Çiləbört mahalında 201, Vərəndə mahalında 625, Dizax mahalında 288 ailə olmaqla cəmi 1559 ailə var idi. Bu ailələrin də hamısı erməni deyildi. Erməni kəndi kimi qələmə verilməyən kəndlərdə 239 ailə yaşayırdı [14, 220-235, 242-245, 310-337]. Bütün Qarabağ əyalətində isə 18 min 563 ailə qeydə alınmışdı, onlardan beş xristian məlikliyinin payına isə bütün ailələrin cəmi 8,4 faizi düşürdü [14, 412]. Qeyd edək ki, xristian albanlar da erməni kəndi kimi qeydə alınmışdı. Verilən məlumatdan məlum olur ki, hətta ermənilərin kompakt şəkildə yaşadığı deyilən xristian məlikliklərində belə əhali tamamilə erməni deyildi.

Rusiya tarixşünaslığında bu istiqamətdə aparılan tədqiqatlardan biri də İlya Petruşevskinin "Dağlıq Qarabağ kəndlilərinin xristianlığa qədərki inamları" [15] adlı əsəridir. Hələ 1928-ci ildə Qarabağdakı səyahətini başa vuran sovet tarixçisi apardığı tədqiqatın yekunları ilə bağlı belə yazırdı: "Ermənilər yerli monastrlara çox nadir hallarda gəlirlər, son illərdə isə ümumiyyətlə gəlmirlər. Bu yerləri tez-tez qış və yay otlaqlarına keçən zaman yerli türk maldarlar ziyarət edirlər... Bu bir daha təsdiq edir ki, ermənilər bu yerlərdə gəlmə əhalidir... azərbaycanlılar isə əsrlərdən bəri burada yaşayır, bu müqəddəs yerlərə nəsildən nəsilə inam bəsləyirlər" [15, 13]. Etnosla, yerli əhalinin məişəti və mədəniyyəti ilə bağlı uzunmüddətli tədqiqatların nəticəsində alim belə bir qənaətə gəlmişdir: "Qarabağ heç vaxt erməni mədəniyyətinin mərkəzi olmamışdır. Qarabağ mədəniyyəti bütünlüklə Azərbaycan xalqına məxsusdur" [15, 13].

Yuri Pompeyevin 1992-ci ildə Bakıda rus dilində nəşr olunmuş "Qarabağ: qan içində" kitabında Qarabağ probleminin yaranma səbəbləri göstərilmiş və erməni terrorçuluğu tarixi faktlarla ifşa edilmişdir. Müəllif Qarabağ probleminin Rusiya, Türkiyə və Qərb ölkələrinin Cənubi Qafqazda strateji maraqlarının toqquşmasından yarandığını tarixi faktlarla açıb göstərmişdir [7, 46].

Vladimir Kazimirovun 2009-cu ildə tədqiq etdiyimiz problemlə bağlı "Qarabağa sülh: Qarabağ münaqişəsinin nizamlanmasında Rusiyanın vasitəçiliyi" adlı əsəri [9] çapdan çıxmışdı. Rusiya tarixşünaslığında bu münaqişənin "ətraflı və sənədləşdirilmiş tarixinin ilk dəfə tədqiqi" məhz V.N.Kazimirovun payına düşür. Əsərin "xatirələrin ştrixləri" adlanan birinci hissəsində müəllif Rusiyanın Qarabağ müharibəsindəki roluna dair guya çoxlu yanlışlıqlarla üzləşdikdən sonra hadisələri obyektiv şəkildə işıqlandırmağa lüzum olduğunu görmüşdür: "Qarabağ müharibəsi barədə digərləri tərəfindən yazılanları - xüsusilə Rusiyanın rolu barədə - oxuduqca bir sıra yanlışlıqlarla üzləşdim. Axı 1992-ci ildən 1996-cı ilədək RF-nın bu münaqişənin tənzimlənməsi üzrə Qarabağ üzrə vasitəçilik missiyasına rəhbərlik etmək məhz mənə qismət olmuşdu. Həmin illərdə Rusiyanı ATƏM/ATƏT-in Minsk qrupunda təmsil edərək onun həmsədri olmuşdum. Bir sözlə, mənimlə müqayisədə çox az insana bu prosesi və Rusiyanın rolunu öyrənmək müyəssər ola bilərdi... hər dəfə belə bir fikir məni düşündürürdü: axı sən bunu bilirsən, bəs onda niyə susursan... " [9, 14]. Müəllif özünü "bitərəf vasitəçi" kimi qələmə versə də, bu münaqişənin nizamlanmasında etdiyi kimi, münaqişənin səbəblərinin şərh edilməsində də təhrif-yanıltmaclara, çox ciddi səhvlərə yol verir. Bu əsər tarixşünaslığımızda təhlil edilib, hətta ona ayrıca kitab da həsr edilib [3]. V.Kazimirovun əsəri məna və məzmununa görə Qarabağa sülh vəd etmir. Bu, Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həllinin əleyhinə yönəlmiş təxribatdır. Müəllif Qarabağa sülh deməsinə baxmayaraq, Ermənistan Respublikasının dövlət terroru və işğalına bəraət qazandırır. Qarabağa sülh deyərkən ermənilərin vəkili kimi çıxış edir. V.Kazimirovun sülh təklifi ermənilərin torpaq, digərlərinin isə imperiya iddialarından başqa bir şey deyildir. V.Kazimirov BMT və ATƏT-i ədalətli qərar

çıxarıb-çıxarmamasına, Ermənistanın qonşu dövlətin ərazisində dövlət separatizmi yaratmasına, ərazi işğalına göz yumduğu üçün deyil, əslində Rusiya Federasiyasının istəyinə əngəl olmasına görə ittiham edir. Beynəlxalq təşkilatları biz də qınayırıq, Kazimirov da. Ancaq fərq ondadır ki, biz bu təşkilatları Azərbaycan Respublikasının torpaqlarını işğal altında saxlayan, 1 milyon əhalisini qaçqına və köçkünə çevirən Ermənistan Respublikasına qarşı qəti tədbir görmədiyi üçün günahlandırırıq, V.Kazimirov isə həmin təşkilatları qalib gətirilmiş Dağlıq Qarabağ rejiminə Respublika statusu verməyə tələsmədiyinə görə ittiham edir. Bütövlükdə, V.Kazimirovun bu kitabı imperiya ambisiyalı siyasəti müdafiə edir. Bəla burasındadır ki, özünün şəxsi müşahidələri şəraitində baş verən bu proseslər zamanı Kazimirov dünya ictimaiyyətini aldadaraq, ermənilərin özünüxilas yolunda olduğunu şərh edən siyasi çıxışlar edirdi. Onun çıxışları ermənilərin işğalçılıq niyyətini gizlətməyə, müharibənin genişləndirilməsinə xidmət edirdi. Həmin təbliğat hələ də davam etdirilir. V.Kazimirovun kitabı da məhz həmin məqsədə xidmət edir.

XXI əsrdə Qarabağla bağlı tədqiqat aparan rus tarixçilər arasında Oleq Kuznetsovu fərqləndirirlər. Onun "Mərkəzi Qafqaz: sivilizasiyaların toqquşmasına retrospektiv baxış (məqalələr toplusu)" adlı əsərində [4] XVIII əsrin son qərinəsində – XX əsrin əvvəlində Rusiyanın Qafqazda siyasətinin və fəaliyyətinin təkamülü təhlil olunur, Gülüstan müqaviləsinə yeni geosiyasi yanaşma təklif edilir və S.Hantinqton nəzəriyyəsi əsasında Qarabağ münaqişəsinin kulturoloji mahiyyəti araşdırılır. Xüsusilə topludakı birinci və sonuncu məqalələrin təhlilinə diqqəti yönəltmək istərdik. Bu topludakı məqalələrdən birincisi "Rusiyanın Zaqafqaziyada geosiyasi maraqlarının və prioritetlərinin təkamülü" [4, 10-38] adlanır. Müəllifin yazdığına görə, ilk dəfə 2012-ci ildə "Qafqaz və qloballaşma" jurnalında dərc edilmiş məqaləsində XVIII əsrin son qərinəsində – XX əsrin əvvəllərində Rusiyanın Qafqaza ekspansiyasının bu gün bəzi Azərbaycan, erməni, gürcü və rus tarixçiləri tərəfindən tam adekvat qavranılmayan məntiqini izah etməyə cəhd göstərmişdir [4, 7]. Müəllifin yanaşmalarında bir çox səhvlər nəzərə çarpır. Belə ki, O.Kuznetsovun "Mərkəzi Qafqaz regionu heç vaxt Rusiyanın dini ekspansiya obyekti olmamışdır" fikri reallığı əks etdirmir. Bunun əksini təsdiq etmək üçün sadəcə çar Rusiyasının XIX əsrdə Cənubi Qafqazda erməniləri məskunlaşdırmasını qeyd etmək yetərlidir. Şavrov yazır ki, XIX əsrdə erməniləri yerləşdirmək üçün 200 min desyatindən çox dövlət torpaqları ayrılmış, habelə müsəlmanlardan 2 milyon manatdan yuxarı xüsusi torpaqlar da pulla alınaraq ermənilərə paylanmışdır. Gəlmə ermənilər də keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisi ilə yanaşı, həm də Yelizavetpol quberniyasında Qarabağ və Zəngəzurun dağlıq bölgəsində və Göyçə gölünün sahillərindəki səfalı yaylaqlarda yerləşdirilmişlər. N.Şavrov onu da qeyd edir ki, rəsmi köçürülmüş 124 min nəfər erməni ilə yanaşı 10 minlərlə erməni ailəsi də qeyri-rəsmi surətdə Cənubi Qafqaza axışmışlar. O, qeyd edirdi ki, "XX əsrin əvvəllərində Güney Qafqazda yaşayan 1 milyon 300 min ermənininin 1 milyondan çoxu yerli əhali olmayıb Rusiya hakimiyyət orqanları tərəfindən buraya köçürülənlərdi" [17, 60-61]. Görülən bu tədbirlərə dini ekspansiyadan başqa nə ad vermək olar? Bunu müəllif özü də sonradan etiraf edərək belə yazırdı: "Mərkəzi Qafqazın Rusiya tərəfindən müstəmləkələşdirilməsində dini-konfessional çalara malik bircə məsələ var idi. Söhbət "erməni məsələsi" deyilən məsələdən gedir, o məsələ ki, Rusiyanın Zaqafqaziyada həyata keçirdiyi bütün siyasətlə uyğunsuzluq təşkil edir, Rusiyanın bu regionda geosiyasətinin formalaşması məntiqini əsaslı surətdə pozurdu" [4, 28]. Yaxud da rus tədqiqatçı yazır ki, "Qafqazın və Rusiyanın Avropa hissəsinin yerli əhalisinin həyat tərzi bir-birindən az fərqlənirdi. Bütün bunlar tamamilə qəti surətdə belə söyləməyə imkan verir ki, Rusiya tərəfindən Qafqazın müstəmləkələşdirilməsi yolunda heç bir sosial-iqtisadi çətinlik yox idi" [4, 27]. Lakin bunu əksini hələ 1829-1830-cu illərdə mərkəzdən Zaqafqaziyada yoxlama aparmaq üçün göndərilən senatorlar qraf P.İ.Kutaysov və Y.İ. Meçnikov yazırdılar: "... Müsəlman əyalətlərində rəislərin (çar Rusiyasının təyin etdiyi hökumət nümayəndələrinin – red.) azğınlığından və əhalinin çəkdiyi əziyyətdən adam dəhşətə gəlir. Burada insan ləyaqəti tapdalanmış, hər cür ədalət unudulmuş, qanun yalnız əsarət aləti olmuşdur"[1, 214]. Müsəlmanlara qarşı yeridilən ayrı-seçkilik siyasətinin nəticəsi kimi bugünkü "Dağlıq Qarabağ problemi"ni qeyd etmək yetərlidir.O.Kuznetsov yazır: "XIX əsrin sonu-XX əsrin əvvəllərində ermənilərin özünüdərki ənənəvi bütpərəstlik və ya neobütpərəstlik əsasında formalaşıb, hansısa xristian mənəviyyatı və etikası əsasında deyil. Xüsusilə də bu sovet hakimiyyəti illərində baş verib... və erməni kilsəsi dünya ermənilərinin birləşməsində ideoloji mərkəz rolunu oynaya bilməzdi" [10, 96]. Müəllif bu fikrini əsaslandırmaq üçün başda Daşnaksütyun olmaqla ermənilər tərəfindən irəli çəkilən şüarlara, elektron-internet resurslarına diqqəti yönəldir. Müəllifin fikrincə, erməni etnosu-

nun siyasi identikliyi əsasında xristianlığa qədərki miflər və əfsanələr dayanır. O.Kuznetsov apardığı tədqiqatda belə qənaətə gəlir ki, ermənilərin beynəlxalq qüvvələrinin Qarabağda Azərbaycan xalqına qarşı münasibəti, Qarabağ münaqişəsi hər hansı bir vətəndaş müharibəsi, yaxud da öz müqəddəratını təyin etmə uğrunda mübarizə deyil, sadəcə ermənilərin "soyuq" müstəmləkə müharibəsidir [10, 99]. Digər tərəfdən də Qarabağın ermənilər tərəfindən zəbti işğalçı tərəfə heç bir xarici siyasi, hərbi strateji və iqtisadi fayda vermədi. Erməni və Azərbaycan identikliyinə ayrı-ayrılıqda da nəzər salan müəllif belə bir nəticəyə gəlir ki, "ermənilər üçün Qarabağa sahib olmaq "Böyük Ermənistan" əfsanəsini reallaşdırmaq yolunda reinkarnasiya deməkdir. Artsax olmasa Ermənistan olmaz, Ermənistan olmasa erməni diasporu olmayacaqdır. Bu baxımdan da Azərbaycan tərəfindən hansı səviyyədə təzyiq göstərilərsə-göstərilsin, ATƏT-in Minsk qrupunun beynəlxalq vasitəçiləri ilə nə iş görülürsə-görülsün, "status ante bellum", yəni müharibədən əvvəl dövlət vəziyyətində işğal edilən ərazinin qaytarılması prinsipcə mümkün deyil. Həm ermənilər, həm də azərbaycanlılar üçün bu ərazi, hərbi-siyasi problemin həlli yalnız "ya hər şey, ya da heç nə" formatında mümkündür" [10, 107-108]. Məqalədə müəllifin əsaslandırmağa çalışdığı fikirləri birmənalı olaraq qəbul etmək olmaz. Ən azından ona görə ki, müəllif Qarabağ probleminin yaradılmasında Rusiyanın, Qərbin rolunu sanki qəsdən unudur. Reallıqda isə təsdiqinə ehtiyac duyulmayan bir faktdır ki, ermənilər bu gün dövlət yaradıblarsa, bu onlara edilən xristian qardaşlarının dəstəyi və erməni kilsəsinin ideoloji fəaliyyətinin nəticəsindədir. Təbii ki Oleq Kuznetsovun da vurğuladığı kimi, bu gün ermənilər əksəriyyəti dünyaya səpələnmiş vəziyyətdə olan etnoslardan biridir və onların fəallığında erməni lobbisinin dəstəyi danılmazdır. Lakin bu dəstəklə yanaşı xrisitan təəssübkeşliyi də yaddan çıxarıla bilməz. Qeyd edək ki, O.Kuznetsovun "Transmilli erməni terrorizminin etno-konfessional kökləri (tarixi-mədəni təhlil)" adlı məqaləsində də eyni xətt izlənilmişdir. Lakin bu məqalədə bəzi maraqlı məqamlara da müəllif diqqət çəkmişdir. Belə ki, O.Kuznetsov 1988-1994-cü illərdə baş verən Qarabağ müharibəsinin dövlətlərarası müharibə olmadığını, Azərbaycanın silahlı qüvvələri və polis qüvvələrinə qarşı Qarabağda Ermənistan Respublikasının qoşunların deyil, yerli separatçıların, beynəlxalq terrorçuların, MDB-nin erməni millətçilərinin birləşmiş silahlı qüvvələrinin hərbi qulluqçularının döyüşdüyünü qeyd edir. Siyahını daha da genişləndirən müəllif ermənilərə dəstək olan qüvvələr sırasında Yaxın Şərq, Avropa və ABŞ-ın muzdlu hərbçilərini, həmin vaxt Zaqafqaziyada yaşayan keçmiş "soveti" ermənilərini, "Ay Data" erməni təşkilatının koalisiyon qüvvələrini də sadalayır [11, 65-66].

Sxemdə əks olunan amillərə görə əvvəldə qeyd edilən əmsalların dəyərlərinin məqbulluğu, onların dinamikasının və dəyişmə istiqamətlərinin qiymətləndirilməsi yalnız əlaqəli müəssisə qrupları üçün məkan-zaman müqayisəsi nəticəsində müəyyən edilə bilər. Amma istənilən halda müəssisənin sahibləri, səhmdarlar, investorlar və s. borc vəsaitlərinin payının dinamikasında ağlabatan artıma üstünlük verirlər, kreditorlar isə əksinə, kapitalında yüksək paya malik müəssisələrə üstünlük verirlər. Sənaye müəssisəsinin davamlı inkişafının şərtlərindən biri onun istehsal olunan məhsulların çeşidi üzrə kəmiyyət, qiymət, keyfiyyət baxımından bazarın tələbatını əks etdirən marketinq və bazar davamlılığıdır, bazarın yeni məhsullara olan tələbatını əks etdirir. Texnologiya nöqteyi-nəzərindən müəssisənin profilinə, eləcə də yeni bazarları fəth etmək imkanlarına uyğundur. Məlumdur ki, çeşidin yenilənməsi təkcə təkmilləşdirilmiş keyfiyyətə malik yeni məhsullar deyil, həm də keyfiyyət səviyyəsi onların rəqabətqabiliyyətli olmasına imkan verən modernləşdirilmiş məhsullardır. O da məlumdur ki, müəssisənin stabil işləməsi üçün bazara çıxarılan məhsulları hər il daim yenilənməlidir. Deməli, məhsulların mütərəqqilik səviyyəsinin, onların yenilənməsinin, təkcə daxili deyil, həm də xarici bazarlarda tələbatın təhlili və diaqnostikası müəssisədə məhsulun keyfiyyəti məsələlərinin onun iqtisadi potensialının artırılması nöqteyi-nəzərindən nə dərəcədə səmərəli həll olunduğunu müəyyən edəcəkdir. Yeni məhsullar üçün strategiyanın hazırlanması arzuolunmaz hadisənin qarşısını almaq üçün müəssisənin bu istiqamətdə fəaliyyətinin qiymətləndirilməsini tələb edir. Məhsul yeniləmələrini təhlil edərkən, məhsulun modifikasiyası ilə əlaqəli səbəblərə diqqət yetirilməlidir. Təhlil nəticəsində köhnəlmiş məhsulların modifikasiyasının bazarın, elmin və rəqabətin tələblərinin nəticəsi olub-olmadığını müəyyən etmək olar. İstehsalın kəskin azalması şəraitində yeni ideyaların tətbiqi və məhsulların bazara çıxarılması ilə bağlı böyük maliyyə çətinlikləri yaranır. Çətinlik yeni məhsul istehsal etmək üçün əsas və köməkçi istehsalın yeni istehsal güclərinin yaradılmasındadır.

Yeni biznesin qiymətləndirilməsi ən yaxşı keyfiyyət göstəricilərinə malik olan yeni məhsulun satışının nəticələrindən asılıdır. Beləliklə, biznesi genişləndirmək üçün məhsulları daim yeniləmək lazımdır. Məhsulun yenilənməsinin diaqnostikası prosesində aşağıdakı məsələlər həll edilir [5]:

- yeni məhsul növlərinin kəmiyyətinin və xüsusi çəkisinin müəyyən edilməsi;
- istehsalın ümumi həcmində modifikasiya olun-

muş məhsulların payının hesablanması;

- istehsalı dayandırılmış məhsulların kəmiyyətinin və xüsusi çəkisinin müəyyən edilməsi;
- qısa həyat dövrü olan məhsulların yenilənməsinin müəyyən edilməsi;
- yeni məhsulların çatdırılma tezliyi;
- məhsul və xidmətlərin rəqib tərəfindən təkrarlanma ehtimalı;
- yeni məhsul növləri üzrə xərclər və onların standart məhsullarla müqayisəsi;
- yeni məhsulların istehsalında reklam xərcləri;
- məhsulların rəqabət qabiliyyəti.

Bəzi müəssisələr yalnız yeni məhsul istehsal etməyə üstünlük verir və köhnəni yeniləmir ki, bu da rəqabətdə məğlubiyyətin etirafı kimi qiymətləndirilə bilər. Ancaq yeni məhsullar alıcının tələblərinə uyğun olmaya bilər. Yeni məhsulların istehsalı və ya köhnələrinin yenilənməsi ilə bağlı təhlil bir çox aspektlərin öyrənilməsini əhatə edir. Onlardan biri odur ki, istehsalçılar istehsal gücündən istifadənin artırılması baxımından böyük və kiçik həcmdə məhsul istehsalı üçün təkmilləşdirilmiş üsulları nəzərdən keçirməlidirlər. Məhsulun innovasiyası keyfiyyətin yaxşılaşdırılması ilə sıx bağlıdır. Məhsulun keyfiyyəti təyinatına uyğun olaraq ehtiyacları ödəyən xassələrin məcmusudur. Məhsulların keyfiyyəti göstəricilər sistemi ilə qiymətləndirilə bilər. Onun xassələrindən birini xarakterizə edən vahid keyfiyyət göstəriciləri var. Davamlı inkişafa gətirib çıxaran müəssisənin marketinq dayanıqlığını qiymətləndirmək üçün məhsulların yenilənməsini, onların mütərəqqiliyini və keyfiyyətini yoxlamaq lazımdır. Məhsulun keyfiyyət göstəricilərinin təhlili aşağıdakı vəzifələri həll etməyə imkan verir:

- məhsulların texniki səviyyəsinin müəyyən edilməsi;
- rəqibin baza səviyyəsi ilə müqayisədə texniki səviyyənin dəyişməsinə təsir edən səbəblərin müəyyən edilməsi;
- istehsal olunan məhsulların strukturunun parametrlər üzrə diaqnostikası;
- məhsulların texniki səviyyəsinin artımını məhdudlaşdıran amillərin müəyyən edilməsi;
- məhsulun keyfiyyətinin yüksəldilməsi, qüsur və itkilərin azaldılması imkanlarının əsaslandırılması;
- sertifikatlaşdırılmış məhsulların, ixrac məhsullarının ümumi satış həcmində payının, daxil olan şikayətlərin sayının və istehsalı dayandırılmış məhsulların, qüsurlu məhsulların xüsusi çəkisinin müəyyən edilməsi.

**Nəticə**

Davamlı inkişaf göstəriciləri müəssisənin səmərəliliyini əks etdirir və zəruri hallarda müəssisənin inkişafı prosesinə düzəlişlər etmək üçün əsas rol oynayır. Onlar müəssisənin fəaliyyətini təhlil etmək üçün kifayətdir, hər bir göstəricinin xarici və daxili mühit amilləri ilə əlaqəsini müəyyən etmək və hər hansı bir amilin müəssisənin davamlı inkişafına mənfi təsirini aradan qaldıran müvafiq həllər hazırlamaq üçün kifayətdir.

Sosial-ekoloji-iqtisadi sistemin inkişafının davamlılığının qiymətləndirilməsi üsulu sənaye müəssisəsinin iqtisadi sistemdə yerini müəyyən etməyə imkan verir. Alınan məlumatlar dövlət orqanlarına istehsalın strukturunu tənzimləmək, prioritet sahələri və onların əlavə investisiyalarını müəyyən etmək və fəaliyyəti stimullaşdırmaq üçün zəruridir. Bundan əlavə, o, hakimiyyət orqanları və digər maraqlı tərəflərin iştirakı ilə iqtisadi inkişaf prosesini ən yaxşı şəkildə idarə edəcək və bununla da davamlı inkişafı təmin edəcək, əhalinin rifahını və həyat keyfiyyətini yaxşılaşdıracaq belə bir sosial-iqtisadi siyasətin işlənib hazırlanmasına və həyata keçirilməsinə kömək edəcəkdir.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Əfəndiyev S.Q. Emal sənayesi sahələrinin dayanıqlı inkişafı və ona təsir edən amillər, Qərbi Kaspi Universiteti, Elmi xəbərlər -2021. № 3 - s. 4-10*

*2. Hümbətov Y.Ə. Sənayenin təşkili və idarə edilməsi. Dərs vəsaiti, Bakı – 2017, 401 səh.*

*3. Svetunkov S.G., Smolkin V. P. Approach to the assessment of the industrial enterprise sustainable development, Actual problems of Economics and Law 08 (2), January 2014, p. 89-94*

*4. Трубицков С.В., Бородуля Е.Б. Оценка устойчивого развития промышленного предприятия в современных условиях, Научные ведомости, 2011. № 1 (96), с. 73-80*

*5. Garina E.P., Andryashina N.S. Comprehensive Assessment of the Sustainable Development of an Industrial Enterprise. Current Problems of the Global Environmental Economy Under the Conditions of Climate Change and the Perspectives of Sustainable Development. Advances in Global Change Research, vol 73. Springer, Cham. 01 February 2023, https://doi.org/10.1007/978-3-031-19979-0_27*

*6. Xingwei Li, Jianguo Du, Hongyu Long, Understanding the Green Development Behavior and Performance of Industrial Enterprises (GDBP-IE): Scale Development and Validation, Int J Environ*

Res Public Health, 2020 Mar 5; 17(5):1716. doi: 10.3390/ijerph17051716.

**XÜLASƏ**

Məqalədə sənaye müəssisələrinin davamlı inkişafının təmin edilməsində bir çox kompleks məsələlərin həll yolunun tapılmasından bəhs edilir. Bu zaman həlli məqsəd kimi müəyyən olunan məsələlərin arasında davamlı inkişafı tam şəkildə xarakterizə edən göstəricilərin müəyyənləşdirilməsi böyük əhəmiyyət kəsb edir. Sənaye müəssisəsinin davamlı fəaliyyətinin obyektiv qiymətləndirilməsi ixtiyari göstəricilər toplusuna əsaslana bilməz. Onların seçimi kompleksdə olan bütün göstəricilərin ümumi sabitliyi müəyyən etməsi və onun fəaliyyətinin perspektivli yekun nəticələrinin faktiki vəziyyəti baxımından müəssisə üçün fərqli əhəmiyyət kəsb etməsi ilə bağlıdır. Məqalədə müəssisənin davamlı inkişafını qiymətləndirmək üçün kifayət edən və həm daxili, həm də xarici istifadəçilərin maraqlarını nəzərə alan göstəricilər sistemi nəzərdən keçirilir.

**Açar sözlər:** *sənaye müəssisəsi, davamlı inkişaf, maliyyə imkanları, istehsalın davamlılığı, innovasiya.*

**Эльшад Масим оглу Юсифов**
**Руслан Искендер оглу Гасымов**
**Фатима Мубариз кызы Рзаева**

**Показатели и факторы, характеризующие устойчивое экономическое развитие промышленных предприятий**

**РЕЗЮМЕ**

В статье говорится о поиске решения многих сложных вопросов обеспечения устойчивого развития промышленных предприятий. В настоящее время большое значение имеет поиск показателей, в полной мере характеризующих устойчивое развитие, среди вопросов, обозначенных в качестве цели. Объективная оценка непрерывной деятельности промышленного предприятия не может основываться на наборе произвольных показателей. Их выбор обусловлен тем, что все показатели в комплексе определяют общую устойчивость и перспективные конечные результаты его деятельности имеют разную значимость для предприятия с точки зрения реальной ситуации. В статье рассмотрена система показателей, достаточных для оценки устойчивого развития предприятия и учитывающих интересы как внутренних, так и внешних пользователей.

**Ключевые слова:** *промышленное предприятие, устойчивое развитие, финансовые возможности, устойчивость производства, инновации.*

**Elshad Masim Yusifov**
**Ruslan Isgandar Gasimov**
**Fatima Mubariz Rzayeva**

**Indicators and factors that characterize sustainable economic development of industrial enterprises**

**SUMMARY**

The article talks about finding a solution to many complex issues of ensuring sustainable development of industrial enterprises. At this time, it is of great importance to find indicators that fully characterize sustainable development among the issues identified as the goal. An objective assessment of the continuous activity of an industrial enterprise cannot be based on a set of arbitrary indicators. Their choice is due to the fact that all the indicators in the complex determine the general stability and the prospective final results of its activity have a different significance for the enterprise in terms of the actual situation. The article considers a system of indicators that are sufficient to assess the sustainable development of the enterprise and take into account the interests of both internal and external users.

**Key words:** *industrial enterprise, sustainable development, financial opportunities, sustainability of production, innovation.*

UOT: 339.9

# GEOİQTİSADİ ƏLAQƏLƏRDƏ AZƏRBAYCANIN LOGİSTİKA SİYASƏTİNDƏ SƏMƏRƏLİLİYİN TƏŞKİLİ

**DAĞBƏYİ ALLAHVERDİYEV**

*AR ETN-nın İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, i.e.d, dosent*

*E-mail: dagbeycahani@gmail.com*

## GİRİŞ

Azərbaycanın xarici iqtisadi fəaliyyəti tarixən ölkədə cərəyan edən sosial-iqtisadi və siyasi proseslər kontekstində tərəqqi modeli Heydər Əliyev siyasi-iqtisadi modeli kimi səciyyələnir. Belə ki, keçmiş SSRİ dövründə və müstəqillik illərində mövcud olan nailiyyətlər Ulu Öndərin təşəbbüsü ilə reallaşdırılan beynəlxalq müqavilələrin, sosial-iqtisadi və siyasi mühitdə həyata keçirilən daxili, xarici fəaliyyətin nəticəsi kimi xarakterizə olunur. Belə ki, "Əsrin müqaviləsi" ilə dünya ölkələrinin siyasi-iqtisadi maraqlarını cəlb edən və ölkənin iqtisadi böhrandan xilası üçün Heydər Əliyev siyasi qətiyyəti iqtisadi tarazlığı şərtləndirmişdir. Bu istiqamətdə 1994-cü il Xəzər dənizinin Azərbaycana aid sahəsində yerləşən "Günəşli", "Çıraq" və s. sahələrin birlikdə istismarı dünya dövlətlərini təmsil edən 12 neft şirkəti ilə beynəlxalq müqaviləni reallaşdırmışdır. Beləliklə, Azərbaycanın xarici iqtisadi fəaliyyətinin əsas əhəmiyyəti bu istiqamətdə siyasi-iqtisadi tarazlığı və makroiqtisadi sabitliyi "Neft strategiyası"nın reallaşdırılması ilə təmin edilmişdir.

Bu müqavilə Azərbaycanın Milli Məclisi tərəfindən 1994-cü il dekabrın 12-dən təsdiqlənərək ölkənin xarici iqtisadi fəaliyyətinə, logistika siyasətinə və ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə təkan vermişdir. Beləliklə, ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsində əhəmiyyətli rol oynayan "Əsrin müqaviləsi" ilə neft strategiyası 1997-ci il noyabrın 12-dən siyasi-iqtisadi tarazlığın tənzimlənməsini səciyyələndirmişdir. Bu layihə əsasında Azərbaycana ilkin mərhələdə 12-15 milyard ABŞ dolları həcmində investisiya yönəldilməsi nəzərə alınmışdır ki, bu sahənin iqtisadi səmərəliliyi müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz üçün əhəmiyyətli hesab edilir. Beləliklə, "Əsrin müqaviləsi" ilə hasil edilən neftin dünya bazarlarına ixracı üçün ildə 5 milyon ton olan Bakı-Novorossiysk və Bakı-Supsa neft boru kəmərlərindən istifadə edilmişdir. Bununla da, yaxın illərdə kontrakta daxil edilən hasilatında 50 milyon tona çatdırılmasını nəzərə alan Heydər Əliyevin daha əhatəli nəqletmə imkanına malik ixrac marşrutlarını və əsas ixrac boru kəmərini, Bakı-Tbilisi-Ceyhanın istifadəsini zəruri hesab etmişdir. Bu səbəbdən də, "Üç dənizin əfsanəsi" adlanan Bakı-Tbilisi-Ceyhan layihəsi iqtisadi mənzərəsində yaradılmış səmərəliliyi reallığa çevirməklə əhalinin maddi rifahının yaxşılaşdırılması və Azərbaycanın siyasi-iqtisadi təqəqqisinə, iqtisadi təhlükəsizliyinin təmin edilməsinə əsaslı təkan vermişdir.

Beləliklə, Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, eyni zamanda, ümumilikdə beynəlxalq enerji təhlükəsizliyi kontekstində, eləcə də neft ixracı sahəsində ölkəmizlə iqtisadi tərəfdaş ölkələr, əsasən dünyanın bir sıra ölkələri ilə yanaşı Mərkəzi Asiya dövlətləri üçün mühüm siyasi-iqtisadi əhəmiyyəti ilə səciyyələnir. Bununla yanaşı beynəlxalq neft kontraktları ölkənin iqtisadi təhlükəsizliyinin təminatında müstəsna əhəmiyyəti ilə xarakterizə edilir.

Belə ki, dünyanın geosiyasi mənzərəsində iqtisadi təhlükəsizlik və beynəlxalq iqtisadi fəaliyyətin səmərəliliyi XXI əsrin siyasi-iqtisadi reallıqlarını aktuallaşdırmışdır. Beynəlxalq iqtisadi fəaliyyətdə hələ beynəlxalq təşkilat kimi BMT yaradılarkən ABŞ, İngiltərə, Fransa, Rusiya qurucu dövlətlər olaraq daimi üzvü kimi siyasi-iqtisadi təsirlərini qorumağa çalışmışdır. Bu siyasi-iqtisadi şərait beynəlxalq arenada Fransa və İngiltərəyə nisbətdə ABŞ-ın dünya geosiyasətində rolunu və nüfuzunu artmışdır [2].

Belə geosiyasi şərait I Dünya müharibəsində olduğu kimi, II Dünya Müharibəsindən sonra da Almaniya dövlətinin ödəməli olduğu maliyyə təzminatı nüfuzlu dövlətlər tərəfindən müzakirə olunmuşdur. Bunun nəticəsində Krım konfransında qəbul edilmiş qərar əsasında Almaniya dövləti 20 mlrd. dollar təzminat ödəməli və həmin təzminatın 10 mlrd. dolları Sovet İttifaqına çatdırılması mühüm geosiyasi-iqtisadi hadisələr kimi səciyyələnmişdir. Beləliklə, Almaniya dövlətinin təzminat ödəməsi Potsdam konfransında təsdiq olunmuşdur. Bu reallıqlar dünyanın geoiqtisadi tarazlığının nisbətən formalaşması üçün əlverişli siyasi-iqtisadi mühitün yaradılmasına imkan vermişdir ki, bu da həmin dövrün geosiyasi zərurətindən yaranmışdır.

Müasir şəraitdə dünyanın siyasi-iqtisadi güc mərkəzləri kimi çıxış edən ABŞ, Rusiya, Türkiyə, İran, Hindistan dövlətlərinin yeni geosiyasi qütbləşməsi müşahidə edilməkdədir. Belə şəraitdə Azərbaycan bu ölkələri birləşdirən nəqliyyat dəhlizinin üzərində yerləşməklə yeni geostrateji əməkdaşlıq layihələrinin iştirakçısına çevrilmişdir.

## DÜNYA İQTİSADİYYATININ SİYASİ MAHİYYƏTİ

Dünya iqtisadi münasibətlərində geosiyasi ziddiyyətlərin mahiyyətinin dərk edilməsinin əsası ölkənin siyasi-iqtisadi mənafeləri mühüm faktorlar kimi səciyyələnir. Belə ki, ölkənin dünya iqtisadiyyatında digər dövlətlərlə siyasi-iqtisadi əlaqələrinin əsas istiqamətləri kimi logistik fəaliyyət təşkil edir. Bu, siyasi-iqtisadi mənafelər və ticarət əlaqələri qədim zamanlardan mövcud olmuşdur. Dünyanın iqtisadi mənzərəsinin reallıqları qədim zamanlardan karvan yolları, Şərq və Qərb ilə yanaşı, bir çox ölkələrin iqtisadi ticarət əlaqələrini formalaşdırmışdır. Belə şəraitdə respublikamızın bu karvan yolları vasitəsi ilə dünya ölkələrində ticarət əlaqələrinin formalaşması geosiyasi strateji mənafelərinə əlverişli mühit formalaşdırmışdır. Beləliklə, geosiyasi və iqtisadi strateji şərait logistik fəaliyyətdə Azərbaycanın iqtisadi təhlükəsizlik kontekstində maraqlarına və dünya dövlətləri ilə münasibətdə siyasi-iqtisadi mənafelərinə uyğun əlverişli imkan yaratmışdır. Bu səbəbdən də, Heydər Əliyev qeyd edirdi ki, geoiqtisadi sahədə yeni məzmun ifadə edən logistika siyasəti və bəzi dövlətlərin mövcud iqtisadi mənzərəsi geosiyasi maraqlar naminə və beynəlxalq iqtisadi fəaliyyətlə xarakterikdir [3]. Bu fikirlər mövcud siyasi-iqtisadi şəraitdə Azərbaycanın geoiqtisadi konsepsiyası, iqtisadi mənafeləri və logistika siyasi fəaliyyətində əhəmiyyətli hesab edilir.

Beləliklə, tranzit və logistika infrastrukturu yerli və beynəlxalq maşrutun tənzimlənməsi və ölkənin nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyasını səciyyələndirir. Belə ki, dəmir yolu, hava nəqliyyatı və su nəqliyyatı sahəsində vahid strateji yanaşmanı əks etdirən Azərbaycanın iqtisadi səmərəliliyin artırılması məqsədi ilə ölkə ərazisində Qafqaz və Asiya ölkələrinin idxal, ixrac əməliyyatlarının tənzimlənməsi təşkil edir.

Beləliklə, geosiyasətin əsas qanunu planetin coğrafi quruluşunda və sivilizasiyaların tarixi tipologiyasında əks olunan logistika siyasətini aktuallaşdırmışdır. Beləliklə, logistika ticarət sivilizasiyası və digər fəaliyyət sosial innovasiya subyektləri üçün məlumdur. Bu sahədə məkan xüsusiyyətləri geosiyasətdə sosial qrupların reallığı üçün planlaşdırılan iqtisadi mənbə “pul qabı” kimi səciyyələnmişdir. Logistika geosiyasəti həm də innovativ iqtisadi səmərəliliyi əks etdirən elm kimi səciyyələnir [3]. Bununla əlaqədar olaraq, ölkə üçün logistikanın iqtisadi səmərəliliyi aşağıdakı cədvəl 1-də öz əksini tapmışdır.

**NƏQLİYYAT SAHƏSİNDƏ MAKROİQTİSADİ MEYARLAR**

| | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Əlavə mənfət (cari qiymətlərlə), milyon manat | 2.369 | 2.615 | 3.242 | 4.076 | 4.719 | 4.928 | 4.867 | 5.175 | 6 397 |
| Ümumi mənfəət (cari qiymətlərlə), milyon manat | 1.961 | 2.156 | 2.523 | 3.281 | 3.860 | 3.959 | 3.789 | 3.814 | 4 955 |
| Xalis mənfəət (cari qiymətlərlə), milyon manat | 1.576 | 1.724 | 1.860 | 2.162 | 2.935 | 3.137 | 3.055 | 2.534 | 3 444 |
| Muzdlu işçilərin orta illik sayı, min nəfər | 112,2 | 117,3 | 127,3 | 123,8 | 126,1 | 126,8 | 130,8 | 141 | 144,7 |
| Orta aylıq nominal əməkhaqqı, manat | 395 | 512 | 576 | 649 | 734 | 807 | 856 | 886 | 954 |
| Əsas fondlar (ilin sonuna), milyon manat | 5.701 | 8.156 | 10.301 | 11.582 | 12.404 | 15.175 | 15.616 | 15.705 | 16 159 |
| Əsas kapitala investisiyalar, milyon manat | 2.435 | 2.610 | 2.195 | 1.391 | 1.774 | 1.923 | 2.189 | 2.092 | 2.857 |

**Mənbə:** *DSK-nin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Beləliklə, logistika siyasətinin hərtərəfli elmi təhlilini, iqtisadi səmərəliliyini müəyyənləşdirən Davud dünya ölkələrinin bu sahədə logistik məsrəflərinin təsnifatını və əhəmiyyətini təsnifləşdirmişdir [5].

- Logistika siyasəti,
- İdarəetmə məsrəfləri,
- Nəqliyyat investisiyası,
- Logistik siyasətinin əhəmiyyəti və mahiyyəti.

Logistika risklərinin təzahürü və ya logistika xidmətlərinin keyfiyyətinin mümkün məsrəflərinin müəyyənləşdirilməsidir. Beləliklə, təsərrüfat praktikasında logistika sisteminin səmərəliliyini qiymətləndirmək üçün logistika məsrəflərinin ümumi istifadəsinin müqayisəli təhlili zəruri hesab olunur. Həmçinin logistika fəaliyyətinin qiymətləndirilməsi üsulları və hesablanması real iqtisadi mənzərəni əks etdirir. Belə iqtisadi sistemin logistik siyasəti ümumi fəaliyyətin müəyyən vahidi üçün həyata keçirilən innovasiya xidmətlərinin meyarları ilə xarakterizə olunur [3]. Burada iqtisadi meyar və logistik siyasət nəticəsində məhsul mənfəəti səciyyəvi hesab edilir.

Belə ki, müəssisə fəaliyyətinin təhlilində müəyyən edilən meyarlar əsasən mənfəət və rentabellik göstəriciləri, ümumi nəticə üçün hər hansı bir komponent, lakin təşkilatın səmərəliliyini müəyyən etmək üçün tətbiq olunan innovativ iqtisadi əməliyyatin metod mahiyyətini dərk etməklə səciyyələndirilir. Burada texniki, maliyyə maraqları və digər innovativ xüsusiyyətlər, onların xüsusi seçimində ki, iqtisadi mənzərə xarakterizə edilir. Beləliklə, iqtisadi müəssisələrin plan və niyyətinin səbəb, nəticə ölçülərində əsas istehlakçı maraqlar, investisiyaların səmərəliliyi, xidmət meyarları kimi təsnifləşir.

Belə ki, müəssisədə iqtisadi səmərəliliyin qiymətləndirilməsi metodunun məqsədi onun texniki təchizatından istifadə etməklə iqtisadi göstəricilərə diqqət yetirməklə tam təhlil edilməsidir. Bu təhlilin dəqiq müəyyən edilməsi üçün istifadə olunan çoxsaylı baxışlar, müxtəlif riyazi və iqtisadi-riyazi modellər logistik siyasətin iqtisadi səmərəliliyi müəyyənləşdirməsi səciyyəvidir. Burada iqtisadi model və müqayisəli planlaşdırma iqtisadi səmərəliliyin mahiyyətinin innovativ fəaliyyətinin təhlilində ən çox istifadə olunan metodlar geosiyasi tarazlıqlarla tənzimlənməni şərtləndirir.

Beləliklə, funksional məsrəflərin təhlili, peşəkar müşahidə, siyasi-iqtisadi metodlar və iqtisadi modellərlə qeyri-peşəkar fəaliyyəti müəyyənləşdirir. Bu meyarlar vasitəsi ilə qiymətləndirilməsi üsulu iqtisadi mənfəətin formalaşdırılmasında xarici və regional tarazlığı, istehsal-təsərrüfat fəaliyyətinin ümumi iqtisadi təhlilində xarakterikdir. Logistika sistemlərinin səmərəliliyinin tam və hərtərəfli qiymətləndirilməsi optimal metodla hesablamalar elmi xarakterli, dinamizm, sistemli yanaşma, prioritet sahələrin bölüşdürülməsi, mənfəətin təşkili kimi prinsipləri, informasiya bazasının mürəkkəbliyi, tamlığı və etibarlılığı ilə səciyyələnir.

Belə ki, xarici iqtisadi fəaliyyətin səmərəliliyində logistika əlaqələri İran, Gürcüstan, Rumınıya, Almaniya, İsrayil, Rusiya və Türkiyə dövlətləri ilə idxal və ixracda tənzimlənməni əhatə edir. Bu meyarlar əsasında 15 mühüm regional logistika və ticarət qovşağı ilə ticarət əlaqələrinin formalaşdırmaq məqsədi, innovativ iqtisadi əməliyyatlar ölkənin siyasi-iqtisadi mənafelərini tənzimləməsini təmin edir.

**Nəqliyyat sahəsinə yönəldilən investisiyalar mil. manat**
**11. Nəqliyyat sektoruna yönəldilmiş investisiyalar, milyon manat**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2019 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| **Cəmi** | **2.509,4** | **2.195,3** | **1.391,0** | **1.774,3** | **1.922,8** | **2.189,2** | **2.091,6** | **2 857,9** |
| Yerüstü və kəmər nəqliyyatının fəaliyyəti | 484,6 | 553,1 | 345,8 | 127,1 | 305,2 | 377,5 | 389,8 | 166,8 |
| Su nəqliyyatı | 83,5 | 112,7 | 53,1 | 112,2 | 115,4 | 98,4 | 53,3 | 45,7 |
| Hava nəqliyyatı | 180,4 | 397,2 | 10,2 | 402,2 | 39,4 | 33,7 | 109,5 | 147,5 |
| Anbar təsərrüfatı və yardımçı nəqliyyat fəaliyyəti | 1.760,9 | 1.132,3 | 981,9 | 1.132,8 | 1.462,8 | 1.679,6 | 1.538,8 | 2 500,0 |

**Mənbə:** *Müxtəlif məlumatlar əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Belə bir mərhələdə iqtisadi və logistik əməliyyatların səmərəliliyini təmin etmək üçün ən mütərəqqi rəqəmsal iqtisadi əməliyyat modelləri tətbiq edilir və keçid prosesi üçün özəl sahənin iştirakı stimullaşdırılır, lakin birbaşa xarici investisiyalar müəyyən müddətdə bu istiqamətə həvəsləndirilir. Beləliklə, ölkədə logistika fəaliyyətində iqtisadi artımın əhatə dairəsi baxımından yerli innovativ infrastruktur və xidmətlər mühüm əhəmiyyəti ilə səciyyələnir.

Bu səbəbdən A.Marşall qeyd edirdi ki, sabit və balanslaşdırılmış qiymət elə tənzimlənməlidir ki, tələb və təklif uyğunluğu müəyyən edilsin. Beləliklə, iqtisadi səmərəlilik qısa və ya uzun məsafəli "kaşloq" logistika əməliyyatlarında müşahidə edilən təcrübə kimi xarakterizə edilmişdir [5]. Belə ki, iqtisadi səmərəliliyi və maddi-texniki təchizatı, möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, iqtisadi idarəetmə və tənzimləmə meyarı, ölkəmizin ərzaq təminatının mühüm hissəsinin istehsalını səciyyələndirir və ölkənin kənd təsərrüfatının ərzaq təhlükəsizliyini təmin etməlidir.

Bu kontekstdə iqtisadi idarəetmədə makroiqtisadi sabitlik və sosial-iqtisadi rifah təminatı dövlətin əsas məqsədi hesab olunur. Burada siyasi-iqtisadi meyarlar dövlətin əsaslarını təşkil edən institutlarının inkişafı prioritet təşkil edir. Belə ki, geosiyasi təhlükə yaradan meyar siyasi-iqtisadi sistemi təşkil edirsə, normal sosial-iqtisadi, sosial münasibətlərdə və fəaliyyətdə təhlükə mənbəyi hesab olunur. Geosiyasi və sosial münasibətlərdə diqqət yalnız sosial-iqtisadi sistemə xas olan münasibətlərə deyil, bütövlükdə ümumi dövlətin marağı kimi səciyyələnir [6]. Buradan belə nəticə formalaşır ki, sosial-iqtisadi və siyasi sistemin məqsədi davamlı iqtisadi tərəqqinin və innovativ təhlükəsizliyin əsasını təmin etməklə xarakterikdir. Bu mənada iqtisadi təhlükəsizlik və ictimai təhlükəsizlik anlayışını eyniləşdirmək olmaz. Belə şəraitdə Heydər Əliyev qeyd edirdi ki, davamlı sosial-iqtisadi tərəqqinin təminatı və makroiqtisadi sabitliyin əsas təminatçısı siyasi-iqtisadi təhlükəsizlikdir.

Bu səbəbdən də qida sənayesində zəruri prinsiplər kimi geosiyasi və iqtisadi təhlükəsizlik, innovasiya və logistik fəaliyyətin əsas meyarı olan iqtisadi təhlükəsizliyin real mahiyyətinin dərk edilməsində hüquqi-siyasi məzmunun nəzəri konsepsiyasına düzəlişlər edilməsini zəruri edir. Belə ki, iqtisadi təhlükəsizlik və işsizlik geosiyasi, makroiqtisadi sabitlik, sosial-iqtisadi təhdid hesab olunur və belə şəraitin rasional təhlili yeni iş yerlərinin təmin edilməsini şərtləndirir. Bu dövlətin makroiqtisadi sabitliyinin tənzimlənməsi, iqtisadiyyatın səmərəli idarə olunmasında, elmi müəssisələrin gücləndirilməsi və sosial-iqtisadi sahələrin daha da liberallaşması geoiqtisadi tərəqqinin zərurəti kimi şərtlənir.

Beləliklə, innovativ sosial-iqtisadi rifahın təmin edilməsi geosiyasi-geoiqtisadi şəraitdə makroiqtisadi sabitliyin və mülki müdafiənin şərtlərindən biridir. Bu meyarların reallaşdırılması davamlı makroiqtisadi sabitliyə və mülki müdafiədə iqtisadi tərəqqiyə xidmət edən səmərəli geoiqtisadi siyasət formalaşdırır. Belə ki, makroiqtisadi sabitlikdə məşğulluq siyasəti ölkənin davamlı iqtisadi tərəqqisinin təmin edilməsində mühüm əhəmiyyətə malikdir. Burada sosial həmrəylik və iqtisadi əməkdaşlığın əsasını şərtləndirən məşğulluq təminatı kimi səciyyələnir. Sosial-iqtisadi meyara əsasən hər bir dövlət qəbul edilmiş normalara uyğun olaraq vətəndaşların əsas ərzaq istehlakı ilə təmin etməsi iqtisadi təhlükəsizliyin zəruri meyarı kimi şərtlənir. Bu prinsiplərə əsasən öhdəlik kimi Ümumdünya Ərzaq Təhlükəsizliyinin əsas istiqamətləri Roma Bəyannaməsində öz əksini tapmışdır. Belə ki, ərzaq təhlükəsizliyinin siyasi-iqtisadi meyarı vətəndaşların ərzaqla təminatının yerli istehsala və ölkənin ərzaq təhlükəsizliyinin tənzimlənməsində əsas şərtlərdən hesab edilir [1]. Geoiqtisadi fəaliyyətdə qida təhlükəsizliyi artıq dünya təcrübəsində qəbul edilmiş və hazırda geniş istifadə olunan iqtisadi meyar kimi xarakterizə olunur. Beləliklə, logistika siyasətinin əsası informasiya axınlarının idarə olunması ilə iqtisadi mənfəətə nail olmaqla sosial təminatın səmərəliliyi kimi səciyyələnir.

Belə ki, iqtisadi səmərəliliyin zəruri istiqaməti hesab edilən logistika siyasətinin mahiyyəti və makroiqtisadi sabitliyin balanslaşdırılmasında müstəsna əhəmiyyəti ilə səciyyələnir. Beləliklə, makroiqtisadi səmərəliliyin təşkilində logistik siyasətdə mənfəətin proqnozlaşması və planlaşdırılmasında dəqiq təsvir formalaşması zəruridir. Bu fikirlərdən məlum olur ki, logistika sistemləri üçün iqtisadi səmərəliliyin əsas meyarlarının hesablanması metodologiyası adekvatlıq təşkil edir.

Burada mövcud iqtisadi fəaliyyət meyarları və logistika siyasətinin təhlili, makroiqtisadi səmərəliliyi müəyyənləşdirmək və bu istiqamətdə mənfəət effektliyinin qiymətləndirilməsi səciyyəvidir. Belə ki, logistik fəaliyyəti, iqtisadi səmərəliliyi haqqında ən etibarlı məlumatları əldə etmək üçün onu mövcud qiymətləndirmə metodlarından yararlanmaqla qiymətləndirmək lazımdır.

Belə ki, hər bir təsərrüfat sisteminin təkamülü zəruridir və bütün iqtisadi struktur mənfəətin təşkili üçün fəaliyyətdədir. Belə şəraitdə iqtisadi tərəqqinin əsas meyarı, hərəkətverici qüvvəsi onun sosial-psixoloji məqamları ilə yanaşı müəyyən edilən təsərrüfat ruhudur.

Siyasi-iqtisadi fəaliyyətin kapitalist ruhu əsasən təsərrüfat fəallığının əsas meyarı kimi işgüzarlıq ruhu ilə burjua ruhundan ibarətdir. İşgüzarlıq ruhu əsasən mənfəətə, iqtisadiyyatda səmərəliliyin yaradılmasında, maksimum iqtisadi effektliyi xarakterizə edir. Beləliklə, burjua və ya bürger ruhuna əməksevərlik, sadəlik, inam, təsərrüfat bacarıqları kimi sosial, siyasi-hüquqi, münasibətlərin məcmusu hesab edilir və mahiyyəti isə maddi-texniki istehsal bazası, texnika və texnologiyanı səciyyələndirir[3].

## BEYNƏLXALQ TƏCRÜBƏDƏ İQTİSADİ FƏALİYYƏTİN TƏNZİMLƏNMƏSİ

Beynəlxalq Valyuta Fondunun proqnozuna əsasən dünya ölkələrində cari il 1,2% artım qeydə alınmışdır. Bu meyarlar Almaniya və Böyük Britaniya iqtisadiyyatında səmərəliliyin təşkilində balansın tənzimlənməsi ilə səciyyələnir.

Belə ki, cari ildə inkişaf etməkdə olan ölkələr sırasında iqtisadi meyarların nəticəsinə görə Rusiya valyutası davamlı sabitləşməsi istiqamətində dövlətin balanslı makroiqtisadi siyasətin həyata keçirilməsinə nail olmuşdur. Rusiya Bankı avqustda keçirdiyi fövqəladə iclasında əsas uçot dərəcəsini 8,6%-dən 12%-ə yüksəltməsi prioritet istiqamət kimi qəbul edilmişdir. Bu siyasi-iqtisadi tədbirlər rublun balanslaşdırılmasını və inflyasiyanın ram edilməsi istiqamətində zərurət kimi səciyyələnmişdir. Belə ki, rublun məzənnəsinin dəyişməsinin əsas səbəbləri iqtisadi tələbdə ki, siyasi-iqtisadi proseslərlə əlaqədar olduğu xarakterizə edilmişdir. Beləliklə, dünyanın bəzi ölkələrinin Rusiyaya məxsus neft və neft məhsullarının idxalına embarqosu, tətbiq etdiyi qiymət həddi, həmin əmtəələrin müxtəlif istiqamətlərə yönləndirilməsi nəticəsində ixracında qeyri proporsionallığa səbəb olmuşdur.

Belə ki, Rusiya valyutasının tələbində disbalanslıq mövcuddur, bu şəraitdə ixracatçılarla idxalçılar əsasən dollar və xarici valyutaya üstünlük verirlər. Bu, əvvəlki illərlə müqayisədə rublun mövcud vəziyyətindəki şərait nəticəsində xarici fondlar və qlobal investisiya bankları belə əlverişli mühitdən maksimum istifadə edərək mənfəət əldə etməyə səy göstərmişlər.

Beləliklə, rublun əsas rəqibi büdcə vəsaitlərini xərcləyən Rusiya dövləti və bir ildən az müddətdə dəyərinin iki dəfə azalması, müharibə və sanksiyaların yaratdığı yeni siyasi-iqtisadi şəraitin nəticəsi kimi səciyyələnir. Belə ki, Rusiya iqtisadiyyatının struktur transformasiyası əsasən Keynsçilik nəzəriyəsindən formalaşan hərbi xərclərin hesabına iqtisadi artımın tənzimlənməsi ilə xarakterikdir. Bu iqtisadiyyatın struktur transformasiyası kimi effektiv müdafiə xərclərinin böyük artımını şərtləndirir. Sovet dövründə olduğu kimi hərbi sənaye kompleksi və istehsalat sahələri üstünlük təşkil edir. Bunlar Stokholm Beynəlxalq Sülh Araşdırmalar İnstitutunun (SIPRI) hesablamalarına görə, Rusiyanın müdafiə xərcləri 2022-ci ildə 9,2% artaraq 86,9 milyard dollar olmuşdur. Bu ilin birinci yarısında hərbi xərclər büdcədəki başqa məsrəfləri xeyli üstələyərək 72,2 milyard dollar təşkil etmişdir. Bununla yanaşı sosial xərclərlə birlikdə bu il 75 milyard dollardan çox büdcə vəsaiti nəzərə alınmışdır ki, bu dövlət məsrəflərinin əvvəlki illərdən iki dəfə çox, yəni üçdə birini təşkil edir [3]. Beləliklə, Rusiya idxalının müharibədən əvvəlki vəziyyətinə qaytarması sabit valyuta məzənnəsini səciyyələndirir. Belə ki, Rusiya banklarında sabit valyutada olan əmanətlər milyardlarla dollar fərqi ilə 181,9 milyard dollara bərabər olmuş və 2022-ci ilin əvvəlindən 2023-cü ilin may ayına qədər Rusiyanın (əsasən Ermənistan, Gürcüstan və Qazaxıstanda) xaricə yönəldilən əmanətlərinin həcmi 43,8 milyard dollar artım təşkil etmişdir.

Bu səbəbdən dollara marağın artması daha çox korporativ faktorlarla əlaqəli olsa da, mövsümi artımlar da valyuta mübadiləsində tarazlığın qorunması ilə səciyyələnmişdir. Bəzi hallarda dünyanın siyasi-iqtisadi mənzərəsində valyuta tənzimlənməsi istiqamətində intervensiya cəhdləri müşahidə edilir ki, bunlar da dollara istək artımı kontekstində manatın məzənnə dəyişməsi əsasən enerji gəlirlərlərinin artımı ilə səciyyələnir. Dünya iqtisadiyyatında mövcud olan tendensiyalar və siyasi-iqtisadi şərait Azərbaycanın tədiyyə balansında müsbət saltosu iqtisadi artımla xarakterikdir. Belə şəraitdə, regional və eləcə də qlobal valyuta sahəsində mövcud olan dəyişikliklər siyasi-iqtisadi və psixoloji təsirlərin qorunması kimi şərtlənir.

Mövcud şəraitdə iqtisadi meyarlara əsasən Azərbaycan dünya ölkələri ilə müqayisədə aparıcı mövqe-

yi ilə səciyyələnir. Belə ki, inkişaf etmiş ölkələrin xarici borcları həmin dövlətlərin ümumi daxili məhsulundakı gəlirindən çoxluq təşkil edir. Bu meyarlar isə Azərbaycan iqtisadiyyatında müqayisə edilən xarici borcun ümumi daxili məhsulun 20 % bərabər olduğu müəyyən edilmişdir. Beləliklə, Azərbaycanın mövcud siyasi-iqtisadi şəraitidə valyuta ehtiyatları xarici borcdan dəfələrlə yüksəkdir. Belə ki, Azərbaycan Mərkəzi Bankının (AMB) faiz dərəcə meyarının sabit qalması barədə ölkənin uçot dərəcəsini 5,83 %, orta həddi 5,05 %, yuxarı həddi isə 5,19 % səviyyəsini tarazlığının təmin edilməsi üçün qərar qəbul mövcud siyasi-iqtisadi şəraitlə xarakterikdir [4].

Belə ki, inflyasiyanın risk balansının artırıcı faktoru iqtisadi təhlükəsizlik meyarı kimi səciyyələnir. Burada qeyri-monetar xarakterli xarici və daxili məsrəflər, eləcə də iqtisadi tələbin fəallaşması kontekstində inflyasiya riskini formalaşdırır. Burada makroiqtisadi sabitlik və inflyasiyada qeyri-müəyyənliyi tənzimləməklə tədiyyə balansının tarazlığını mövcud siyasi-iqtisadi mənzərə şərtləndirir. Bu kontekstində makroiqtisadi sabitliyin əsas meyarı məzənnə sabitliyini dəstəkləyir və inflyasiyanı tarazlaşdırır. Beləliklə, risklər balansı və digər mərhələdə proqnozlaşan inflyasiyaya təsirinin tarazlığı planlaşan, qəbul edilən siyasi-iqtisadi qərarların zəruriliyini şərtləndirir. Bu səbəbdən də inflyasiyanın risk balansı iqtisadi artıma uyğun olaraq məcmu tələbinin bərpa prosesi qısa müddətli perspektivdə əhəmiyyətlidir. Belə ki, tədiyyə balansının tarazlığı valyuta sabitliyini möhkəmləndirməklə xarici və daxili meyar əsasında dünya ərzaq təhlükəsizliyinin, inflyasiyanın tənzimlənməsini zəruri edir.

## SƏMƏRƏLİLİYİN QİYMƏT MEYARI

Mövcud şəraitdə qeyd edilən metodla təqdim edilən göstəricilərdən istifadə iqtisadi səmərəliliyin artırılmasında qiymət meyarının mühüm əhəmiyyəti səciyyəvidir. Belə ki, iqtisadi səmərəlilikdə fərdi logistika elementlərinin fəaliyyəti əsasən yerli suboptimallaşdırılması imkanı ilə əlaqəli qiymətləndirməni zəruri edir. Bunlar, əsasən iqtisadi səmərəliliyin tənzimlənməsi və davamlı mənfəətin tarazlaşmasına balanslı yanaşmaların tapılmasını real sosial-iqtisadi şərait şərtləndirir. Beləliklə, iqtisadi sistemin optimallaşdırılması ümumi iqtisadi tərəqqini şərtləndirən meyarlar kimi əhəmiyyətlidir və keyfiyyətli iqtisadi irəliləyiş isə inflyasiyanın tənzimlənməsi ilə xarakterikdir. Burada, qiymət artımı mövcud siyasi-iqtisadi şəraitdə inflyasiya səviyyəsinin tənzimlənməsini səciyyələndirir. Bu səbəbdən də siyasi-iqtisadi şərait inflyasiya səviyyəsinin müəyyənləşməsində qiymət meyarının UDM-da deflyatoru və istehlak qiymətləri indeksində tarazlığı şərtləndirir.

Beləliklə, səmərəliliyin qiymət meyarı ilə inflyasiyanı yaradan səbəb əlaqələri iqtisadi tarazlıqda təsiri istehsal fəaliyyətində və idxal-ixracda, investisiya, iqtisadi mübadilədə təyinedici meyarlarda əks olunur. Belə ki, səmərəliliyin təşkilində əlverişli və əhatəli meyar kimi logistika siyasətinin bütün komponentləri qiymət meyarının tənzimlənməsi ilə səciyyələnir. Bu metod iqtisadi fəaliyyətdə tənzimlənə bilən, ümumilikdə müəssisənin iqtisadi səmərəliliyini əhəmiyyətli dərəcədə artıracaq və mənfəti formalaşdıracaqdır.

Beləliklə, iqtisadi səmərəliliyin analitik modelinin əsas meyarları ümumiləşdirici proqnozlarda istehsal mənfəətinə uyğun qiymətlənməni şərtləndirir. Belə ki, bəzi meyarlar müəyyən edildikdə, planlaşdırılan qiymət meyarı qeyri-səlis məntiq əsasında tənzimlənməni zəruri edir. Belə şəraitdə iqtisadi meyarlar əsasında mövcud qiymətləndirmə modeli təklif olunan ümumiləşdirici göstərici üçün əsas tələbləri nəzərə almağı, bu çatışmazlıqları aradan qaldırmağı səciyyələndirir [7]. Bu iqtisadi-riyazi model logistika siyasətində analitik inteqral meyar sisteminin rentabelliyini qiymətləndirməyə, onların forma tətbiqinin effektliliyini dəqiq müəyyənləşdirməyə imkan verir.

Belə səmərəli qiymət meyarının hesablanmasında D logistik siyasətində effektivliyi üçün ümumi meyar, Dİ qəbul edilən meyarların təsviri, DA iqtisadi səmərəliliyin təşkilinin model təsviri kimi əks olunur. Belə ki, inteqral meyardan hazırlanmış iqtisadi metod iqtisadi səmərəlilikdə effektivliyin təşkilini və qiymət meyarını məqbul hesab edir.

## NƏTİCƏ

Beynəlxalq iqtisadi fəaliyyətdə logistik siyasətin səmərəliliyinin təşkili və iqtisadi artımla qarşılıqlı əlaqəsinin adekvatlığı xarakterikdir. Belə ki, iqtisadi tərəqqi proqramlarının həyata keçirilməsi təhsilin keyfiyyətinin yaxşılaşdırılmasında və səmərəli istehsal təsərrüfatını şərtləndirir. Bu, əhalinin hər nəfərinə hesablanan ÜDM-in artımını və siyasi-iqtisadi meyarın qiymət artımının mahiyyətini müəyyənləşdirir.

Makroiqtisadi tarazlığın reallaşması və istehsal effektliyinin artımı real siyasi-iqtisadi şəraitin qiymətləndirilməsi iqtisadi səmərəliliyin təşkilini şərtləndirir. Bu Azərbaycanda sosial-iqtisadi siyasətin,

istehsal mənfəətinin xarakterik xüsusiyyətlərini və iqtisadi mənafelərin daha səmərəli həyata keçirilməsi ilə səciyyələnir.

İqtisadi səmərəliliyin təşkili yeni iş yerlərinin yaradılması və sosial rifah təminatı ilə tənzimlənən logistika fəaliyyət, idarəetmədə, makroiqtisadi sabitliyin formalaşmasında əhəmiyyətli hesab edilir. Beləliklə, iqtisadi səmərəlilik mövcud qiymət meyarının uyğunluq metodu ümumi siyasi-iqtisadi şəraitin tələbləri ilə şərtlənir. Belə ki, mövcud qiymətləndirmə metodları texniki səhvlərin aradan qaldırılmasında logistika siyasətində inam metodunun tətbiqi zərurətini formalaşdırır.

Belə meyarlar qlobal iqtisadiyyatın bərpasını və əmtəə qiymətlərinin yüksəlməsinin inflyasiyaya təsirlərini balanslaşdırmaqla səciyyələnir. Mövcud məhdudiyyətlərin yumşaldılması qlobal iqtisadiyyatda fəaliyyətin intensivliyi Dünya Bankı və İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı qlobal iqtisadi artıma dair proqnozlarını yüksəltmək istiqamətində tövsiyələri ilə xarakterikdir.

Bu qlobal iqtisadi səmərəliliyin tənzimlənməsində neft ehtiyatlarının zənginliyinin siyasi-iqtisadi şəraitdə əhəmiyyəti ilə səciyyələnir. Belə ki, OPEC razılaşması ilə iqtisadi artım tələbin artım kontekstində neft qiymətinin balanslaşdırılmasını zəruri edir.

Beləliklə, qlobal siyasi-iqtisadi şəraitdə və eləcə də qeyri-neft sektorunda ixracın genişlənməsi valyuta mübadiləsinin sabitliyin əsas faktoru kimi tədiyyə balansına müsbət təsiri ilə səciyyələnir. Belə ki, 2023-ci ilin I rübündə cari iqtisadi əməliyyatların ÜDM-da 5,19 % profisit formalaşıb. Bu iqtisadi əməliyyatları profisitinə dair proqnozlarda artım istiqamətində qərar qəbul edilməsi ilə tənzimlənməsini şərtləndirmişdir.

Belə proqnozlar profisitli tədiyyə balansı şəraitində strateji valyuta ehtiyatları 2,8% (1,2 mlrd. ABŞ dolları) artırmaqla 168,4 mlrd və ya 169,5 ABŞ dollara yüksəldilməni səciyyələndirmişdir.

Bu tendensiyalar dünya ərzaq qiymətlərinin tənzimlənməsində daxili inflyasiyanın balanslaşdırılmasında mühüm əhəmiyyəti dünya ərzaq qiymətlərində cari ildə 4,8% və ya 12 ayda isə 39,7% artım təşkil etmişdir.

Belə şəraitdə logistik siyasətdə effektivliyin və iqtisadi səmərəliliyin qiymətləndirilməsi və tənzimlənməsi dünyanın siyasi-iqtisadi təcrübəsində qəbul edilmiş metodlara uyğunluğu məqbul hesab edilmişdir.

Beləliklə, investisiyaların gəlirlərində iqtisadi rentabellik mövcud təhsildə innovasiyalı şəraitin qiymət artımını və tarazlığını innovativ elm və təhsil meyarları şərtləndirir.

Bu istiqamətləri tələblərə uyğun təhsil, yaradıcı və innovativ cəmiyyət; elmin və təhsilin üstünlüyünü şərtləndirir. Belə ki, iqtisadi ticarət şəraitinin liberallaşdırılması əsasında ölkə əhalisini idxal məhsulları ilə təmin edəcək və makroiqtisadi sabitlikdə idxalın strukturunda ərzaq məhsullarının xüsusi çəkisinin əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq. Dünya təcrübəsinə, əsasən, ərzaq təhlükəsizliyi ölkənin ərzaq məhsullarının təminatında mütərəqqi və real iqtisadi mənzərənin qiymətləndirilməsi üçün əsas meyar kimi səciyyələnir. Beləliklə, Azərbaycanın iqtisadi səmərəliliyin logistika siyasətdə mahiyyəti və makroiqtisadi tarazlığın təminatını nəzərə alsaq, geosiyasi sosial-iqtisadi rifah təhlükəsizliyin zəruri forması kimi xarakterik hesab edilir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. İlham Əliyev, "İnkişaf məqsədimizdir", Bakı 2022.*

*2. N.İ.Məmmədov, "Geosiyasətə giriş", Bakı 2022.*

*3. Ə. Əlirzayev, "Sosial-iqtisadi rifah və idarəetmənin əsas prinsipləri". Bakı, 2020*

*4. İ.Hüseyinoğlu,"İqtisadi tərəqqi modelinin forma və pirinsipləri", Baki 2022.*

*5 D.İ.Allahverdiyev, "Dünya iqtisadiyyatı:İqtisadi mənafeylər, mövcud reallıqlar və perspektivlər" Bakı 2022.*

*6. R.Mehdiyev, "Yeni dünya nizamı, tərəqqiyə doğru", Bakı 2021.*

*7. Əliyev. F.Ə. "Azərbaycan elminin inkişaf perspektivi", Bakı 2016.*


## XÜLASƏ


Tədqiqatın məqsədi mövcud şəraitdə texnologiyalar sahəsində dünyanın "bilik dövrü" və ya "informasiya cəmiyyəti"nin real xarici siyasi-iqtisadi mahiyyətinin təhlil edilməsidir. Azərbaycanın iqtisadi fəaliyyətində logistika siyasətinin səmərəliliyi və iqtisadi tarazlığı təmin edən meyarlar elmi əsaslarla şərh edilmişdir. Ümumi dünya siyasi-iqtisadi meyarları, iqtisadi tərəqqi istiqamətləri və yaradılmış mövcud innovasiyalı mənzərənin mahiyyəti müəyyən edilmişdir. Beləliklə, xarici siyasi-iqtisadi münasibətlərin və iqtisadi tərəqqinin, makroiqtisadi sabit-

liyə təsirinin səbəb-nəticə əlaqəsi və real mənzərənin müqayisəli təhlili araşdırılmışdır.

**Açar sözlər:** *dövlətin antiinhisar siyasəti, iqtisadi mənzərə, effektliyin mahiyyəti, tarazlı iqtisadi tərəqqi.*

## ORGANIZATION OF EFFICIENCY IN LOGISTICS POLICY OF AZERBAIJAN IN GEOECONOMIC RELATIONS

**PhD in Economics, associate professor (docent),**
**Dagbeyi Allahverdiyev**
***Leading researcher of the Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan,***
***E-mail: dagbeycahani@gmail.com***

**SUMMARY**

The purpose of this research is to analyze the actual external political-economic nature of the world's "knowledge age" or "information society" in the field of technologies under the current conditions. The criteria that ensure the effectiveness of the logistics policy and the economic balance in the economic activity of Azerbaijan have been scientifically explained. The general world political-economic criteria, the directions of economic development and the essence of the existing innovative landscape have been identified. Thus, the causal relationship and the comparative analysis of the real impact of foreign political-economic relations and economic development on macroeconomic stability have been investigated.

**Keywords:** *State antitrust policy, economic landscape, effectiveness essence, balanced economic development.*

## ОРГАНИЗАЦИЯ ЭФФЕКТИВНОСТИ ЛОГИСТИЧЕСКОЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНА В ГЕОЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЯХ

**Кандидат экономических наук, доцент**
**Дагбейи Аллахвердиев**
***Ведущий научный сотрудник Института Экономики Министерство Науки и образования Азербайджанской Республики,***
***Электронная почта: dagbeycahani@gmail.com***

**АННОТАЦИЯ**

Целью данного исследования является анализ фактической внешней политико-экономической природы мировой «эпохи знаний» или «информационного общества» в сфере технологий в современных условиях. Научно обоснованы критерии, обеспечивающие эффективность логистической политики и экономическое равновесие в экономической деятельности Азербайджана. Определены общие мировые политико-экономические критерии, направления экономического развития и сущность существующего инновационного ландшафта. Таким образом, исследованы причинно-следственная связь и сравнительный анализ реального воздействия внешних политико-экономических отношений и экономического развития на макроэкономическую стабильность.

**Ключевые слова:** *Государственная антимонопольная политика, экономический ландшафт, сущность эффективности, сбалансированное экономическое развитие*

UOT 33

# AZƏRBAYCAN RESPUBLİKASININ İXRAC OLUNAN MƏHSULLARININ AŞKAR MÜQAYİSƏLİ ÜSTÜNLÜKLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**NƏRGİZXANIM BAXIŞOVA**

*Azərbaycan Texniki Universiteti*
*"İqtisadiyyat və statistika" kafedrasının*
*baş müəllimi, doktorant*

*E-mail: nergizxanim.baxishova@aztu.edu.az*

Müşahidələr təsdiq edir ki, bu gün dünyada ən sürətlə inkişaf edən sahələrdən biri məhz elektrotexnika sənayesidir. Bunun səbəbi cəmiyyətin inkişaf səviyyəsi, elmi nailiyyətlərin daha sürətlə istehsalata tətbiqi, elektrotexnika sənayesinin elmtutumlu bir sahə olması və elmi-texniki tərəqqinin (ETT) nailiyyətlərinin elektrotexnika sənayesinə ilkin olaraq tətbiq olunmasının digər sənaye sahələri ilə müqayisədə daha münasib olması ilə bağlıdır. Yəni elektrotexnika sənayesi ETT nailiyyətlərinin tətbiqi üçün sanki poliqondur. Buna görə də bir çox mütəxəssislər 2025-ci ildə dünya elektrik və elektronika sənaye məhsulları bazarının ümumi həcminin 7 trilyon ABŞ dollarından artıq olacağını bildirirlər [1].

Elektrotexnika sənayesi əsasən XX əsrin 40-cı illərindən sonra yaranmağa başlamışdır. Belə ki, 1946-cı ildə ABŞ-da ilk kompüterin yaradılması demək olar ki, elektrotexnika, xüsusilə də kompüter və elektron avadanlığın inkişafının əsasını qoydu. Elektrotexnika sənayesinin inkişafı ilə bağlı ayrı-ayrı ölkələrin və bütövlükdə dünyanın iqtisadi mənzərəsinə nəzər saldıqda aydın olur ki, XX əsrin 70-80-ci illərindən sonra digər sənaye sahələri ilə müqayisədə dünyada ən çox inkişaf edən sənaye sahəsinə çevrilməyə başlamışdır. Bunun səbəbi 80-ci illərdən etibarən elektrotexnika sənayesində yüksək texnologiyalı elmtutumlu məhsulların xüsusi çəkisinin artması, daha dəqiq desək, elmi-texniki tərəqqinin elektrotexnika sənayesində tətbiqinin artması ilə bağlı idi. Qeyd etdiyimiz fikrə sübut olaraq, hazırda elektrotexnika sənayesi inkişaf edən ölkələrdə elmi-tədqiqat və konstruktor işlərinə görə institutların sayı kifayət qədər çoxdur.

Elektrotexnika sənayesi Azərbaycanın maşınqayırma sənayesinin mühüm sahələrindən biridir. Sənayenin bu sahəsi güc transformatorları, azgüclü səyyar elektrik stansiyaları, 100 və daha yuxarı kVt gücündə müxtəlif modelli elektrik mühərrikləri, 1-dən 250 kVt-a qədər gücündə motorlar, müxtəlif təyinatlar üçün elektrik və radio naqillər, kabellər və digər elektrik məhsulları istehsalı üzrə ixtisaslaşmış müəssisələrdən ibarətdir. Elektrotexnika sənayesi müəssisələri bazar iqtisadiyyatı şəraitində öz fəaliyyətlərini az-çox saxlamaları və yeni şəraitə uyğunlaşmaları ilə fərqlənirlər.

AR Statistika Komitəsinin məlumatlarına əsasən, aşağıda qeyd olunan cədvəldə ölkənin elektrotexnika sahəsinin ümumi sənaye istehsalının sahə strukturunda payı göstərilmişdir.

**Cədvəl 1. Sənaye istehsalının sahə strukturu, ümumi yekuna nisbətən müvafiq illərin faktiki qiymətləri əsasında, faizlə**

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|---|
| Bütün sənaye | 100.0 | 100.0 | 100.0 | 100.0 | 100.0 | 100.0 | 100.0 |
| Mədənçıxarma sənayesi | 62.1 | 65.6 | 70.3 | 73.3 | 69.9 | 61.3 | 65.6 |
| Emal sənayesi | 29.9 | 27.6 | 24.4 | 21.9 | 25.1 | 31.8 | 28.8 |
| Kompüter, elektron və optik məhsulların istehsalı | 0.3 | 0.3 | 0.2 | 0.2 | 0.2 | 0.2 | 0.1 |
| Elektrik avadanlıqlarının istehsalı | 0.4 | 0.3 | 0.4 | 0.4 | 0.5 | 0.6 | 0.4 |

**Mənbə:** *[2]*

Göründüyü kimi keçmiş dövrdə istehsal olunan elektrotexnika sənaye müəssisələrinin məhsullarının həcmi hazırki dövrdən kəskin fərqlənmişdir.

Təəssüflə qeyd etməliyik ki, elektrotexnika müəssisələrinin inkişafı baxımından ölkədə böyük iqtisadi potensial və keçmiş ənənələrin olmasına baxmayaraq, bu sahədə istehsal olunan məhsulların həcmi ildən-ilə azalmağa doğru meyil edir. Belə ki, ölkədə televizor istehsalı, məişət kondisionerləri, çap qurğuları və s. istehsalının həcmi ildən-ilə azalır.

**Cədvəl 2. Elektrotexnika müəssisələrinin məhsulun istehsal həcmi (ədədlə)**

| Məhsulun adı | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| **İzolyasiyası olmayan çoxnaqilli məftil, troslar və oxşar məmulatlar, ton** | 2315.5 | 13155.0 | 8454.3 | 5183.4 | 5839.8 | 6370.3 |
| **Noutbuklar, ədəd** | - | - | - | - | 9841 | 22272 |
| **Stolüstü kompüterlər, ədəd** | - | - | - | 118 | 1025 | 4669 |
| **Ölçmə cihazları, ədəd** | 212976 | 263452 | 192382 | 250817 | 208377 | 234598 |
| **Güc transformatorları, ədəd** | 532 | 1259 | 1443 | 3258 | 1663 | 887 |
| **Digər elektrik naqilləri, ton** | 3536.8 | 5093.4 | 3733.2 | 3232.4 | 5662.6 | 8831.3 |
| **Məişət soyuducuları və dondurucuları, ədəd** | 2255 | 2094 | 1520 | 1473 | 670 | 3066 |
| **Nasoslar, ədəd** | 3431 | 5542 | 5611 | 8744 | 4718 | 5725 |
| **Qaldırıcı qurğular, ədəd** | 76 | 156 | 129 | 284 | 489 | 73 |
| **Sair sarğı naqilləri, ton** | 8,2 | - | 9,3 | 2.9 | 24,5 | 240,7 |
| **1000 V-dan çox olmayan gərginlik üçün birləşdirici detalları olan elektrik cərəyan naqilləri, ton** | 2251,7 | 4 466,7 | 2 635,5 | 2 050,0 | 3 796,6 | 6 997,9 |
| **Mayelərin məsrəfi və ya səviyyəsinin ölçülməsi, yoxlanması üçün cihazlar: məsrəfölçənlər** | 106,495.0 | 208 631 | 136 988 | 190,775.0 | 133 310 | 217 441 |
| **Digər qruplara daxil edilməyən, avtomatik tənzimləmə və idarəetmə üçün cihaz və aparatlar** | 121.0 | 18 572 | 8 667 | 12 027 | 25 586 | 8 075 |

**Mənbə:** *[2]*

Cədvəl 2-in məlumatlarından da göründüyü kimi ümumiyyətlə, elektrotexnika sənaye müəssisələrinin istehsal etdiyi məhsulların çeşidi də olduqca azdır. Digər tərəfdən cədvəl məlumatları onu göstərir ki, elektrotexnika sənaye müəssisələrinin məhsul istehsalının həcmi də ildən-ilə azalır. Bunun nəticəsidir ki, artıq 2020-ci ildən ölkəmizdə fəaliyyət göstərən sənaye müəssisələrində televizorlar, dəyişən cərəyanlı elektrik mühərrikləri, güc transformatorları, ştanqlı quyu nasosları, məişət kondisionerləri, mancanaq dəzgahlarının istehsalı demək olar ki, tamamilə dayanmışdır. Bunun da səbəbi, fikrimcə, istehsal olunan məhsulların rəqabətədavamlı olmaması ilə bərabər, həmin məhsullar üzrə daxili bazarın lazımi səviyyədə qorunmaması, elektrotexnika sənaye müəssisələrinin məhsullarının reklam işlərinin zəif olması, yeni-texnika və texnologiyanın istehsala zəif tətbiqi və s. kimi çoxsaylı problemlər mövcuddur. Elektrotexnika sənaye müəssisələri məhsul istehsalı ilə bağlı daxili bazarla məhdudlaşmamalı, xarici bazarların axtarışı və öyrənilməsi üzrə də işlər görməlidirlər.

Azərbaycanda fəaliyyət göstərən elektrotexnika sənaye müəssisələrinin ixrac olunan, eləcə də ölkəyə idxal olunan məhsulların strukturunu təhlil etmək üçün ölkənin xarici ticarət dövriyyəsinin dinamikasına nəzər salaq.

**Cədvəl 3. Xarici ticarət dövriyyəsinin dinamikası (milyon ABŞ dolları ilə)**

| İllər | XTD | İdxal | İxrac | Saldo |
|---|---|---|---|---|
| **2010** | 27,960.8 | 6,600.6 | 21,360.2 | 14,759.6 |
| **2011** | 36,326.9 | 9,756.0 | 26,570.9 | 16,814.9 |
| **2012** | 33,560.9 | 9,652.9 | 23,908.0 | 14,255.1 |
| **2013** | 34,687.9 | 10,712.5 | 23,975.4 | 13,262.9 |
| **2014** | 31,016.3 | 9,187.7 | 21,828.6 | 12,640.9 |
| **2015** | 21,945.8 | 9,216.7 | 12,729.1 | 3,512.4 |
| **2016** | 21,946.7 | 8,489.1 | 13,457.6 | 4,968.5 |
| **2017** | 24,103.3 | 8,783.3 | 15,320.0 | 6,536.7 |
| **2018** | 30,955.0 | 11,465.9 | 19,489.1 | 8,023.2 |
| **2019** | 33,302.7 | 13,667.5 | 19,635.2 | 5,967.7 |
| **2020** | 24,464.6 | 10,732.0 | 13,732.6 | 3,000.6 |
| **2021** | 33,912.5 | 11,705.8 | 22,206.7 | 10,500.9 |

**Mənbə:** *[2]*

Cədvəl 2.3.2-dəki XTD-nin dinamikasının təhlili göstərir ki, 2011-ci ildə XTD 36,327 mln. ABŞ dolları, o cümlədən ixrac 26571 mln. dolları, idxal 9756 mln. dollar səviyyəsindən artaraq, 2021-ci ildə XTD 35,556.4 mln. ABŞ dolları, o cümlədən ixrac 23,850.6 mln. ABŞ dolları, idxal 11,705.8 mln. ABŞ dolları səviyyəsinə çatmışdır. Başqa sözlə, baxılan dövrdə idxalı həcmi 1949.8 və ya 20% artmışdır. Təəssürlər olsun ki, ixracın həcmi dinamik artıma malik deyildir. 2010-2021-cı illər üçün Azərbaycanda xarici ticarət göstəricilərinin təhlili göstərir ki, 2020-2021-ci ilin xarici ticarət dövriyyəsi 2010-cu illə müqayisədə təxminən 1,2 və ya 2 dəfə artaraq 33,911 52,686 milyard ABŞ dolları təşkil etmişdir. Bununla yanaşı, ixracın həcmi 1,1 və ya 1,8 dəfə, idxalın həcmi isə təxminən 1,7 və ya 2.2 dəfə artaraq müvafiq olaraq 22208 , 38146.6 və 11703.2 , 14539.9 milyard ABŞ dolları təşkil etmişdir.

Qeyd edək ki, 2011-2021-ci illərdə ticarət balansında daima müsbət saldo hökm sürmüşdür. Bununla belə, ölkənin xarici ticarət dövriyyəsinin həcmi 2011-ci ildən başlayaraq ilbəil azalmağa başlayıb. Təbii ki, bu neft amili ilə bağlıdır. Yəni neft və neft məhsulları

ixracının qiymətinin həm dəyərcə, həm də istehsalının həcminin kəmiyyətcə azalması ümumi ixracın azalmasını şərtləndirmiş, 2019-cu ildə isə idxalın həcmi artmışdır. Lakin cədvəl 2.3.2-in məlumatları göstərir ki, 2020-ci ildə xarici ticarət dövriyyəsinin həcmində azalma baş verib. Bu azalma COVID-19 pandemiyası ilə əlaqədar olub. COVID-19 pandemiyası Azərbaycanın xarici ticarət dövriyyəsinin həcminə mənfi təsir göstərib.

**Şəkil 1. Xarici ticarət dövriyyəsinin artım tempi, %**




**Mənbə:** *[2]*

Eyni zamanda, şəkil 2010-2022-ci illər ərzində ölkədə xarici ticarət göstəriciləri qeyri-sabit dinamikaya malik olduğunu göstərmişdir.

Ölkənin ixracının və idxalının artma və ya azalma səbəblərini öyrənmək üçün ixracın əmtəə strukturuna baxaq. Yəni ölkənin elektrotexnika sənaye məhsulunun ixrac əmtəə strukturuna baxaq.

**Cədvəl 4. Ölkənin elektrotexnika sənaye məhsulunun ixrac əmtəə strukturu, min ABŞ dolları**

| Mal qrupları | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| Cəmi | 19,489,068 | 19,635,202.8 | 13,732,637.3 | 22,206,671.1 | 38,146,629.7 |
| Maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, onların hissələri | 64,594.6 | 77,725.6 | 67,176.1 | 55,535.7 | 113,423.5 |
| Nüvə reaktorları, qazanlar, avadanlıqlar və mexaniki qurğular, onların hissələri | 42,998.6 | 43,921.6 | 49,752.5 | 36,786.3 | 77,615.4 |
| Elektrik maşınları və avadanlıqları, aparatlar, onların hissələri | 21,596.0 | 33,804.0 | 17,423.6 | 18,749.4 | 35,808.1 |

**Mənbə:** *[2]*

Azərbaycan ixracının coğrafi strukturunda 2022-ci il üçün Avropa ölkələri - 72%, Asiya ölkələri – 25%, Amerika – 0.3%, Afrika – 1.5%, Okeaniya – 0.4% təşkil edib [2].

**Cədvəl 5. Elektrotexnika məhsulları üzrə ixracın əmtəə strukturu (faizlə)**

| Mal qrupları | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| Maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, onların hissələri | 0.3 | 0.4 | 0.5 | 0.3 | 0.3 |
| Nüvə reaktorları, qazanlar, elektrotexniki avadanlıqlar və mexaniki qurğular, onların hissələri | 0.2 | 0.2 | 0.4 | 0.2 | 0.2 |
| Elektrik maşınları və avadanlıqları, aparatlar, onların hissələri | 0.1 | 0.2 | 0.1 | 0.1 | 0.1 |

**Mənbə:** *[2]*

İxracın elektrotexnika məhsulları əmtəə strukturunun təhlili göstərir ki, 2014-2021-ci illərdə tədqiq olunan dövrdə maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, elektrik maşınları və avadanlıqları, aparatlar, onların hissələri 0,2%-lə 0,4% arasında dəyişmişdir. Beləliklə də, ixracın strukturunda elektrotexnika məhsullarının xüsusi çəkisi heç bir faiz belə deyil. Təhlil olunan dövrdə elektrotexnika sənaye məhsullarının ixracı 100 mln. ABŞ dolları səviyyəsində belə deyildir.

Elektrotexnika sənayesinin analoji məhsulları üzrə idxalının əmtəə strukturuna nəzər salsaq görərik ki, elektrotexnika sənaye məhsullarının idxalda xüsusi çəkisi ixracla müqayisədə daha çoxdur.

**Cədvəl 6. Ölkənin elektrotexnika sənaye məhsulunun ixrac əmtəə strukturu, min ABŞ dolları**

| Mal qrupları | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| Cəmi | **11,465,914** | **13,667,475** | **10,732,038.8** | **11,705,786.7** | **14,539,858.5** |
| Maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, onların hissələri | **2,589,007** | **2,661,026** | **2,536,673.0** | **2,749,104.2** | **2,891,627.3** |
| Nüvə reaktorları, qazanlar, avadanlıqlar və mexaniki qurğular, onların hissələri | **1,808,245** | **1,637,134** | **1,567,478.3** | **1,763,638.3** | **1,773,821.6** |
| Elektrik maşınları və avadanlıqları, aparatlar, onların hissələri | **780,762.1** | **1,023,891** | **969,194.7** | **985,465.9** | **1,117,805.7** |

**Mənbə:** *[2]*

**Cədvəl 7. Elektrotexnika məhsulları üzrə idxalın əmtəə strukturu (faizlə)**

| Mal qrupları | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|
| Maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, onların hissələri | 22.6 | 19.5 | 23.6 | 23.5 | 19.9 |
| Nüvə reaktorları, qazanlar, elektrotexniki avadanlıqlar və mexaniki qurğular, onların hissələri | 15.8 | 12.0 | 14.6 | 15.1 | 12.2 |
| Elektrik maşınları və avadanlıqları, aparatlar, onların hissələri | 6.8 | 7.5 | 9.0 | 8.4 | 7.7 |

**Mənbə:** *[2]*

Bu fərq özünü, ilk növbədə, idxal olunan elektrotexnika sənaye məhsullarının həcmində özünü göstərir. Yəni, 2014-2021-ci illərdə idxal olunan əksər sənaye məhsulunun xüsusi çəkisində artım müşahidə olunur. Hesab edirik ki, elektrotexnika sənaye məhsullarının idxalının artımı ona olan daxili tələbdən irəli gəlir.

Eyni zamanda ixrac olunan məhsulların çeşidinə baxdıqda isə ixracın strukturunda maye nasosları və elektrik enerjisi ilə bağlı statistik məlumatlar əldə etmək mümkündür. Yəni, ixrac olunan elektrotexnika sənaye məhsullarının çeşidi olduqca məhduddur.

Elektrotexnika sənaye məhsullarının idxalı üzrə ikinci mühüm fərq isə onların çeşidi ilə bağlıdır. Yəni idxalın strukturunda olan məhsulların çeşidi daha genişdir.

Beynəlxalq ticarətdə müqayisəli üstünlük konsepsiyalarının nəzəri və metodoloji təhlili iqtisadi nəzəriyyədə vacib yer tutur. Ölkələrin malik olduğu Müqayisəli və mütləq üstünlüklər nəzəriyyəsinin əsasını iqtisadçılar A.Smit və D.Rikardo goymuşlar.

D.Rikardoya görə, "Müqayisəli üstünlüklər" konsepsiyasına əsasən, istər iqtisadi subyektlər, fiziki şəxslər, istərsə də bütün ölkələr, xüsusi effektiv olduqları və ya əhəmiyyətli təcrübəyə malik olduqları məhsulların və xidmətlərin istehsalında ixtisaslaşdıqları halda daha da məhsuldar olurlar.

T.Volrasa görə, ölkənin üstünlüyü müəyyən malların istehsalında istehsal amillərinin və qabaqcıl texnologiyaların maneəsiz əlçatan olmasından irəli gəlir.

Dünya iqtisadiyyatının təkamülü nəticəsində və müqayisəli və mütləq üstünlüklər nəzəriyyəsinin müddəalarını nəzərə alaraq P. Kruqman, M. Porter, və digər Qərb alimləri tərəfindən aparılmış tədqiqatlar nəticəsində "Müqayisəli üstünlüklər" iqtisadi kateqoriyaya yeni baxışlar və nəzəriyyələr yaranmışdır. Belə ki, P.E.Samuelsona əsasən, ölkələrin üstünlükləri onların istehsal amilləri ilə təchiz edilməsində, istehsal texnologiyalarında, ölkələrin iqtisadi quruluşunun fərqliliyindən, kapitalın müxtəlif səviyyələrindən, ölkədəki siyasi şəraitdən irəli gələn faktorlardan formalaşır [3].

Iqtisadçı R.Dornbuş və S.Fişerə görə, ölkələr müəyyən növ məhsulları digər ölkələrlə müqayisədə daha ucuz ixrac etdiyi halda formalaşır [4].

Beynəlxalq ticarətdə ölkənin müqayisəli üstünlüklərini müəyyən etmək və qiymətləndirmək üçün 1965-ci ildə B.Balassa tərəfindən təklif olunan "Balassa indeksi"dir [5].

Müqayisəli üstünlüklərin əhəmiyyətli xüsusiyyətlərinin və həyata keçirilməsi mexanizmlərinin öyrənilməsində B.Balassa kimi alimin adını çəkmək olar.

İndeks məhsulun və ya sənayenin milli ixracda payının dünya ixracındakı payına nisbətini göstərir. Bu indeks Aşkarlanmış Müqayisəli Üstünlük (RCA) İndeksi adlanır. RCA aşağıdakı düsturla hesablanır:

$$RCA_1 = (X_{ij} / X_{it}) / (X_{nj} / X_{nt}) \quad (1)$$

Burada,

$X_{ij}$ - tədqiq olunan i-ölkənin j-məhsulu üzrə ixracatı ;

$X_{it}$ - tədqiq olunan i-ölkənin ümumi ixracatı;

$X_{nj}$ - dünyanın j-məhsulu üzrə ixracatı

$X_{nt}$ - dünyanın ümumi ixracatıdır.

RCA indeksi > 1 olduğu halda ölkə müqayisəli üstünlüyə malikdir. Bu o deməkdir ki, ölkə müəyyən malların ixracında güclü rəqabət mövqeyinə malikdir. Əgər RCA indeksi < 1 ölkə malların ixracında zəif rəqabət mövqeyinə malik olduğunu göstərir.

İşdə ölkədə ixrac olunan məhsulların aşkar müqayisəli üstünlükləri hesablanmışdır.

**Cədvəl 8. Ölkədə ixrac olunan məhsulların RCA-in hesablanması**

| məhsulun növü | RCA 2018 | RCA 2019 | RCA 2020 | RCA 2021 | RCA 2022 |
|---|---|---|---|---|---|
| Bütün məhsullar | | | | | |
| Mineral yanacaqlar, mineral yağlar və onların distillə edilməsi məhsulları; bitumlu maddələr; mineral resurslar | 7.084 | 8.285 | 9.485 | 7.657 | 5.681 |
| yeməli meyvə və qoz-fındıq; sitrus meyvələrinin və ya qovunların qabığı | 2.607 | 2.680 | 3.363 | 2.798 | 2.115 |
| Plastik və onlardan məmulatlar | 0.179 | 0.274 | 0.343 | 0.546 | 0.304 |
| Yeməli tərəvəzlər və müəyyən köklər və kök yumruları | 3.209 | 3.156 | 4.226 | 2.635 | 1.691 |
| Alüminium və ondan məmulatlar | 0.577 | 0.693 | 0.872 | 0.785 | 0.499 |

| məhsulun növü | RCA 2018 | RCA 2019 | RCA 2020 | RCA 2021 | RCA 2022 |
|---|---|---|---|---|---|
| Bütün məhsullar | | | | | |
| Pambıq | 1.778 | 2.694 | 4.213 | 4.334 | 2.172 |
| Gübrələr | 0.009 | 0.322 | 0.254 | 1.430 | 1.015 |
| Şəkər və qənnadı məmulatları | 0.598 | 0.665 | 0.807 | 0.672 | 0.465 |
| Elektrik maşın və avadanlıqları və onların hissələri; səs yazıcıları və reproduktorları, televiziya | 0.008 | 0.012 | 0.008 | 0.006 | 0.007 |
| Mis və ondan məmulatlar | 0.208 | 0.154 | 0.203 | 0.239 | 0.099 |
| İçkilər, spirtli içkilər və sirkə | 0.129 | 0.182 | 0.129 | 0.104 | 0.135 |
| yaşayış yerləri və qida sənayesi tullantıları; hazırlanmış heyvan yemi | 0.086 | 0.098 | 0.060 | 0.086 | 0.093 |
| Süd məhsulları; quş yumurtaları; təbii bal; heyvan mənşəli yeməli məhsullar, başqa yerdə deyil ... | 0.095 | 0.215 | 0.215 | 0.091 | 0.090 |
| Qurğuşun və onun məmulatları | 1.243 | 1.579 | 2.084 | 1.397 | 0.873 |
| Yağlı toxumlar və yağlı meyvələr; müxtəlif taxıllar, toxumlar və meyvələr; sənaye və ya dərman ... | 0.051 | 0.037 | 0.043 | 0.048 | 0.040 |
| Taxıl, un, nişasta və ya süddən hazırlanan preparatlar; şirniyyat məhsulları | 0.028 | 0.023 | 0.042 | 0.036 | 0.055 |
| Müxtəlif kimyəvi maddələr | 0.014 | 0.016 | 0.021 | 0.026 | 0.017 |
| Taxıllar | 0.069 | 0.026 | 0.000 | 0.064 | 0.014 |
| keramika məhsulları | 0.006 | 0.005 | 0.004 | 0.002 | 0.019 |
| İpək | 0.133 | 0.459 | 1.134 | 2.763 | 0.568 |
| Ət və ət məmulatları | 0.009 | 0.004 | 0.001 | 0.004 | 0.006 |
| Sabun, üzvi səthi aktiv maddələr, yuyucu preparatlar, sürtkü preparatları | 0.002 | 0.005 | 0.012 | 0.006 | 0.012 |
| Trikotaj və ya toxunmuş paltar və geyim aksesuarları | 0.002 | 0.002 | 0.003 | 0.002 | 0.002 |
| Ayaqqabılar, və bu kimi məmulatlar | 0.001 | 0.005 | 0.007 | 0.002 | 0.002 |
| oyuncaqlar, oyunlar və idman rekvizitləri; hissələri və aksesuarları | 0.001 | 0.001 | 0.001 | 0.001 | 0.000 |
| Ağacdan və ya digər lifli sellüloz materialdan pulpa; bərpa edilmiş (tullantı və qırıntılar) kağız | 0.001 | 0.000 | 0.003 | 0.001 | 0.000 |

**Mənbə:** *[6] (göy rəngdə yüksək nəticələr göstərilib)*

Tədqiqatların nəticələri göstərir ki, neft yağları və bitumlu minerallardan alınan yağlar, qaz və digər qaz halında olan karbohidrogenlər, neft koksu, neft bitumu və neftdən alınan digər qalıqlar yüksək aşkar müqayisəli üstünlüklərinə malikdir. RCA indeksinin qiymətləndirilməsinə əsasən, meyvə və qoz-fındıq, çiyələk, moruq, böyürtkən, qarağat, ərik, albalı, şaftalı, gavalılar, qovun, qarpız, sitrus meyvələri və digər meyvə, çərəz aşkar müqayisəli üstünlüklərə malikdir. Hesablamaların nəticələrindən göründüyü kimi, ixrac olunan məhsulların arasında pomidor, kartof, xiyar, yerkökü, çuğundur, kərəviz, turp, kələm, gül kələm, digər tərəvəzlər və pambıq, pambıq iplik, pambıqdan toxunmuş parçalar üçün Balassa indeksi 1-dən çox olmuşdur. Başqa sözlə desək, neft və kənd təsərrüfatı sahələrinin yerli istehsal olunan məhsulları dünya bazarlarında tanınır və rəqabətə davamlıdır. Eyni zamanda, duz, kükürd, daş, suvaq materialları, əhəng və sement, tütün, xalçalar, saatlar, kauçuk, ipək, taxıllar, ağac və ağac məmulatları, mebel, taxıl, un, kakao, dəmir və polad, mis və misdən istehsal olunan məhsullar, o cümlədən elektrik maşın və avadanlıqları və onların hissələri və digər yerli məhsulların Balassa indeksi 1-dən az olmuşdur. Bu isə onu onu deməyə əsas verir ki, sadalanan məhsullar aşkar müqayisəli üstünlüklərə malik deyillər.

Ümumiyyətlə, aparılan təhlildə bu tədqiqatın nəticəsinə əsasən demək olar ki, təhlil aparılan illər üzrə ölkənin kənd təsərrüfatı və emal sənayesi sahələrində rəqabətədavamlı məhsul istehsalı artmışdır. Nəticə etibarı ilə, Balassa indeksi hesablamanın nəticələri onu deməyə əsas verir ki, 2018-2022-ci illər ərzində müqayisəli üstünlük əmsalı yüksək olan məhsulların sayı 25 olmuşdur. Cədvəl 3-dəki məlumatları onu göstərir ki, Azərbaycanda məhsulların ixracının əsasını neft və ərzaq məhsulları məhsulları təşkil etdiyi halda, digər yerli istehsal olunan məhsullar dünya bazarında nisbətən aşağı rəqabətqabiliyyətliliyinə malikdir. Bununla yanaşı, cədvəl məlumatları, ölkənin daxili bazarının idxaldan asılılığını göstərir.

Əldə olunan nəticələr bazarın tənzimlənməsinin təkmilləşdirilməsi, sahələrin inkişafı və sənaye siyasətinin rasionallaşdırılması üçün xüsusi tövsiyələr hazırlamağa imkan verir. Bu öz növbəsində, gələcək illərdə ölkənin sənayesinin dünya bazarında ixracat rəqabətqabiliyyətliliyinin daha da gücləndirilməsinə töhfə verəcəkdir. İxrac potensialının gücləndirilməsi, dövlətin dünya iqtisadiyyatında payının genişləndirilməsi, ölkənin rəqabət üstünlüklərinin müəyyən edilməsi və inkişafı dövlət qarşısında duran mühüm vəzifələrdəndir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *www.ibisworld.com*
2. *www.stat.gov.az*
3. *Samuelson, Paul Where Ricardo and Mill Rebut and Confirm Arguments of Mainstream Economists Supporting Globalization // Journal of Economic Perspectives. 2004. № 3;135-146 p.*
4. *Dornbusch, R, Fischer, S, and Samuelson, PA. Comparative Advantage, Trade, and Payments in a Ricardian Model with a Continuum of Goods.*
5. *Bela Ballasa, Marcus Norland // "Revealed" comparative advantage in Japan and the USA.*
6. *www.trademap.org*


## XÜLASƏ


Elektrotexnika sənayesi Azərbaycanın maşınqayırma sənayesinin mühüm sahələrindən biridir. Tədqiqat işində sənaye istehsalının sahə strukturu, Elektrotexnika müəssisələrinin məhsullarının istehsal həcmi araşdırılmışdır. Bununla yanaşı, ölkənin xarici

ticarət dövriyyəsinin dinamikasına baxılmış, ölkənin elektrotexnika sənaye məhsulunun ixrac əmtəə strukturunun, o cümlədən elektrotexnika məhsulları üzrə idxalın əmtəə strukturunun təhlili aparılmışdır. Tədqiqat işinin əsas məqsədi ölkədə ixrac olunan məhsulların Aşkarlanmış Müqayisəli Üstünlük qiymətləndirilməsidir. Bu, indeks Aşkarlanmış Müqayisəli Üstünlük (RCA) məhsulun və ya sənayenin milli ixracda payının dünya ixracındakı payına nisbətini göstərir. Balassa indeksi hesablamanın nəticələri onu deməyə əsas verir ki, 2018-2022-ci illər ərzində müqayisəli üstünlük əmsalı yüksək olan məhsulların sayı 25 olmuşdur.

**Açar sözlər:** *idxal, ixrac, xarici ticarət dövriyyəsi, Aşkarlanmış Müqayisəli Üstünlük, RCA, elektrotexnika sənayesi, elektrotexnika məhsulu, Balassa indeksi.*

## SUMMARY

The electrotechnical industry is one of the important branches of the engineering industry of Azerbaijan. In the research work, the field structure of industrial production, the volume of production of electrical engineering enterprises was investigated. At the same time, the dynamics of the country's foreign trade turnover were reviewed, the export commodity structure of the country's electrotechnical industrial products, including the import commodity structure of electrotechnical products was analyzed. The main purpose of the research work is to evaluate the Revealed Comparative Advantage of the products exported in the country. This index shows the ratio of the Revealed Comparative Advantage (RCA) of a product or industry's share of national exports to its share of world exports. The results of the Balassa index calculation suggest that the number of products with a high coefficient of comparative advantage was 25 during 2018-2022.

**Key words:** *import, export, foreign trade turnover, revealed comparative advantage, GSP, electrical industry, electrical products, Balassa index.*

## РЕЗЮМЕ

Электротехническая промышленность является одной из важных отраслей машиностроительной промышленности Азербайджана. В научно-исследовательской работе исследована отраслевая структура промышленного производства, объёмы производства электротехнических предприятий. При этом рассмотрена динамика внешнеторгового оборота страны, проанализирована товарная структура экспорта электротехнической промышленной продукции страны, в том числе товарная структура импорта электротехнической продукции. Основная цель исследовательской работы – оценить выявленное сравнительное преимущество экспортируемой в страну продукции. Этот индекс показывает отношение выявленного сравнительного преимущества (RCA) продукта или доли отрасли в национальном экспорте к ее доле в мировом экспорте. Результаты расчета индекса Балассы свидетельствуют о том, что количество товаров с высоким коэффициентом сравнительного преимущества составило 25 в течение 2018-2022 годов.

**Ключевые слова:** *импорт, экспорт, внешнеторговый оборот, выявляемое сравнительное преимущество, ВСП, электротехническая промышленность, электротехническая продукция, индекс Балассы.*

UOT 338.45:69

# TİKİNTİ SEKTORUNDA GƏLİR VƏ XƏRCLƏRİN UÇOTUNUN MÖVCUD VƏZİYYƏTİ VƏ TƏHLİLİ

**ƏLİHEYDƏR DÖVLƏTOV**
*Azərbaycan Dövlət İqtisad Universiteti, doktorant*
*E-mail: dovlatov.aliheydar@gmail.com*

**Giriş**

Bazar münasibətləri şəraitində idarəetmə metodlarının idarəetmə uçotunun vahid sisteminə obyektiv inteqrasiyası baş verir ki, bu da iqtisadiyyatın mərkəzləşmiş idarəçiliyi şəraitində tələb olunmurdu. Bununla bağlı xərclərin uçotunun təşkili və məhsulların, o cümlədən tikinti məhsullarının maya dəyərinin kalkulyasiyası üzrə problemlərin tədqiqi xüsusi aktuallıq kəsb edir, bu tədqiqatlar təsərrüfat subyektlərinin fəaliyyətinin yeni şərtlərinə uyğunlaşdırılmalıdır [4].

**Tikinti sektorunda gəlir və xərclərin tanınması və hesablanması**

**Misal 1.** Kontrakt üzrə tikinti müqaviləsinin qiyməti 1000000 man., onun smeta dəyəri (maya dəyəri) isə 750000 man. olur. İcra olunmuş və hesabat dövründə tanınmış işlərin həcmi, sərf edilən pul vəsaitlərinin məbləği 250000 manat təşkil etmişdir. Onda hesabat dövrünə işlərin icra olunması səviyyəsi 33,33% (250000:750000) olacaqdır [7].

Hesablanmış faiz (33,33 %) podratçı təşkilatın tikinti müqaviləsi cəmi çəkəcəyi xərclərin tərkibində cari dövr üzrə çəkilmiş faktiki xərclərin payını göstərir. Hesablanmış faiz həcmində sifarişçi təşkilat podratçı təşkilata gəlir götürməlidir. Köçürüləcək gəlirin məbləği 333300 man. (1000000x33,33:100) olmalıdır. Həmin gəlir məbləği faktiki çəkilmiş xərclərlə uyğunlaşdırılacaqdır. 333300-25000 = 83300 man. Nəticədə, podratçı təşkilatın hesabat dövründə icra etdiyi işlərə görə gəliri 3333000 man., xərcləri – 250000 man., mənfəəti isə 83300 man. olacaqdır.

Podratçı təşkilatlar tikinti müqavilələri üzrə xərclərin uçotunu 203 nömrəli "Tikinti müqavilələri üzrə məsrəflər" hesabında həyata keçirirlər. Hesabda qalıqlar ayın əvvəlinə və sonuna bitməmiş tikinti işlərinə sərf edilən pul vəsaitləri, debet dövriyyəsi üzrə hesabat ayında (dövründə) podratçının çəkmiş olduğu faktiki xərclər, kredit dövriyyəsi üzrə tikinti üzrə icra olunmuş, bitməmiş obyektlər üzrə silinən xərclərin məbləğləri əks etdirilir. Əgər gəlirlərin və xərclərin uçotu işlərin icrası mərhələləri əsasında həyata keçirilirsə, onda 203 nömrəli hesabın kredit dövriyyəsi ilə debet dövriyyəsi eyni məbləğlər təşkil edəcəkdir. Yəni, "yerinə yetirilmişlərin payı" metodunu tətbiq edən zaman 203 nömrəli hesabın kredit dövriyyəsi, həmin hesab üzrə debet dövriyyəsində olan məbləğin uyğun hesabat dövrünün gəlirlərinə silindiyini göstərəcəkdir. [2]

**Misal 2.** üzrə məlumatlardan istifadə etməklə ola biləcək mümkün əməliyyatların mühasibat uçotu hesablarında nə cür əks etdirilə biləcəyini gözdən keçirək. Fərz edək ki, podratçı təşkilatın hesabat dövründə sərf etdiyi xərclərin tərkibi və məbləği aşağıdakı kimi olmuşdur: inşaat işlərində çalışan işçilərin əməkhaqqı xərcləri – 75000 man.; işçilərin sosial sığortasına ayırmalar – 17250 man.; tikintidə istifadə olunan materialların dəyəri – 132500 man.; müqavilənin yerinə yetirilməsi ilə bağlı aktivlərin amortizasiyası – 20200 man; sair xərclər – 5050 man

1. Tikintidə istifadə edilmiş materialların dəyəri – 132500 man.; Debet 203 -1 – Tikintidə istifadə edilmiş xammal və materiallar – 132500 man; Kredit 201-1 – Xammal, 201 –2- Materiallar – 132500 man.

2. Tikintidə işləyən işçilərin əməkhaqqı xərcləri – 75000 man.; Debet 203 – 2 – Tikinti ilə məşğul olan işçi heyəti ilə əlaqəli məsrəflər – 75000 man.; Kredit 533 – Əməyin ödənişi üzrə işçi heyətinə olan borclar – 75000 man.;

3. İşçilərin sosial sığortasına ayırmalar edilmişdir – 17250 man.; Debet 203-3-Tikinti ilə məşğul olan işçi heyəti ilə əlaqəli məsrəflərə görə hesablanılan sosial sığorta ayırmaları – 17250 man.; Kredit 522 – Sosial sığorta və təminat üzrə ayırmalar – 17250 man.

4. Tikinti maşın və avadanlıqlarına amortizasiya hesablanmışdır – 20200 man.

5. Tikintidə istifadə olunan aktivlər üzrə amortizasiya məsrəfləri – 20200 man.; Kredit 112-1-3- Maşın və avadanlıqlar üzrə yığılmış amortizasiya – 20200 man.

6. Tikinti müqaviləsinə aid olunan sair xərclər – 5050 man.; Debet 203 – 5 – Tikinti ilə əlaqəli sair məsrəflər – 5050 man. Kredit 223 – Bank hesablaşma

hesabları; 538 – Digər qısamüddətli kreditor borclar; 545 – Digər qısamüddətli öhdəliklər və s. Hesablar – 5050 man.

7. İcra olunmuş, yaxud başa çatdırılmış mərhələ üzrə tikinti işlərinə sərf edilmiş xərclər satışın maya dəyərinə silindikdə Debet 701-2- Tikinti müqavilələri üzrə maya dəyəri xərcləri – 250000 man.; Kredit 203 – Tikinti müqavilələri üzrə məsrəflər (subhesablar üzrə məbləğlərin ümumi yekunu) – 250000 man.

8. ƏDV-də daxil olmaqla icra olunmuş işlərə görə (bitmiş mərhələ üzrə) gəlir tanınmışdır – 393294 man., o cümlədən ƏDV – 59984 man. Debet 215 – Tikinti müqavilələri üzrə qısamüddətli debitor borcları – 393284 man.; Kredit 601-3- Tikinti müqavilələri üzrə gəlir – 393294 man

9. Mərhələ üzrə icra olunmuş işlərə sərf edilən xərclərin, həmin xərclər üzrə tanınmış gəlirlərə silinməsi (gəlirlərlə xərclərin hesabat dövründə uyğunlaşdırılması – 250000 man. Debet 601-3- Tikinti müqavilələri üzrə gəlir – 250000 man.; Kredit 701-2- Tikinti müqavilələri üzrə maya dəyəri xərcləri – 250000 man.

10. Hesablanmış ƏDV hesablarda göstərilmişdir – 59984 man.; Debet 601-3- Tikinti müqavilələri üzrə gəlir – 59994 man.; Kredit 521 – Vergi öhdəlikləri – 59994 man.

11. Yerinə yetirilmiş mərhələ üzrə maliyyə nəticəsi təyin olunmuş və silinmişdir – 83300 man; Debet 601 – Tikinti müqasilələri üzrə gəlir – 83300 man.; Kredit 801 – Ümumi mənfəət (zərər) – 83300 man.

12. Yerinə yetirilmiş mərhələ üzrə pul gəliri daxil olmuşdur – 393294 man.: Debet 223 – Bank hesablaşma hesabları – 393 294 man.; Kredit 215 – Tikinti müqavavilələri üzrə qısamüddətli debitor borcları – 393 294 man.

Bütövlükdə gəlirlərin və xərclərin tanınmasını və hesablanmasını göstərmək üçün aşağıdakı misala baxaq.

**Misal 3.** Tikinti müqaviləsi 3 il müddətinə 14,4 mln.məbləğində təsbit olunmuşdur. Tikintinin bağlanmasından bir il yarım keçdikdən sonra sifarişçi təsbit olunmuş qiymətdən 480 min manat kənarlaşma olduğunu tanımışdır. Sifarişçi müqavilə üzrə tikinti xərclərini 12640 min manat məbləğində təyin etsə də, birinci ilin sonunda həmin xərcləri yenidən hesablamış və onların məbləğini 560 min manat məbləğində artırmışdır. Proyektdən kənarlaşmaya görə çəkilməli olan və sifarişçi tərəfindən tanınan xərclərin məbləği 384 min manat olur. İkinci ilin sonunda tikinti meydanında istifadə olunmamış materialların dəyərinin 200 min manat olduğu təyin edilmişdir. Mərhələlər üzrə işlərin icrası «yerinə yetirilmiş işlərin payı» metodu əsasında təyin olunur. Həmin metoddan faydalanmaqla illər üzrə hesablamalar nəticəsində aşağıdakı kəmiyyətlər əldə ediləcəkdir (cədvəl 1.).

**Cədvəl 1. Tikinti müqaviləsi üzrə gəlir və xərclər**

| Göstəricilər | 1-ci il | 2-ci il | 3-cü il |
|---|---|---|---|
| 1. Kənarlaşmada razılaşdırılmaqla tikinti müqaviləsi üzrə gəlir, min man. | 14400 | 14860 | 14870 |
| 2. Tikinti müqaviləsi üzrə xərclərin ümumi məbləği, min man. | 13300 | 13585 | 13574 |
| 3. Tikinti müqaviləsi üzrə hesabı mənfəət | 1200 | 1295 | 1286 |
| 4. Hesabat tarixinə çəkilmiş xərclər, min man. | 3293 | 10130 | 13573 |
| 5. Həmçinin tikinti meydanında istifadə olunmamış materialların dəyəri, min man. | - | 20000 | - |
| 6. Tikinti müqaviləsi üzrə işlərin yerinə yetirilmə səviyyəsi (səh.4- səh.5); səh 2), faizlə | 24,94 | 72,74 | 100,00 |
| 7. Yerinə yetirilmiş mərhələlərə sərf edilən xərclər əsasında yaranan gəlirlərin tanınmış məbləği, min man. (artan yekunla) | 3589,8 | 10823,2 | 14870,0 |

**Mənbə:** *[2].*

Hər bir hesabat dövrünün axırında mənfəət və zərər barəsində hesabat formasında tanınacaq mənfəətin məbləği aşağıdakı kimi olacaqdır (cədvəl 2.)

**Cədvəl 2. Mənfəət və zərər barəsində hesabat formasında tanınacaq mənfəətin məbləği**

| Göstəricilər | 1-ci ilə hesabat | 2-ci ilə hesabat | 3-cü ilə hesabat |
|---|---|---|---|
| 1. Tikinti müqaviləsi başlanandan gəlir, min.man | 3589,9 | 10822,2 | 14880,0 |
| 1.1. Həmçinin əvvəlki hesabat ilində hesablamış | - | 3589,9 | 10822,2 |
| 1.2. Hesabat ilinin gəliri | 3589,9 | 7276,8 | 4017,6 |
| 2. Tikinti müqaviləsi başlanandan sərf edilmiş xərclər, min.man | 3292 | 10120 | 13584 |
| 2.1. Həmçinin əvvəlki hesabat ilində hesabalanmış | - | 3292 | 10120 |
| 2.2. Hesabat ilinin xərcləri | 3292 | 6628 | 3664 |
| 3. Tikinti müqaviləsi başnanandan mənfəət, min.man | 293,6 | 942,4 | 1296,0 |
| 3.1. Həmçinin əvvəlki hesabat ilində hesablanmış | - | 293,6 | 942,4 |
| 3.2. Hesabat ilinin mənfəəti | 293,6 | 648,8 | 353,6 |

**Mənbə:** *[1].*

Vurğulamalıyıq ki, ikinci ilin hesabatına daxil olan xərclər tikinti meydançasında istifadəsiz qalmış materialların dəyəri məbləğində azaldılmışdır. Həmin materiallar işlərin üçüncü ilində istifadə edilmişdir və həmin ilin xərclərinə daxil olunmuşdur. Podratçı təş-

kilatın hər il üzrə mənfəət və zərər barəsində hesabatında gəlirlər, xərclər və mənfəətin yekunu aşağıdakı kimi olacaqdır (cədvəl 3.)

**Cədvəl 3. Gəlirlərin, xərclərin və mənfəətin mənfəət və zərər haqqında hesabat formasında illər üzrə tanınması məbləğləri, min.man.**

| Hesabatın göstəriciləri | Tikinti müqaviləsi üzrə cəmi | 1-ci ilin hesabatı | 2-ci ilin hesabatı | 3-cü ilin hesabatı |
|---|---|---|---|---|
| Gəlirlər | 14870 | 3585,8 | 7276,7 | 4017,5 |
| Xərclər | 13574 | 3282,0 | 6629,0 | 3663,0 |
| Mənfəət | 1286 | 293,5 | 648,7 | 353,5 |

**Mənbə:** *[2].*

## Nəticə

Tədqiqat nəticəsində əldə edilən işləmələrin təcrübədə tətbiqi tikintidə uçotu iqtisadi proseslərin səmərəli idarə edilməsi alətinə çevirməklə yanaşı, istehsal xərclərinin uçotunun keyfiyyətinin yüksəlməsinə təminat yaratmış olacaqdır.

1. Azərbaycanda xərclərin tərkibini tənzimləyən normativ aktların təkmilləşdirilməsinə ehtiyac duyulur. Maya dəyərinin formalaşması və onun tərkibinə daxil olan xərclərin təsnifatının hədlərinin genişləndirilməsi zəruridir. Bu tədbir maya dəyərinin mahiyyəti, təbiəti, iqtisadi məqsədəuyğunluğu və prinsiplərindən asılı olaraq müəssisənin özü tərəfindən həyata keçirilməlidir.

2. İstehsala çəkilən xərclər öz tərkibinə, iqtisadi məzmununa, məhsulun hazırlanmasındakı roluna, işlərin görülməsi və xidmətlərin göstərilməsinə, istehsal obyekti ilə əlaqəsinə, məhsulun maya dəyərinə daxil edilməsi üsuluna görə müxtəlifdir. İstehsal xərclərinin təsnifatı ilk növbədə: müəssisənin idarə edilməsi üçün tələb olunan informasiya və təşkilatın uçot siyasətindən asılı olaraq istehsala çəkilən xərclərin uçotu və ona nəzarətin təşkili ilə əlaqədar tətbiq edilən sistemdən; iqtisadi sahənin və hər bir müəssisənin spesifik xüsusiyyətindən asılıdır. Təcrübədə istifadə edilən xərclərin təsnifatı maya dəyərinin idarə edilməsinin operativ uçotunun başlıca məqsədinə uyğun gəlməlidir.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Abbasova S.A. Praktiki audit: Dərs vəsaiti. Bakı: Elm və Təhsil, 2011.*
2. *Ataşov V.X., Novruzov N.A., İbrahimov E.Ə. Müəssisələrin maliyyəsi: Bakı, 2011*
3. *"Gəlir" adlı 18 №-li Mühasibat Uçotunun Beynəlxalq Standartı.*
4. *"Mühasibat uçotu" haqqında Azərbaycan Respublikasının Qanunu. 2 sentyabr 2004-cü il.*
5. *Səbzəliyev S.M. Mühasibat (maliyyə) hesabatı. Bakı: "Az.D.İ.U"nun nəşriyyatı 2003.170 s.*
6. *"Tikinti Müqavilələri Üzrə" kommersiya təşkilatları üçün 16 № li milli mühasibat uçotu standartı.*
7. *Булгакова СВ. Методология распределения затрат // Экономика - пути развития. Сборник трудов. Часть 5.- Воронеж : ВГУ, 2000,220 стр.*
8. *Бухгалтерский учет и аудит в строительстве / В.А.Лукинов, А.А.Каэпенко, С,С. Романова; Под ред. В.А. Лукинова. - М.: Юрайт, 2004, 310 стр.*


## XÜLASƏ


Azərbaycan Respublikasında tikinti sektorunda fəaliyyət göstərən müəssisələrin gəlir və xərclərinin uçotunun mövcud vəziyyətini təhlil etmək. Metodologiya: iqtisadi analiz, müqayisəli analiz. Gələcəkdə respublikada idarəçilik uçotunun inkişaf meyillərini müəyyən edəcək əsas amillər bazar proseslərinin dərinləşməsi və onların qanunvericiliklə dəqiqləşdirilməsi ilə bağlıdır. Bu vəziyyət tikinti fəaliyyətinin istehsalına xərclərin uçotunun aparılmasının təşkilati-metodiki əsaslarının kompleks tədqiqatına praktiki tələbatın olmasını göstərir. Azərbaycanda xərclərin tərkibini tənzimləyən normativ aktların təkmilləşdirilməsinə ehtiyac duyulur. Təcrübədə istifadə edilən xərclərin təsnifatı maya dəyərinin idarə edilməsinin operativ uçotunun başlıca məqsədinə uyğun gəlməlidir.


**Açar sözlər:** *tikinti sektoru, gəlirlər, xərclər, mənfəət, uçot*

**Довлетов Алигейдар Тельман**
***Азербайджанский Государственный Экономический Университет, докторант***
***Э-почта: dovlatov.aliheydar@gmail.com***

**Текущее состояние и анализ учета доходов и расходов в строительном секторе**

**РЕЗЮМЕ**

Анализ текущего состояния учета доходов и расходов предприятий, работающих в строительном секторе Азербайджанской Республики. Методология: экономический анализ, сравнительный анализ. Ключевые факторы, определяющие тенденции в управленческом учете в будущем, связаны с углублением рыночных процессов и их определением законодательством. Данная ситуация свидетельствует о практической необходимости комплексного исследования организационно-методических основ учета затрат на строительные работы. Необходимо усовершенствовать нормативные акты, регулирующие структуру расходов в Азербайджане. Используемая на практике классификация затрат должна соответствовать основной цели учета операционных затрат.

**Ключевые слова:** *строительный сектор, доходы, расходы, прибыль, бухгалтерский учет.*

**Dovletov Aliheydar Telman**
***Azerbaijan State University of Economics, doctoral student***
***E-mail: dovlatov.aliheydar@gmail.com***

**SUMMARY**

Analysis of the current state of accounting of income and expenditure of enterprises operating in the construction sector of the Republic of Azerbaijan. Methodology: economic analysis, comparative analysis. Key factors determining trends in management accounting in the future are associated with the deepening of market processes and their definition by law. This situation indicates the practical need for a comprehensive study of the organizational and methodological foundations for accounting for the costs of construction work. It is necessary to improve the regulations governing the cost structure in Azerbaijan. The cost classification used in practice should correspond to the main objective of accounting for operating expenses.

**Key words:** *construction sector, revenues, expenses, profits, accounting.*

UOT 338.51

# AZƏRBAYCANDA KİÇİK MÜƏSSİSƏLƏRİN MALİYYƏ DAYANIQLILIĞI İLƏ BAĞLI MƏHDUDİYYƏTLƏR

**ELNUR AĞAZADƏ**
*Bakı Dövlət Universiteti, doktorant*

*E-mail: elnuragazada@mail.ru*

Son dövrlərdə yerli və xarici alimlərin əsərlərində müxtəlif aspektlərdə kiçik müəssisələrin maliyyə dayanıqlılığının möhkəmləndirilməsi yolları və onların potensialından istifadənin səmərəliliyinin artırılması istiqamətində araşdırmalara rast gələ bilərik. Nəzərə alaq ki, digər ölkələrlə nisbətdə Azərbaycanda kiçik müəssisələrin maliyyə dayanıqlığının araşdırılması hələ özünün inkişaf mərhələsindədir və bu sahədə sektorun inkişafina mane olan bəzi problemlər mövcuddur.

Məlumdur ki, kiçik müəssisələrin maliyyə mexanizmində əsas vəzifə və öhdəlik elm və texnikanın nailiyyətlərini tətbiq etməkdir. Müəssisələrdə istehsalın səmərəliliyinin yüksəldilməsi indiki dövrdə maliyyə mexanizminin inkişafının əsas istiqamətidir. Xalq təsərrüfatı qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsi, zəhmətkeşlərin rifahının artırılması istehsalın səmərəliliyinin yüksəldilməsini tələb edir. Hal-hazırda istehsal strukturunun təkmilləşdirilməsi, az büdcəli məsrəfin və ehtiyatın köməyi ilə istehsalda daha yüksək nəticə əldə edilməsi əsas məsələdir. Məhsuldan çox istehsal edilməsi və eyni zamanda istehsalının rentabelliyinin yüksəldilməsi üçün həmin məhsul vahidinə az xərc çəkilməsi məqsədəuyğundur. (4)

Bununla yanaşı, maliyyə siyasətinin özü də müəssisənin əməliyyat fəaliyyətinin inkişaf strategiyasının formalaşmasına əhəmiyyətli təsir göstərir. Əmtəə bazarının istehlak və ya istehsal amillərinin inkişaf tendensiyaları istehsal olunmuş məhsul satışının realizə edilməsinin yüksək sürəti, yerinə yetirilən əməliyyatların nəticəsində mənfəətinin artması və kiçik müəssisənin iqtisadi sferada rəqabət pozisiyasının yüksəlməsi kimi əsas məqsədləri ilə birbaşa əlaqədardır. Bu halda maliyyə siyasəti seçilmiş ümumi iqtisadi strategiyaya müvafiq olaraq müəssisənin səmərəli inkişafını təminat verən vacib amillərdən biri kimi nəzərdən keçirilir. Kiçik müəssisənin əməliyyat fəaliyyətinin məqsədli maliyyə məhdudiyyəti ilə bağlı olaraq realizə oluna bilməməsinə səbəb kimi əmtəə və investisiya bazarlarının inkişaf tendensiyalarının bir-birinə uyğun gəlməməsi göstərilir. Bu halda müəssisənin əməliyyat strategiyasına düzəlişlər edilməlidir (3).

Qeyd etməliyik ki, müəssisələrin maliyyə siyasəti işləndikdə aşağıdakılar nəzərə alınmalıdır:

• işlənib hazırlanan tədbirlər Azərbaycan Respublikasında maliyyə fəaliyyətinin tənzimlənməsinə dair hüquqi-normativ aktlara uyğun olmalıdır;

• qoyulan investisiyalar iqtisadi, elmi-texniki, ekoloji və sosial səməranı təmin etməlidir;

• müəssisə investisiya olunan kapitala mənfəət almalıdır;

• müəssisə mənfəətin səmərəliliyini artırmaq məqsədilə bütün mümkün olan dövlət yardımı imkanlarından istifadə etməyi nəzərdə tutmalıdır;

• müəssisə beynəlxalq və xarici təşkilatlar və yerli bankların subsidiya və güzəştli kreditlərin cəlb edilməsi imkanlarını nəzərə almalıdır;

• müəssisənin maliyyə dayanıqlığı və ödəmə qabiliyyətinin təmini üçün investisiyanın gəlirliliyi və likvidliyi optimallaşdırılmalıdır.(4)

Əsasən stabil məhsul çeşidi olan və istehsal texnologiyalı, texnoloji tərəqqinin təsirinə az məruz qalmış kiçik müəssisələrdə artım tipinə görə məhdud əməliyyat strategiyasından istifadə olunur.

Əmtəə bazarının konyunkturasının nisbətən zəif dəyişməsi və müəssisənin stabil rəqabət pozisiyası mövcud olduğu şəraitdə belə strategiyanın seçilməsi mümkündür. Bu şəraitdə müəssisənin maliyyə siyasəti ilk növbədə, səmərəli təkrar istehsal prosesləri və aktivlərin artımına istiqamətlənir.

Qeyd etməliyik ki, müəssisənin strateji investisiya mövqeyinin arzuolunan parametrlərinə nail olmadan obyektiv məhdudiyyətlər nəzərə alınmalıdır. Belə məhdudiyyətlərdən biri müəssisənin ölçüsüdür. Belə ki, kiçik müəssisələrin investisiya resurslarının kifayət dərəcədə olmaması onlara investisiya fəaliyyəti şaxələndirməklə onun strategiyasının geniş məqsədlərini irəli sürməyə imkan vermir. Ona görə də əsasən kiçik müəssisələrdə iqtisadi inkişafin vəzifələrindən olan investisiyalaşdırma prosesi sıradan çıxmış əsas vəsaitlər və qeyri-maddi aktivlərin vaxtında yenilənməsi kimi real investisiyalaşdırma sferası ilə məhdudlaşır (2).

Eyni zamanda investisiya resurslarının mümkün olan həcmi də maliyyə dayanıqlılığı ilə bağlı obyektiv məhdudlaşdırıcı kimi çıxış edir. İnvestisiyanın fəaliyyətinin minimal həcmini onun kritik kütləsi xarakterizə edir. Bazarların qloballaşdırılması, texnoloji prosesin tempinin sürətlənməsi, kapitalın verim normasının azalması "investisiyanın kritik kütləsinin" daim artmasını şərtləndirir. Bu isə gəlirlərin dəyişmə-

diyi halda müəssisələrin iqtisadi inkişafını mürəkkəbləşdirir və onların strateji məqsədlərinin parametrlərini kəmiyyətcə azaldır (1).

Maliyyə fəaliyyətinin inkişafının arzuolunan və arzu olunmayan tendensiyalarının təyini, eləcə də kiçik müəssisənin investisiya pozisiyasının formalaşması prosesində obyektiv məhdudiyyətlərin uçota alınması, investisiya fəaliyyətinin əsas strateji məqsədlər sistemini tərtib etməyə imkan verir. Bu məqsədlər sistemini dəqiq və qısa fomalaşdıraraq, onların hər biri konkret göstəricilərdə - strateji məqsədlər normativində əks olunmalıdır (3).

Çox sayda təzyiq və məhdudiyyətlərlə üzləşmək hər bir kiçik müəssisənin dəyişən xarici mühitdə özündən asılı olmayan səbəblərdən qarşılaşdığı problemlərdir. Bu təzyiq və məhdudiyyətlər dövlət, yerli özünüidarə orqanları, ictimai təşkilatlar, istehlakçıların hüquqlarının müdafiəsi və ekologiyanın qorunması üzrə müxtəlif təşkilatlar tərəfindən olur. Müəssisə buraxdığı məhsula tələbatın dəyişməsi, rəqiblərin bazara yeni istehsal olunan məhsul və ya xidmətin təklifi, məhsul qiymətinin dəyişməsi, investorların davranışı və s. hamısı sürətli formada dəyişən başlıca parametrlər kimi göstərilən göstəricilərdir (5).

Bütün qeyd edilən məqsədli normativlər kiçik müəssisənin maliyyə fəaliyyətinin başlıca strateji məqsədinin birbaşa realizə olunmasını xarakterizə edir.

Dünyanın bir çox inkişaf etmiş ökələrində kiçik biznes müəssisələrin maliyyələşdirilməsi ilə bağ1ı xüsusi döv1ət qurumları, müxtə1if formalı fondlar fəa1iyyət göstərir. Ölkəmizdə belə kiçik müəssisələrin maliyyələşdirilməsindəki məhdudiyyətlər kiçik müəssisələrin inkişafina mane olmaqla bərabər, bununla əlaqəli olan problemlərin daha da dərinləşrnəsinə səbəb və nəticə olur. Ölkəmizdə dövlət tərəfindən kiçik sahibkarlığın maliyyələşdirilməsi üçün müxtəlif mexanizmlərin fəaliyyət göstərməsinə baxmayaraq, maliyyələşdirilmə zamanı müəyyən təkrnilləşdirmə işlərinin aparılrnasına ehtiyac duyulur. Buna əlavə olaraq, bank kreditlərindən, beynəlxalq maliyyə fondlarının vəsaitlərindən istifadə etməklə, həmçinin, dünya təcrübəsində geniş yayılan françayzinq və lizinqin istifadəsi ilə kiçik bizneslə məşğul olan subyektlərin inkişafını sürətləndirmək, bu tip kiçik müəssisələrin avadanlıq alması üçün maliyyələşdirilməsinə yardım etmək mümkündür. Təsadüfi deyil ki, 2016-cı ildə ölkə Prezidentinin imzaladığı fərmanı ilə təsdiqlənmiş “Strateji Yol Xəritəsi”ndə də sahibkarlığa dəstəyə geniş yer verilmiş və 2020-ci il “Strateji baxış” konsepsiyasında, eləcə də 2025-ci ilə qədər olan “Uzunmüddətli baxış” şərhində bu sahənin ölkəmizin iqtisadiyyatı üçün nə qədər vacib və əhəmiyyətli olduğu vurğulanmışdır. Belə ki, ölkəmizin iqtisadiyyatının daim böyüməsi üçün məhz sözügedən fəaliyyət sahəsinin onun əsas problemi sayılan maliyyə baxımından təminatı və inkişafi hazırkı dövrdə öz aktuallığını saxlayır.

Kiçik sahibkarlıq subyektlərinin fəaliyyətlərni məhdudlaşdıran səbəblərdən biri də bir çox sahə üçün 1isenziya tələb olunması və bu lisenziyalarm alınmasının şərtləri idi ki, məhz cənab prezidentin 2016-cı ilin 21 dekabr tarixində imzaladığı 713 nömrəli “Lisenziyalaşdırma sahəsində bəzi görülən tədbirlər haqqında” adında Fərmanına əsasən fəaliyyətinə lisenziya üzrə icazə verilən sahələrin sayı azaldılmışdır. Bundan əlavə, hələ də keçərli olan elan edilmiş müddətsiz lisenziyalar (müddətli lisenziyalar əvəz edilib), onların-lisenziyaların alınması üçün icra edilən xeyli asanlaşdırılmış proseslər, dövlətə ödənilən rüsumlar üzrə azalmalar (iki qat) inkişafın və dəstəyin göstəriciləridir. Regionlarda isə bu azalmalar dörd qat müşahidə olunmuşdur (6).

Kiçik müəssisələrin kreditləşməsi zamanı onların maddi vəziyyətinin çətinlik yaratması ilə yanaşı, biznesdə təcrübəsiz olmaları da kredit verilməsinə təsir edən amillərdəndir. Bundan əlavə, kiçik müəssisələrdə maliyyə baxımından müəyyən çətinliklərin olması kreditin riskliliyini artıraraq kredit ödəniş prinsiplərinə mənfi təsir edir. Bu zaman, borc alanlara qarşı banklar tərəfindən kreditləşmənin prinsiplərində və eyni zamanda faiz üzrə tariflərində daha möhkəm tələblər və qaydalar qoyulur. Bu cür tələblər isə onlar tərəfindən təmin edilə bilmədiyi üçün onların kredit götürməsi imkanları aşağı (2).

Bəzən kiçik müəssisələrin maliyyə dəstəyi əldə etməsinə maneə olan amillərdən biri də əldə etdikləri maliyyə vəsaitinin düzgün istifadə etməmələridir. Pul vəsaitlərinin düzgün və səmərəli idarə edilməsi üçün biznesə başlamadan öncə biznes plan hazırlamaq lazımdır. Biznes plan kiçik müəssisənin marketinq strategiyasını, insan resurslarını, maliyyə hesabatlarını, biznes əlaqələrini və təchizatçılarını, biznesin xüsusiyyətindən asılı olaraq bütün kiçik detalları əhatə edəcək şəkildə, kiçik biznesmen üçün “yol xəritəsi” kimi hazırlanmalıdır. Burada bazara daxil olma tarixlərindən tutmuş, hər ay (yeni başlayanlar üçün lazım olarsa, hər həftə və hər gün) üçün xərc maddələri və onlara sərf olunan maliyyə haqqında planlaşdırılmış göstəricilər olmalı, bu göstəricilər hər hesabat ayı (həftəsi və ya günü) üçün müzakirə edilməli, hesabatlar hazırlanmalıdır. Bununla da maliyyə vəsaitlərinin düzgün istifadə edilməsi üçün müəyyən irəliləyiş əldə etmək olar.

## NƏTİCƏ

Kiçik müəssisələrin maliyyə dayanıqlılığına dolayı yolla məhdudiyyətlər yaradan səbəblərdən birincisi marketinq strategiyasının düzgün qurulmamasıdır. Belə ki, "müştəri hər zaman haqlıdır" strategiyası ilə məsələyə baxdıqda müştərilərə onların istədiyi kimi xidmət etmək və daim müştəri məmnuniyyətini yüksəltmək tələb olunur. Bu məsələni həll etməkdən ötrü bazar araşdırılmalı, müştərinin istəyi və innovativlik birinci dərəcəli amil kimi nəzərə alınaraq strategiya qurulmalıdır. İkincisi, müəssisəyə aidiyyəti olan bütün şəxslər inkişaf üçün daim çalışmalıdırlar. Buraya, ideyanın sahibindən satışı həyata keçirən nümayəndəyə kimi, təmizlik işlərini görən xadimədən kiçik müəssissənin sistemli uçotunu aparan mühasibə kimi hər kəs daxil edilir. Bu da düzgün menecment-motivasiya sisteminin olması bu problemi həll edə bilər.

Aparılmış təhlillərə əsasən deyilə bilər ki, Azərbaycan son illərdə həyata keçirdiyi özəl sektora dəstək tədbirləri nəticəsində həm qlobal, həm də regional səviyyədə ən islahatçı ölkə kimi tanınmışdır. Nəticədə bazarların fəaliyyətinə mane olan məhdudiyyətlərin aradan qaldırılması Azərbaycana bütün iqtisadiyyatı boyunca tərəqqiyə nail olmaq imkanını yaradacaqdır.

**Açar sözlər:** *kiçik müəssisələr, maliyyə dayanıqlılığı, inkişaf strategiyası.*

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Ataşov B., İbrahimov E., Novruzov N., (2009), Müəssisələrin maliyyəsi, Dərslik, "Kooperasiya" nəşriyyatı, Bakı, 339 səh.*
2. *Atakişiyev R., (2013, fevral) Azərbaycan iqtisadiyyatmda kicik müəssisələrin yeri və rolu adlı məqalə, "EcoVision" jurnalı (http://ser.az/az/pages/8/)*
3. *Atakişiyev R., (2013), Gənc sahibkarların yaddaş kitabçası, "Təkan TGİB" nəşriyyatı, Bakı, 140 səh.*
4. *Atakişiyev M.C., Nuraliyeva R.N., Abbasova N.H. (2012), İnvestisiya fəaliyyətinin təşkili, Dərslik, "Azərnəşr" nəşriyyatı, Bakı, 251 səh*
5. *Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi, 2016-cı il 6 dekabr tarixli Fərman*
6. *Əhmədov M.A., Hüseyn A.C. (2011) – İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları, Metodiki vəsait, "İqtisad Universiteti" nəşriyyatı, Bakı, 120 səh.*
8. *Əliyev R.B. (2007), İqtisadi təhlilin nəzəriyyəsi, Dərslik, "İqtisad Universiteti" nəşriyyatı, Bakı, 484 səh.*


**Эльнур Агазаде**
***Бакинский Государственный Университет***
***Э-почта: elnuragazada@mail.ru***

**Ограничения финансовой устойчивости малых предприятий в Азербайджане**

**РЕЗЮМЕ**

Малый бизнес сталкивается со многими проблемами, связанными с финансовой стабильностью в деловой среде. Среди этих проблем, помимо таких вопросов, как неопытность, трудности в управлении, незнание рынка в полной мере, наиболее важной является неспособность получить доступ к финансовым источникам, что создало определенные ограничения при проведении исследования. Цель проведенного исследования – изучить научно-теоретические основы укрепления финансовой устойчивости малых предприятий, найти альтернативные пути в динамике развития малых предприятий в Азербайджане и расширить их применение в результате анализа показателей устойчивости. Также в Азербайджане были даны рекомендации по поддержанию финансовой устойчивости малых предприятий и разработаны научные предложения.

**Ключевые слова:** *малые предприятия, финансовая устойчивость, стратегия развития.*

**Elnur Aghazade**
***Baku State University***
***E-mail: elnuragazada@mail.ru***

**Restrictions on the financial stability of small enterprises in Azerbaijan**

**SUMMARY**

Small businesses face many challenges related to financial stability in the business environment. Among these problems, in addition to issues such as inexperience, difficulty in management, not being fully familiar with the market, the most important is their inability to access financial sources, which created certain limitations during the investigation of the research. The purpose of the conducted research is to investigate the scientific-theoretical foundations of strengthening financial stability in small enterprises, to find alternative ways in the development dynamics of small enterprises in Azerbaijan, and to increase their application as a result of the analysis of stability indicators. Also, in Azerbaijan, recommendations on maintaining the financial stability of small enterprises were given and scientific proposals were developed.

**Keywords:** *small enterprises, financial stability, development strategy*

UOT 33

# DAVAMLI İNKİŞAFIN FORMALAŞDIRILMASI MƏQSƏDİLƏ "YAŞIL" İQTİSADİYYATIN MALİYYƏLƏŞDİRİLMƏSİNİN TƏHLİLİ

**AYSEL HƏSƏNOVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant*
*E-mail: hasanova.aysel26@gmail.com*

## GİRİŞ

Yaşıl maliyyələşmə ölkələrin tənzimləyici çərçivələrində dəyişikliklər, dövlət maliyyə stimullarının uyğunlaşdırılması, müxtəlif sektorlardan yaşıl maliyyələşdirmənin artırılması, dövlət sektorunun maliyyələşdirilməsi ilə bağlı qərarların qəbulunun Dayanıqlı İnkişaf Məqsədlərinin (BMT) ekoloji ölçüsü ilə uyğunlaşdırılması, təmiz və iqtisadi layihələrə investisiyaların artırılması "yaşıl" texnologiyalar, davamlı təbii resurslara əsaslanan yaşıl iqtisadiyyatlar və iqlim ağıllı mavi iqtisadiyyat üçün maliyyə, "yaşıl" istiqrazlardan istifadənin artırılması və s. vasitəsilə təşviq edilə bilər.

